Xalqın qəzeti!

# Xalq qəzeti

№ 49 (31018) 17 mart 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycandan Türkiyəyə "mavi axın" tarixi od qardaşlığıdır




**TANAP-ın istismara verilməsi Türkiyə – Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Səhifə ⇨ 7

## Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri cənab Kasım-Jomart Tokayevə

**Hörmətli Kasım-Jomart Kemeleviç!**

Qazaxıstan Respublikasının yeni Konstitusiyası üzrə referendumun müvəffəqiyyətlə başa çatması münasibətilə Sizi və Sizin simanızda qardaş Qazaxıstan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Referendumun nəticəsi – yeni Konstitusiyanın qəbulu xalqınızın birliyinin və milli iradəsinin bariz ifadəsi, Sizə olan böyük inam və etimadının təzahürü, Qazaxıstanın rifahı naminə yürütdüyünüz qətiyyətli siyasətə dəstəyinin göstəricisidir. Heç şübhə yoxdur ki, siyasi sistemin modernləşdirilməsini və idarəetmə modelinin təkmilləşdirilməsini nəzərdə tutan bu mühüm hadisə Qazaxıstanın tarixində yeni mərhələnin başlanğıcını qoyaraq qardaş ölkənizin hərtərəfli inkişafına töhfə verəcək, onun beynəlxalq müstəvidə rolunu və mövqeyini daha da gücləndirəcəkdir.

Əminəm ki, xalqlarımızın ortaq tarixindən, zəngin mənəvi dəyərlərindən güc alan, dostluğa, qardaşlığa, qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-Qazaxıstan əlaqələri, strateji tərəfdaşlığı və müttəfiqliyi bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf etməyə və daha da möhkəmlənməyə davam edəcəkdir.

Hörmətli Kasım-Jomart Kemeleviç, bu böyük zəfər münasibətilə Sizə bir daha təbriklərimi çatdırır, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Qazaxıstan xalqına isə daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 mart 2026-cı il**

## Dövlət idarəçiliyində mühüm dəyişiklik



Səhifə ⇨ 6

## Avropa Macarıstanda seçki rəqabətini diqqətlə izləyir



Səhifə ⇨ 6

## Səs-küylü bəyanatlar və gerçək geosiyasət



Səhifə ⇨ 3

## İflasdan qaçış yolu: avantüradan uzaq durmaq



Səhifə ⇨ 6

## TRIPP nə qədər gecikə bilər?




Səhifə ⇨ 5

## Açılan yollar – sülhün polad qolları



Səhifə ⇨ 5

## "Abşeron" yatağının tammiqyaslı işlənməsinə hazırlıq



Səhifə ⇨ 7

## "Erməni kilsəsi" ordudan çıxdaş edildi

*Vaxtilə işğala xeyir-dua verənlərin bugünkü aqibəti tarixin ironiyasıdır*



**Erməni Apostol Kilsəsinin ölkədə cərəyan edən siyasi proseslər fonunda hakimiyyətlə qarşıdurmanı daha da dərinləşdirməyə yönəlmiş davranışları diqqətdən yayınmır. Kilsə rəhbərliyi cəmiyyətdə gərginliyi azaltmaq əvəzinə, qarşıdurma mühitini qızışdıran mövqe sərgiləməkdə davam edir. Özünü mənəvi institut kimi təqdim edən Eçmiədzin getdikcə daha açıq şəkildə siyasi mübarizənin iştirakçısına çevrilir.**

Kilsənin Ali Ruhani Şurasının Ermənistanın Baş naziri Nikol Paşinyanın bir neçə gün öncə Avropa Parlamentində etdiyi çıxışda bu qurum barədə səsləndirdiyi bəyanatları qınaması bunun daha bir göstəricisidir. Bütün ermənilərin katolikosu II Qareginin rəhbərliyi ilə keçirilən şura iclasının yekunlarına dair Eçmiədzinin yaydığı məlumat aranı daha da qızışdırmağa xidmət edir. Məlumata görə, şura üzvləri N.Paşinyanın Avropa Parlamentində səsləndirdiyi və Erməni Apostol Kilsəsi ilə ruhaniləri "xarici təsir agenti", "müharibə partiyası" və sair kimi təqdim edən ittihamları qəti şəkildə pisləyiblər. Bildirilib ki, bu cür açıqlamalar hakimiyyətin "qeyri-qanuni addımlarını" (?) əsaslandırmaq və kilsəyə qarşı təqibləri davam etdirmək cəhdinin açıq təzahürüdür.

*(ardı 4-cü səhifədə)*

## Rusiya miqrasiya nəzarətini rəqəmsallaşdırır



**Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin ölkədəki miqrantlar və onların ailələri üçün yeni sərt qanun layihələrinin hazırlanmaqda olduğunu açıqlayıb. O bildirib ki, məqsəd miqrantların gəlir və qalma hüquqlarına nəzarəti gücləndirmək, qeyri-qanuni miqrasiyanın qarşısını almaq və əmək miqrantlarının fəaliyyətini ölkə qanunvericiliyinə uyğun təmin etməkdir. Yeni qaydalar həm iş icazələri, həm də patent sistemi vasitəsilə miqrantların və onların ailələrinin statusunu ciddi şəkildə tənzimləyəcək. "Hazırda Dövlət Dumasında miqrasiya siyasətinin daha da təkmilləşdirilməsinə yönəlmiş bir sıra qanunvericilik təşəbbüsləri baxışdadır", – Volodin "Telegram" kanalında yazıb.**

*(ardı 5-ci səhifədə)*

## Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Hüseynov Ramil Arif oğlu – mayor

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Mövlayev Samir Yaqub oğlu – mayor
Abbasov Elsevər Məhəmməd oğlu – kapitan
Eldarov Zaur Səvzixan oğlu – kapitan
Hüseynov Elçin Allahverdi oğlu – kapitan
Fərzəliyev İlkin Mirzə oğlu – leytenant
Vahabzadə Şahin İdayət oğlu – leytenant
Adamov Xəyal Fikrət oğlu – baş çavuş
Hacızadə Səbuhi Elşən oğlu – baş çavuş
Qəhrəmanzadə Elman Qəhrəman oğlu – baş çavuş.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 mart 2026-cı il**

## Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsinin bərpası və konservasiyası işlərinə vəsait ayrılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, XII əsr Azərbaycan memarlığının görkəmli nümunəsi olan Möminə xatun türbəsinin kompleks bərpası və konservasiyası işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsində bərpa və konservasiya işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 9,566.0 min (doqquz milyon beş yüz altmış altı min) manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 mart 2026-cı il**

# Xocavənddə Əlaqələndirmə Qərargahının iclası






**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Xocavənd şəhərində Qərargahın növbəti iclası keçirilib.**

İclasda çıxış edən Samir Nuriyev işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış prosesinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin və ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğunu bildirib. Deyib ki, bu proses yalnız ərazilərin fiziki baxımdan bərpasını deyil, həmin torpaqlarda həyatın yenidən qurulmasını, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasını və keçmiş məcburi köçkünlərin doğma yurdlarına ləyaqətli qayıdışını nəzərdə tutan kompleks yanaşmanı əhatə edir.





Qərargah rəhbərinin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə son illər həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində əsas prioritet baza infrastrukturunun yaradılması olub. Elektrik enerjisi, qaz və su təchizatı infrastrukturunun yenidən qurulması, yolların,





körpülərin və tunellərin inşası regionda həyatın bərpası üçün ilkin zəruri şəraiti formalaşdırıb. Hazırkı mərhələdə isə dövlət tərəfindən ayrılan resursların mühüm hissəsi yaşayış fondunun genişləndirilməsinə, fərdi və çoxmənzilli evlərin tikintisinə və bərpasına yönəldilir. Bununla yanaşı, məktəblər, uşaq bağçaları, tibb məntəqələri və dövlət xidmətləri mərkəzləri kimi sosial obyektlərin fəaliyyətlərinin təşkili paralel şəkildə həyata keçirilir. Qeyd olunub ki, bu yanaşma öz doğma torpaqlarına qayıdan keçmiş məcburi köçkünlərin ilk gündən normal həyat şəraitinə sürətli adaptasiyasına imkan verir.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək ümumilikdə 41 yaşayış məntəqəsinin tikilərək və bərpa edilərək istifadəyə verildiyini, həmin ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışının təmin olunduğunu vurğulayan qərargah rəhbəri görülən işlər nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 80 mindən çox insanın yaşadığını və fəaliyyət göstərdiyini iclas iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edilib ki, qarşıdakı dövrdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində köç prosesi daha da sürətlənəcək və Böyük Qayıdış Proqramının miqyası genişlənəcək.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə layihələrin icrası Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Proqramda nəzərdə tutulmuş tədbirlər ardıcıl şəkildə icra olunur, bu isə qarşıya qoyulan məqsədlərə mərhələli şəkildə nail olunmasına və bərpa-quruculuq prosesinin uğurla davam etdirilməsinə imkan yaradır.

S.Nuriyev vurğulayıb ki, məskunlaşmanın dayanıqlılığı birbaşa məşğulluq imkanlarının yaradılması ilə bağlıdır. Bu baxımdan yeni iş yerlərinin açılması, kənd təsərrüfatı, xidmət sektoru, istehsal, tikinti və logistika sahələrində fəaliyyət imkanlarının genişləndirilməsi, həmçinin sahibkarlığın təşviqi, investorların cəlb olunması və dəstək mexanizmlərinin tətbiqi mühüm əhəmiyyət daşıyır.

Qərargah rəhbəri tarixi, mədəni və dini abidələrin bərpasının Böyük Qayıdış prosesinin mühüm istiqamətlərindən biri olduğunu qeyd edərək, bunun milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, habelə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülən işlər barədə məlumatlar təqdim olunub. Məskunlaşma, iqtisadi fəallığın artırılması, sahibkarlığın inkişafı və mədəni irsin bərpası istiqamətində aparılan işlərə dair məruzələr dinlənilib.

İclasın yekununda Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş strateji vəzifələrin səmərəli icrası üçün zəruri tədbirlərin vaxtında həyata keçirilməsinin vacibliyi vurğulanıb. Qeyd olunub ki, hər bir məsələ üzrə konkret addımlar atılmalı və verilmiş tapşırıqlar operativ şəkildə icra olunmalıdır.



Səfər çərçivəsində Əlaqələndirmə Qərargahının üzvləri Xocavənd rayonu ərazisində həyata keçirilən bərpa, infrastruktur və iqtisadi layihələrlə, o cümlədən Xocavənd şəhəri və Hadrut qəsəbəsinin Baş planları ilə tanış olublar. Xocavənd şəhərində təmir olunmuş fərdi evlərə, Hadrut qəsəbəsində ilk yaşayış məhəlləsinə və Quzeyxırman kəndində aparılan təmir-bərpa işlərinə əyani baxış keçirilib. Həmçinin Hadrutda turizm inkişaf konsepsiyası təqdim olunub, təmir edilməsi nəzərdə tutulan mehmanxana layihəsi ilə bağlı məlumat təqdim edilib.

Xocavənd rayonunda bağçılıq təsərrüfatına və Qırmızı Bazar qəsəbəsində yerləşən günəbaxan yağları zavoduna baxış keçirilib, müəssisənin fəaliyyəti və yerli iqtisadiyyata verdiyi töhfə haqqında məlumat dinlənilib.

Səfər zamanı Hadrut məscidi ziyarət edilib, Azıx mağarasının infrastrukturunun inkişaf konsepsiyası təqdim olunub və ərazidə aparılan arxeoloji tədqiqatlar barədə məlumat verilib.

***AZƏRTAC***

# Parlamentlərarası İttifaqın prezidenti Milli Məclisdə



**Milli Məclisin sədri Sahibə Qafarova XIII Qlobal Bakı Forumunda iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson ilə görüşüb.**

Görüşdə Bakı Forumu tədbir çərçivəsində aparılan müzakirələrin əhəmiyyəti barədə fikirlər səsləndirilib. Sahibə Qafarova hazırda gərgin regional və beynəlxalq vəziyyət fonunda Azərbaycanın sülh və dialoq naminə göstərdiyi səyləri qeyd edərək, bu çərçivədə Qlobal Bakı Forumunun beynəlxalq ictimaiyyəti narahat edən bir çox məsələlərin müzakirəsi baxımından mühüm platforma təşkil etdiyini vurğulayıb.

Tulia Akson Qlobal Bakı Forumunun beynəlxalq platforma kimi mühüm əhəmiyyətə malik olduğunu qeyd edib. O, həmçinin Azərbaycan və Ermənistan arasında sülh prosesində Prezident İlham Əliyevin oynadığı mühüm rolu və təşəbbüslərini yüksək qiymətləndirərək, bunun dövlətlər arasında problemlərin həlli üçün bir model olduğunu bildirib.

Söhbət zamanı Milli Məclisin Parlamentlərarası İttifaq çərçivəsində fəal təmsilçiliyindən, bu beynəlxalq təşkilatla Azərbaycan parlamenti arasında əməkdaşlığın mövcud səviyyəsindən razılıq ifadə olunub.

***



**Milli Məclisin sədri Sahibə Qafarova dünən Çinin Xalq Respublikasının ölkəmizdəki səfiri Lu Mey ilə də görüşüb.**

Görüşdə ölkələrimiz arasında yüksək səviyyədə olan strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunaraq, Prezident İlham Əliyevin ötən il Çinə dövlət səfərindən sonra əlaqələrimizin daha da inkişaf edərək, özünün ən yüksək səviyyəsinə qalxdığı vurğulanıb.

Söhbət zamanı parlamentlərimiz arasında əlaqələrin ölkələrimiz arasında münasibətlərin mühüm tərkib hissəsini təşkil etdiyi qeyd olunub. Münasibətlərin daha da dərinləşdirilməsi istiqamətində gələcək imkanlar nəzərdən keçirilib.

***XQ***

# Hikmət Hacıyev Azıx mağarası ilə bağlı paylaşım edib



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Xocavənddə yerləşən Azıx mağarası ilə bağlı “X” sosial media hesabında paylaşım edib.**

O qeyd edib ki, Azıx mağarası Qafqazda və ümumilikdə Avrasiya məkanında ən mühüm Paleolit dövrü abidələrindən biri hesab olunur:

“Hazırda burada beynəlxalq və yerli alimlərin iştirakı ilə arxeoloji tədqiqatlar davam etdirilir. Bu araşdırmaların neandertalların, homosapienslərin fəaliyyətinə, eləcə də onların bölgədə birgə mövcudluğu və ya paralel şəkildə məskunlaşması ehtimalına dair mühüm elmi məlumatlar ortaya qoyacağı gözlənilir”.

***XQ***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2026-cı ilin aprel ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu** | **1** |
| **Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu** | **2** |
| **Baş nazirin müavini<br>Şərifov Samir Rauf oğlu** | **3** |
| **Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu** | **6** |
| **İqtisadiyyat şöbəsinin müdiri<br>Həsənova Sevinc Telman qızı** | **7** |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu** | **30** |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu** | **9, 23** |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu** | **10, 24** |
| **Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu** | **13, 27** |
| **Humanitar məsələlər şöbəsinin müdiri<br>Həbibbəyli Ərəstü İsa oğlu** | **14** |
| **Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu** | **15** |
| **Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu** | **20** |
| **Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu** | **21** |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu** | **8, 22** |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu** | **16, 28** |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu** | **17, 29** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012) 492-19-23, (012) 492-88-96.**

# DİN-də xidmətə qəbulun sıra baxışı



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 16-da respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 129 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

***XQ***



# Səs-küylü bəyanatlar və gerçək geosiyasət

## *ABŞ-ın bəzi konqresmenlərinin Ermənistan təşəbbüsünün arxa planı*

**ABŞ Konqresində bir qrup konqresmenin Ermənistanın müdafiə qabiliyyətinin gücləndirilməsi ilə bağlı təşəbbüsü regionda müəyyən müzakirələrə səbəb olub. Məktubda Ermənistan üçün maliyyə dəstəyi ayrılması, Azərbaycana hərbi yardımın dayandırılması və sanksiyaların tətbiqi kimi kifayət qədər sərt tələblər yer alır. İlk baxışdan bu addım Vaşinqtonun Cənubi Qafqaz siyasətində yeni bir dönüşün başlanğıcı kimi görünə bilər. Lakin beynəlxalq siyasətin təcrübəsi göstərir ki, bu cür təşəbbüslərin arxasında dayanan siyasi məntiqi anlamaq üçün hadisələrə daha geniş kontekstdə baxmaq lazımdır.**

### Sərt çağırışlar regionda geosiyasi balansı dəyişə bilərmi?

ABŞ siyasi sisteminin institusional məntiqi ilə tanış olanlar üçün bu sualın cavabı, əslində, aydındır. Konqresdə tez-tez ortaya çıxan bu cür məktublar, qətnamə layihələri və çağırışlar əksər hallarda birbaşa siyasi qərarların qəbuluna yönəlmir, daha çox siyasi siqnal mexanizmi kimi işləyir. Belə təşəbbüslər vasitəsilə konqresmenlər həm öz seçicilərinə, həm də onları dəstəkləyən maraq qruplarına müəyyən mesajlar göndərirlər.

ABŞ siyasi sistemində Konqres yalnız qanunverici orqan deyil, həm də siyasi mövqelərin nümayiş etdirildiyi böyük platformadır. Konqresdə müxtəlif regional və beynəlxalq məsələlər ətrafında formalaşmış siyasi koalisiyalar mövcuddur. Məhz bu koalisiyalar müəyyən mövzuları gündəmdə saxlamaq üçün mütəmadi olaraq bəyanatlar verir, məktublar göndərir və təşəbbüslərlə çıxış edirlər. Deməli, xarici siyasət mövzuları çox vaxt daxili siyasi kommunikasiya vasitəsinə çevrilir. Digər mühüm faktor isə ABŞ-da lobbiçilik institutunun güclü və sistemli xarakter daşımasıdır. Vaşinqton uzun illərdir müxtəlif diaspor təşkilatlarının, biznes qruplarının və ictimai birliklərin siyasi təsir göstərməyə çalışdığı qlobal lobbi mərkəzlərindən biridir. Bu sistem, faktiki olaraq, ABŞ siyasi həyatının institusional elementinə çevrilib. Müxtəlif diaspor şəbəkələri bu mexanizmlərdən aktiv şəkildə istifadə edərək öz maraqlarını Konqres səviyyəsində gündəmə gətirməyə çalışırlar.

Deməli, Konqresdə səsləndirilən təşəbbüsləri təkcə ABŞ dövlət siyasətinin birbaşa ifadəsi kimi oxumaq çox zaman düzgün nəticəyə aparmır. Bunlar daha çox müxtəlif maraq qruplarının siyasi təsir uğrunda mübarizəsinin və ABŞ daxili siyasi balanslarının əks olunduğu mürəkkəb prosesin bir hissəsi kimi qiymətləndirilməlidir.



### Vaşinqtonun siyasi gündəmində yenidən fəallaşma?

Sualın cavabını anlamaq üçün diqqəti daha geniş geosiyasi kontekstə yönəltmək lazımdır. Çünki Cənubi Qafqaz artıq əvvəlki kimi yalnız regional münaqişələr prizmasından qiymətləndirilən bir məkan deyil. 2020-ci ildən sonra regionda formalaşan yeni reallıq regionun iqtisadi və nəqliyyat arxitekturasını da yenidən formalaşdırdı. Uzun illər münaqişə və təhlükəsizlik riskləri ilə assosiasiya olunan Cənubi Qafqaz getdikcə daha çox strateji tranzit və logistika mərkəzi kimi qəbul olunmağa başlayır.

Xüsusilə son illərdə qlobal logistika sistemində baş verən dəyişikliklər regionun əhəmiyyətini daha da artırıb. Avropa ilə Asiya arasında alternativ nəqliyyat marşrutlarının formalaşdırılması, enerji və ticarət yollarının diversifikasiyası kimi məsələlər Cənubi Qafqazı böyük güclərin diqqət mərkəzinə gətirir. Bu kontekstdə Orta Dəhlizin əhəmiyyəti xüsusilə artır. Çin–Mərkəzi Asiya–Cənubi Qafqaz–Avropa xətti boyunca uzanan bu marşrut geosiyasi təsir alətinə çevrilir. Məhz bu məqamda regionun geosiyasi çəkisi artır və bununla paralel olaraq siyasi rəqabət də yeni forma alır. Çünki beynəlxalq siyasətdə iqtisadi və nəqliyyat dəhlizləri çox vaxt siyasi təsir zonalarının formalaşması ilə birbaşa bağlı olur. Hansı ölkənin hansı layihədə hansı rol oynayacağı, hansı dövlətin hansı marşrut üzərində strateji üstünlük əldə edəcəyi artıq qlobal güclər üçün mühüm siyasi məsələdir.

Belə bir şəraitdə informasiya və siyasi təsir mübarizəsinin daha da aktivləşməsi tamamilə gözləniləndir. Müasir beynəlxalq münasibətlər sistemində geosiyasi rəqabətin mühüm hissəsi narrativlərin formalaşdırılması, beynəlxalq rəyin istiqamətləndirilməsi və siyasi gündəmin müəyyənləşdirilməsi üzərindən həyata keçirilir. Başqa sözlə desək, müasir geosiyasətdə təsəvvürlər və siyasi interpretasiyalar uğrunda mübarizə gedir. Hansı ölkə haqqında hansı obrazın yaradılması, hansı hadisənin hansı kontekstdə təqdim olunması və hansı mövzunun beynəlxalq siyasi gündəmdə saxlanılması strateji əhəmiyyət daşıyır. Çünki formalaşdırılan siyasi narrativlər sonradan diplomatik qərarların, sanksiya mexanizmlərinin və beynəlxalq siyasi münasibətlərin əsaslandırılmasına çevrilə bilər.

Deməli, ABŞ Konqresində səsləndirilən çıxışları geniş siyasi kommunikasiya strategiyasının elementi kimi də qiymətləndirmək mümkündür. Onlar bir tərəfdən müəyyən maraq qruplarının siyasi aktivliyini göstərir, digər tərəfdən isə region ətrafında formalaşan beynəlxalq diskursun istiqamətinə təsir etməyə çalışır.

### ABŞ Konqresində çağırışlar və Cənubi Qafqazda geosiyasi durum

Bu suala cavab vermək üçün real geosiyasi konfiqurasiyadan çıxış etmək lazımdır. Cənubi Qafqazın geosiyasi arxitekturası bir neçə mühüm amilin – regional güclərin maraqları, beynəlxalq enerji layihələri, nəqliyyat dəhlizləri və təhlükəsizlik balansının qarşılıqlı təsiri nəticəsində formalaşır. Bu baxımdan ABŞ Konqresində səsləndirilən



təşəbbüslərin həmin balansı fundamental şəkildə dəyişməsi ehtimalı olduqca aşağı görünür.

Vaşinqtonun rəsmi siyasətinə diqqət yetirdikdə bu daha aydın görünür. ABŞ administrasiyasının Cənubi Qafqaz üzrə mövcud strategiyası əsasən üç əsas istiqamət üzərində qurulub: regionda sabitliyin qorunması, iqtisadi və nəqliyyat kommunikasiyalarının inkişafının təşviqi və Ermənistanla Azərbaycan arasında sülh prosesinin dəstəklənməsi.

Müasir beynəlxalq münasibətlər sistemində enerji təhlükəsizliyi və logistika marşrutlarının diversifikasiyası böyük güclərin prioritetləri arasında xüsusi yer tutur. Avropanın enerji təminatı, Asiya ilə ticarət marşrutlarının şaxələndirilməsi və qlobal təchizat zəncirlərinin sabitliyi kimi məsələlər Cənubi Qafqazın strateji əhəmiyyətini artırır. Region artıq qlobal iqtisadi əlaqələrin mühüm tranzit qovşağı kimi qiymətləndirilir. Belə bir şəraitdə sabitliyin qorunması və regional əməkdaşlığın təşviqi Vaşinqton üçün daha rasional strateji seçim kimi görünür.

Məhz buna görə də Konqresdə səsləndirilən bəzi sərt təşəbbüslər daha çox siyasi və simvolik xarakter daşıyır. Onlar real geosiyasi strategiyanın dəyişməsindən daha çox ABŞ siyasi sistemində mövcud olan lobbi şəbəkələrinin və daxili siyasi rəqabətin nəticəsi kimi ortaya çıxır. Başqa sözlə desək, Vaşinqton siyasətində bəzən ən sərt ritorika belə ən ciddi strateji qərar demək deyil. ABŞ kimi mürəkkəb siyasi sistemdə Konqres təşəbbüsləri, lobbi fəaliyyətləri və administrasiyanın real xarici siyasət kursu paralel şəkildə mövcud olur və hər zaman eyni istiqamətdə hərəkət etmir.

Müəyyən siyasi təşəbbüslərin və ya sərt ritorikanın zaman-zaman gündəmdə səs-küy yaratması təəccüblü deyil. Beynəlxalq siyasətdə belə epizodlar tez-tez baş verir. Lakin onlar əksər hallarda strateji proseslərin istiqamətini dəyişmir. Cənubi Qafqazın uzunmüddətli geosiyasi trayektoriyası daha fundamental faktorlar – regional sabitliyin möhkəmlənməsi, nəqliyyat və enerji layihələrinin inkişafı, eləcə də Ermənistanla Azərbaycan arasında sülh prosesinin davamlılığı ilə müəyyən olunur. Davamlı sülh regional təhlükəsizlik arxitekturasının möhkəmlənməsini təmin edir. Azərbaycan və Ermənistan arasında etimadın artırılması, sərhəd gərginliyinin minimuma endirilməsi, silahlı insidentlərin qarşısının alınması və qarşılıqlı monitorinq mexanizmlərinin işləməsi uzunmüddətli sabitlik üçün əsasdır.

Son olaraq qeyd edək ki, ABŞ Konqresində Ermənistanla bağlı səsləndirilən çağırışları Cənubi Qafqaz siyasətində fundamental dönüş kimi qiymətləndirmək doğru olmaz. Daha çox beynəlxalq siyasətin yaxşı tanınan bir reallığını xatırladır: qlobal siyasətdə bəzən ən səsli bəyanatlar belə ən təsirli qərarlar demək olmur. Regionun gələcəyini isə geosiyasi maraqların balansı, iqtisadi layihələrin dərinləşməsi və sülh prosesinin davamlı şəkildə irəliləməsi müəyyən edəcək.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Koçaryanın “zəmanətli sülh” sərsəmləməsi

## *Erməni xalqı nə ilə qorxudulur?*



**Ermənistanın ikinci prezidenti Robert Koçaryan yenidən “fəallaşıb”. Buna səbəb ölkənin Baş naziri Nikol Paşinyanın “Facebook”dakı çıxışıdır. Qeyd edək ki, Paşinyan ötən həftə sonu etdiyi canlı yayımda iki məqamı qabardıb.**

Birincisi, Qarabağ avantürası yolverilməzdir. İkincisi, ölkə konstitusiyası istiqlal bəyannaməsinə istinad etməməlidir, çünki bəyannamə özündə münaqişə məntiqini daşıyır. Ümumiləşdirmə aparan Nikolun mövqeyi budur: Ermənistan məhvə yox, inkişafa doğru getməlidir. Ancaq inkişafla bağlı R.Koçaryanın öz baxışı var. Əlbəttə, söhbət sərsəm baxışdan gedir.

Əlbəttə, Paşinyanın dedikləri hay ictimai rəyi üçün mühüm mesajdır və adekvat qarşılanır. Nəzərə alaq ki, Ermənistanda normal düşüncə qabiliyyətinə malik kəsim var və həmin kəsim baş nazirin komandasını dəstəkləyir. Bu dəstəyin yayda keçirilməsi nəzərdə tutulan parlament seçkilərində ifadə olunacağı da şübhəsizdir. R.Koçaryan məhz buna görə “fəallaşıb”. O və tərəfdarlarının istəyi hakim komandanın üstünlüyünü heçə endirmək və qalibiyyətinə maneçilik törətməkdir. Onların prosesdən qələbə gözləntilərinin mövcudluğu da vurğulanmalıdır.

Beləliklə, R.Koçaryan deyib ki, Ermənistanın Azərbaycanla sülh sazişinin mətnini paraflanası zəmanətli hadisə deyil. Çünki bu olay bir nəfərin, indiki halda, N.Paşinyanın xoş niyyətindən asılıdır və belə durum yolverilməzdir. O, mövqeyini əsaslandırmaq üçün İsrail–Fələstin münaqişəsi və Kipr böhranı xüsusunda uğursuz paralel də aparıb.

R.Koçaryan Rusiya amilini qabarmasaydı, təəccüblənərdik. Robertin sözlərinə görə, 2020-ci ilədək Moskva Qarabağ faktorunun zəmanətçisi idi. Ermənistanda da həmçinin. 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat nəticəsində isə Ermənistan bu missiyadan imtina etdi. Belə bir durumda Kreml üzərinə iki missiya götürdü: həm vasitəçiliyi, həm də Qarabağ üçün qarant olmağı. Ancaq Koçaryanın fikrincə, Ermənistanın 2020-ci ildən sonrakı hərəkətləri sülh konstruksiyasını məhv etdi.

Əslində, Koçaryanın fikirləri kifayət qədər aydın mesaj mahiyyəti daşıyır. Yəni sabah Ermənistanda başqa qüvvələr hakimiyyətə gəlsələr, ölkə Azərbaycanla sülhdən imtina edəcək. “Zəmanətlərdən danışanda biz sülhün möhkəm olmasını istəyirik. Sabah başqa liderlər gələ və deyə bilərlər ki, “mən bu vədi verməmişəm, bu, sadəcə şifahi vəddir və heç nə ifadə etmir”. Bu halda heç bir çəkindirici mexanizm yoxdur”, - deyən Koçaryan sülh naminə başqa dövlətlərin zəmanətinin olmamasından söz açıb. Bununla da, faktiki olaraq, ABŞ Prezidenti Donald Trampın şahid imzası ilə təsdiqlənmiş Azərbaycan və Ermənistan liderlərinin Birgə Bəyannaməsinin mahiyyətini şübhələndirib. Onun bu direktivinin haradan qaynaqlandığı məlumdur. Əlbəttə, direktivin Bakının daim təcavüzə hazır vəziyyətdə olmasına dair təbliğat motivi də var. Bu motiv Robertin “zəmanətsiz sülh” klişesini erməni xalqında qorxu yaratmaq alətinə çevirir.

Tam aydındır ki, R.Koçaryan sülhün zəmanətsiz kimi qiymətləndirdiyi strukturunun Ermənistanda keçiriləcək parlament seçkiləri ilə əlaqəliliyini əsaslandırmağa çalışır. O demək istəyir ki, zəmanətsiz barış mühiti yalnız Paşinyan iqtidarını seçki qalibi etməyə hesablanıb. Göründüyü kimi, ortada son dərəcə absurd yanaşma var ki, belə yanaşmanın məqsədi erməni cəmiyyətindəki sülh ab-havasını puça çıxarmaqdır. Heç şübhəsiz, bu, hay cəmiyyətinin revanşist və şovinist kəsimini hakimiyyət komandasına qarşı körükləmək məramı daşıyır. Yəni cəmiyyət zəmanətsiz olduğu iddia edilən sülhün davamsızlığını anlayıb Azərbaycandan qorxmalı, Nikol və komandasını tarixin arxivinə göndərməlidir. Amma Koçaryanın başqa hesablaması da var.

“Mənə aydındır ki, Nikol Paşinyan niyə zəmanətlər istəmir. Çünki bu halda sülh birbaşa onun adı ilə əlaqələndirilməyəcək. O elə bir sülh istəyir ki, insanlarda belə fikir formalaşsın: “Nikol olmasa, mütləq müharibə olacaq”. Əslində isə bizə Nikol Paşinyan, Robert Koçaryan və ya başqa hər hansı bir şəxslə əlaqələndirilməyən sülh lazımdır”, - deyən Koçaryanın aşkar siyasi manipulyasiyaya baş vurduğu ortadadır. Belədə Ermənistanın ikinci prezidentinə ünvanlanan sual var. Sual hansı dövlətlərin Ermənistana zəmanət verməyə hazır olması ilə bağlıdır. Robertin cavabı isə budur: “Onlar (hakimiyyət komandası – red.) bu dövlətləri cəlb etmək üçün hansı addımlar atıblar? Sıfır addım. Hətta, Birləşmiş Ştatlara belə zəmanətlər sistemi təklif etməyiblər. Bu istiqamətdə addım atmağa cəhd göstərmirlər. Bunun səbəbi birdir: sülh seçkilərlə bağlı təbliğat xarakterli sülhdür”.

Bəli, R.Koçaryan Paşinyan iqtidarının parlament seçkilərindəki başlıca üstünlük aləti olan sülhü heçə endirməyə girişib. Axı Nikol “Facebook” çıxışında barışa qarşı duranlar sırasında sabiq prezidentlər Serj Sarkisyan və Levon Ter-Petrosyanla yanaşı, Robertin də adını çəkmiş, üçlüyü katolikos II Qareginin düşərgəsində təmsil olunanlar kimi qələmə vermişdi. Sülhün zəmanətsizliyi ritorikasını qabardan Koçaryan isə Paşinyanın hakimiyyətdə olduğu dövrdə Azərbaycanın Ermənistana hücum etməyəcəyi fikrini də bildirir. Xeyr, o, bu fikri reallığı nəzərə alaraq demir.

Koçaryanın qənaətincə, sülhün zəmanətsizlik formulu gec-tez yenidən başlayacaq müharibə riskini daşıyır. Yəni erməni cəmiyyəti bu riski görməli və indidən çətinliyə doğru getməlidir. Başqa sözlə desək, Ermənistanda hakimiyyət dəyişikliyi baş verməli, müharibə başlamalıdır. Koçaryanın düşüncəsinə görə, başlayacaq yeni savaş şəraitində ölkəsi zəmnanətçilər tapacaq və o zaman “hər şey normala dönəcək, Ermənistan sülh şəraitində inkişaf edəcək”. Robertin zəmanətçi məntiqindəki ölkə isə Rusiyadır. Deməli, plan bəllidir: Koçaryan hakimiyyətə gələcək, müharibəyə başlayacaq, Rusiya avantüra naminə ölkəyə dəstək verəcək. Eynilə 1991-1993-cü illərdəki kimi. Həqiqətən də ortada böyük sərsəmlik var.

***Ə.RÜSTƏMOV***
***XQ***

# “Erməni kilsəsi” ordudan çıxdaş edildi

**(əvvəli 1-ci səhifədə)**





Şura iclasında kilsə ilə dövlət arasında münasibətlər, həmçinin kilsənin missiyasının səmərəliliyinin artırılması (?) məsələləri də müzakirə olunub. Gündəlikdə Masiatsotn yeparxiyasının vəzifəsindən uzaqlaşdırılmış sabiq rəhbəri Arman Saroyanın davranışı ilə bağlı məsələ də yer alıb. Qeyd edilib ki, Saroyan “hakimiyyətin qeyri-qanuni dəstəyi ilə” yeparxiyanın kanonik, pastoral və inzibati fəaliyyətinə mane olur, ruhanilər və dindarlar arasında gərginlik yaradır. Bununla yanaşı, vurğulanıb ki, yeparxiyanın əksər ruhaniləri kilsə qanunlarına sadiq qalaraq xidmətlərini davam etdirirlər.

İclasda ruhanilərə qarşı qaldırılmış cinayət işləri “saxta” adlandırılıb, dövlətin kilsənin daxili işlərinə qanunsuz müdaxilə etdiyi bildirilib. Bu kontekstdə şura üzvləri kilsə ilə bağlı qanunvericiliyə edilən son dəyişikliklərin Erməni Apostol Kilsəsinin statusunu və fəaliyyətini məhdudlaşdırdığını, eyni zamanda, antikilsə ritorikasının yayılması üçün zəmin yaratdığını bildiriblər. EAK nümayəndələri hesab edirlər ki, bu təşəbbüslər kilsə–dövlət münasibətlərinin konstitusion əsaslarını, xüsusilə də vicdan və dini etiqad azadlığı prinsiplərini sarsıdır.

Toplantı zamanı silahlı qüvvələrdə kapellan xidmətinin dayandırılması və bu istiqamətdə ruhanilərə göstərilən təzyiqlərlə (?) bağlı məruzə də dinlənilib. Şura qeyd edib ki, müdafiə nazirinin bu barədə birtərəfli qərarı Ermənistan konstitusiyasına, “Ermənistan Respublikası ilə Müqəddəs Erməni Apostol Kilsəsi arasında münasibətlər haqqında” qanuna, eləcə də silahlı qüvvələrdə kapellan xidmətinin fəaliyyətini təsbit edən hökumət qərarına ziddir. Bu xidmətin ordunun ruhani və mənəvi-psixoloji sağlamlığı baxımından böyük əhəmiyyət daşıdığı vurğulanaraq, mövcud sahədə yeni hüquqi tənzimləmələrin yenidən hüquqi müstəviyə qaytarılmasının vacibliyi qeyd edilib. Şura üzvləri sentyabr ayında keçirilməsi planlaşdırılan Kilsə–Nümayəndələr Məclisinin gündəliyi və təşkilati məsələlərini də müzakirə etdiklərini bildiriblər.

***

Kilsənin bəyanatında səslənən fikirlərin təhlilinə keçməmişdən öncə qeyd edək ki, özünü mənəvi dəyərlərin qoruyucusu kimi təqdim edən Erməni Apostol Kilsəsi son vaxtlar siyasi proseslərə birbaşa müdaxilə edən tərəf kimi çıxış edir. Bu səbəbdən də Eçmiədzindən səslənən hər bir açıqlama artıq təkcə dini mövqe kimi deyil, həm də ölkədaxili siyasi mübarizənin bir elementi kimi qiymətləndirilir. Belə bir şəraitdə Ali Ruhani Şuranın son bəyanatı da yalnız Paşinyanın çıxışına cavab kimi yox, kilsənin mövcud siyasi proseslərdə öz mövqeyini nümayiş etdirmək cəhdi kimi görünür.

Əslində, Erməni Apostol Kilsəsinin son bəyanatları göstərir ki, bu qurum özünü dini institutdan daha çox siyasi proseslərin fəal iştirakçısı kimi aparmağa başlayıb. Eçmiədzinin yaydığı açıqlamalar yalnız Paşinyanın çıxışına cavab vermək məqsədi daşımır, həm də hakimiyyətə qarşı siyasi mövqenin nümayişi kimi qəbul olunur. Bu isə, təbii olaraq, Ermənistan daxilində mövcud olan onsuz da kövrək münasibətlər sistemini daha da sarsıdır. Ən diqqət çəkən məqam isə ondan ibarətdir ki, kilsə rəhbərliyi öz mövqeyini müdafiə etmək üçün faktların müzakirəsindən daha çox ittiham və qarşı ittiham yolunu seçir. Paşinyanın Avropa Parlamentində səsləndirdiyi fikirlərə cavab olaraq hakimiyyəti hansısa qeyri-qanuni addımlarda ittiham etmək, əslində, siyasi mübarizə üsuluna bənzəyir. Tarixən “cəmiyyətin mənəvi dayağı” kimi təqdim olunan qurumun dövlətlə açıq qarşıdurmaya girməsi Ermənistan cəmiyyətində yeni parçalanmalar yaradır. Bu isə dini qurumun əsas funksiyası ilə açıq ziddiyyət təşkil edir.

Dindarlara qarşı açılmış cinayət işlərinin “saxta” adlandırılması da eyni yanaşmanın davamı kimi görünür. Kilsə rəhbərliyi istintaqın nəticələrini gözləmədən bu işləri siyasi təqib kimi qələmə verməyə çalışır. Bu isə ictimai rəyin yönləndirilməsi cəhdi kimi qiymətləndirilə bilər. Halbuki hər hansı hüquqi prosesə bu cür yanaşma göstərilməsi hüquqi dövlət prinsiplərinə hörmətsizlik kimi də qəbul oluna bilər. Əgər doğrudan da ittihamlar əsassızdırsa, bunu məhkəmə araşdırmaları müəyyən etməlidir. Kilsənin əvvəlcədən hökm verməsi isə vəziyyəti daha da gərginləşdirir.

Orduda kapellan xidmətinin dayandırılması ilə bağlı məsələ də kilsə tərəfindən siyasi müstəviyə çıxarılır. Qeyd edək ki, kapellan xidməti əsasən ordu, xəstəxana, həbsxana, universitet və digər qapalı qurumlarda fəaliyyət göstərən dini xidmət sistemidir. Bu xidməti həyata keçirən din xadimlərinə kapellan deyilir. EAK-ın fəaliyyətinə nəzər saldıqda görmək çətin deyil ki, bu qurum uzun illər ərzində regionda baş verən münaqişələrdə yalnız dini mövqe ilə kifayətlənməyib, açıq şəkildə siyasi proseslərin iştirakçısı olub. Xüsusilə Azərbaycan torpaqlarının işğalı dövründə kilsə rəhbərliyinin davranışı bunun ən aydın nümunələrindən biri hesab olunur. Həmin illərdə erməni silahlı dəstələrinin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə və ətraf rayonlarımıza yollanması zamanı bir sıra dindarların onlara xeyir-dua verməsi faktları dəfələrlə gündəmə gətirilib. Bu addımlar dini qurumun münaqişənin dərinləşməsində mənəvi legitimlik yaratmağa çalışdığını göstərirdi. Halbuki dini institutun əsas missiyası müharibəni təşviq etmək deyil, sülh və barış çağırışları etmək olmalı idi. Lakin kilsə bu prinsipdən uzaqlaşaraq siyasi və hərbi məqsədlərlə səsləşən mövqe sərgilədi. Bu baxımdan bu gün kilsənin özünü “təzyiqə məruz qalan tərəf” kimi təqdim etməsi bir çox müşahidəçilər tərəfindən ikili yanaşma kimi qiymətləndirilir və baş verənlər, müəyyən mənada, tarixin ironiyası təsiri bağışlayır.

Bu gün Eçmiədzinin məlum qərarı konstitusiyaya zidd addım kimi təqdim etməyə çalışır. Halbuki bu məsələ dövlətin təhlükəsizlik və idarəetmə siyasəti çərçivəsində verilmiş qərar kimi də qiymətləndirilə bilər. Ordunun fəaliyyəti ilə bağlı qərarların dövlət tərəfindən qəbul edilməsi normal idarəetmə praktikasının tərkib hissəsidir. Kilsənin bu məsələdə sərt mövqe tutması isə onun hərbi və siyasi sahələrə təsir imkanlarını qorumağa çalışdığını göstərir. Nəticə etibarilə Eçmiədzinin son açıqlaması Ermənistan daxilində mövcud olan kilsə-hakimiyyət qarşıdurmasının daha da dərinləşdiyini göstərir. Görünən odur ki, tərəflər arasında kompromisə aparan yol hələlik görünmür.

***Səxavət HƏMİD***
***XQ***

# Savaş səngimir, qarşılıqlı ittihamlar artır

## *Qardaş Türkiyə üçüncü dəfə hədəfə alınıb*

**Yaxın Şərqdə müşahidə olunan gərginlik fonunda İrandan Türkiyə istiqamətinə növbəti – üçüncü ballistik raketin buraxılması gündəmi daha da qızışdırıb. Beləliklə, ötən şənbə və bazar günləri, eləcə də dünən dünya mediasının, münaqişə tərəflərinin və kənar rəsmilərin hərbi qarşıdurma və konkret hadisələrlə bağlı xəbər, açıqlama və mövqelərini diqqətinizə çatdırırıq.**



**“Anadolu Agentliyi”:** Hakan Fidan banqladeşli həmkarı Xəlilur Rəhman ilə mətbuata birgə bəyanatında deyib ki, İranın martın 13-də Türkiyəyə raket hücumundan sonra iki ölkə arasında təmaslar artıb. O, həmçinin əlavə edib ki, bu savaş dərhal dayandırılmalı və tərəflər danışıqlar masasına qayıtmalıdır: “İsrailin bölgədə yürütdüyü siyasətə göz yummaq olmaz. Netanyahu (İsrailin baş naziri – red.) hökumətinin İordan çayının Qərb sahilində apardığı siyasət problemin ikidövlətli həllinə qarşıdır”.

**“Azərbaycan XİN”:** Martın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı aparılıb. Nazir C.Bayramov Türkiyənin ərazisinə növbəti raket hücumunu qınayıb, qardaş Türkiyəyə dəstəyini ifadə edib.

**“CNN”:** ABŞ administrasiyası hələ də İranın Minab şəhərindəki qızlar məktəbinə zərbə endirilməsinin səbəbləri barədə hərtərəfli anlayışa malik deyil. Bu barədə Birləşmiş Ştatların Vitse-prezidenti Ceyms Devid Vens Şimali Karolina ştatına səfəri zamanı bildirib: “Hesab edirəm ki, orada nə baş verdiyini hələ tam aydınlaşdırmamışıq. Biz araşdırmanı sona çatdırmalıyıq. Elə deyilmi? Hər hansı addım atmazdan əvvəl baş verənləri, həqiqətən, anlamaq lazımdır”.

**“Al Hadath”:** İranın paytaxtı Tehranda İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) baş qərargahının binası İsrail və ABŞ Silahlı Qüvvələrinin havadan endirdiyi zərbələr nəticəsində ciddi dağıntılara məruz qalıb. Məlumata görə, tikili, demək olar ki, tamamilə məhv edilib.

**“IRNA”:** İran Prezidenti Məsud Pezeşkian bildirib ki, ABŞ və İsrailin hücumlarından sonra əhaliyə xidmətlərdə fasilə yaranmayıb: “15 günlük qəddar müharibədən sonra nəqliyyat, rabitə və s. ilə bağlı problemlərə baxmayaraq, əhaliyə xidmətlərin göstərilməsində ciddi fasilələr olmadı”.

**“BBC”:** İsrail Müdafiə Qüvvələrinin (İMQ) rəsmi nümayəndəsi, briqada generalı Efi Defrin CNN telekanalına bildirib ki, İsrailin İrana qarşı hərbi əməliyyatı azı daha üç həftə davam edəcək: “Qarşımızda minlərlə hədəf var. Biz müttəfiqimiz ABŞ ilə koordinasiyalı şəkildə, ən azı yəhudilərin Pasxa bayramınadək, indidən başlayaraq təxminən üç həftəlik nəzərdə tutulan planları həyata keçirməyə hazırıq və ondan sonrakı daha üç həftə üçün də əsaslı planlarımız var”.

**Martın 16-da da hərbi əməliyyatlar intensiv şəkildə davam edib.**

**“Financial Times”:** Tramp deyib ki, Şimali Atlantika Müqaviləsi Təşkilatına üzv dövlətlər Hörmüz boğazının blokadadan çıxarılmasında ABŞ-a kömək etməsələr, NATO-nu "çox pis gələcək" gözləyir: “Əgər Hörmüz boğazındakı səylərə qoşulmaq çağırışına cavab gəlməsə və ya bu cavab mənfi olsa, düşünürəm ki, bu, NATO-nun gələcəyinə çox pis təsir edəcək”.

**“Israel Defence Forces”:** İsrail Müdafiə Ordusu "Hizbullah" qruplaşmasına qarşı mübarizə məqsədilə Livanın cənubunda məhdud hərbi əməliyyat keçirdiyini bəyan edib. Bu barədə ordunun mətbuat xidmətinin rəsmi məlumatında bildirilib: “İsrail Müdafiə Ordusunun qoşunları Livanın cənubunda "Hizbullah"ın məntəqələrinə qarşı məhdud və məqsədyönlü quru əməliyyatlarına başlayıb”.

**“Times of Israel”:** İsrail Hərbi Hava Qüvvələri Tehranda "Mehrabad" hava limanında İranın keçmiş lideri Əli Xamenei və yüksəkrütbəli məmurların istifadə etdiyi təyyarəni məhv edib. Məlumata görə, təyyarə Əli Xameneinin, eləcə də İranın digər yüksək vəzifəli rəsmiləri və hərbçilərinin sərəncamında olub. Ondan həm daxili, həm də hərbi satınalmalar və müttəfiq dövlətlərlə fəaliyyətin əlaqələndirilməsi ilə bağlı beynəlxalq uçuşlar üçün istifadə edilirdi.

**“SNN”:** İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) hərbi dəniz qüvvələri BƏƏ-dəki "Əd-Dəfra" ABŞ hərbi bazasının ərazisindəki sursat anbarına zərbə endirib. Məlumata görə, bazada güclü partlayış baş verib, nəticədə, ABŞ hərbçiləri qırıcıları həmin bazadan çıxarıb başqa yerlərdə yerləşdirmək məcburiyyətində qalıblar.

**“Avropa Komissiyası”:** Avropa İttifaqı (Aİ) Yaxın Şərq ölkələrinə humanitar yardımın ayrılacağını elan edib: “Biz Fələstin, Livan, Suriya, İordaniya və Misir əhalisinə dəstək məqsədilə 458 milyon avroluq humanitar yardım ayırırıq. Heç kimin diqqətdən kənarda qalmaması üçün beynəlxalq humanitar hüquq normalarına riayət etməyə və tərəfdaşlarımızla əməkdaşlığa əvvəlki kimi sadiqik”.

**“Reuters”:** Birləşmiş Ərəb Əmirliklərinin Füceyrə limanında neft yükləmə əməliyyatları ötən gün pilotsuz uçuş aparatının hücumundan sonra dayandırılıb. Agentlik qeyd edir ki, bu, son 3 gün ərzində Füceyrəyə ikinci PUA hücumudur.

**“Axios”:** ABŞ Prezidenti Donald Tramp İranın Xarq adasındakı neft infrastrukturunun nəzarətə götürülməsi üzrə hərbi əməliyyatın keçirilməsi variantını nəzərdən keçirir. Qeyd olunub ki, bu plan quru hərbi əməliyyatın aparılmasını tələb edəcək. Portal bildirib ki, dövlət başçısı əgər tanker gəmiçiliyi Fars körfəzi akvatoriyasında bloklanmış vəziyyətdə qalmaqda davam edərsə, belə bir addım atmağa qərar verə bilər.

**“Politico”:** Avropa diplomatiyasının rəhbəri Kaya Kallas gəmilərin Hörmüz boğazından sərbəst keçidinin təmin edilməsini son dərəcə vacib hesab edir. Kallas bunu Xarici İşlər Şurasının iclasından əvvəl jurnalistlərə açıqlamasında bildirib: “Hazırda Hörmüz boğazının açıq qalması bizim maraqlarımıza uyğundur və məhz buna görə də bu istiqamətdə nə edə biləcəyimizi müzakirə edirik”. Onun sözlərinə görə, Yaxın Şərqdəki ASPIDES missiyası faktiki olaraq Hörmüz boğazı ilə bağlı səylərə cəlb oluna bilər və onun mandatının dəyişdirilməsi üçün üzv ölkələrin razılığı lazımdır.

**“Japan Today”:** Yaponiya hökuməti hazırda Hörmüz boğazı akvatoriyasında patrul xidməti aparmaq üçün öz Hərbi Dəniz Qüvvələrinin göndərilməsi variantını nəzərdən keçirmir. Bunu Yaponiya müdafiə naziri Şinciro Koizumi parlament debatları çərçivəsində çıxış edərkən bildirib.

**“ARD”:** Almaniya Hörmüz boğazında ticarət gəmilərinin qorunması üzrə mümkün beynəlxalq missiyada iştirak etmək niyyətində deyil. Bu barədə Almaniyanın xarici işlər naziri Yohan Vadeful telekanala müsahibəsində bildirib: "Biz tezliklə bu münaqişənin fəal iştirakçısı olacağıqmı? Xeyr".

**“The Guardian”:** Böyük Britaniyanın Baş naziri Kir Starmer mətbuat konfransında bildirib ki, Hörmüz boğazının açılması əməliyyatı NATO çərçivəsində həyata keçirilməyəcək: “Biz Hörmüz boğazının blokadadan çıxarılması istiqamətində digər ölkələrlə işləyirik. İcazə verin aydınlıq gətirim: bunun NATO missiyası çərçivəsində ediləcəyi heç vaxt nəzərdə tutulmayıb. Bu, tərəfdaşlar alyansı olmalıdır. Buna görə biz həm Avropa, həm də Fars körfəzi ölkələrindəki tərəfdaşlarla və ABŞ ilə işləyirik”.

**“CENTCOM”:** ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) komandanı Bred Kuper bildirib ki, İran donanmasının 100-dən çox gəmisi məhv edilib. O, prosesin hələ yekunlaşmadığını vurğulayıb.

**“RİA Novosti”:** Rusiya xarici işlər naziri Sergey Lavrov bildirib ki, İran üzərinə hücum planlaşdıran ölkələr onu 24 saat ərzində ələ keçirməyi düşünürdülər. Nazirin sözlərinə görə, indi həmin ölkələr nə qədər səhv etdiklərini anlayırlar.

**“ISNA”:** İranın xarici işlər naziri Abbas Əraqçi deyib ki, İran atəşkəs üçün heç bir müraciət etməyib. Əraqçi, həmçinin qeyd edib ki, İran müqavimət göstərməyə davam edəcək: “Bu müharibə elə bitməlidir ki, düşmənlər bir daha İrana təcavüz etmək fikrinə düşməsinlər”.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

# Açılan yollar – sülhün polad qolları

## *Ticarət Bakı ilə İrəvanı barışa yaxınlaşdırır*

**“Müstəqillik 1991-ci ildə əldə olunub və yalnız son yeddi ay ərzində sülh dövrü yaşanır. Mən əminəm ki, sülh davam edəcək”.**

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev son bir ayda ən müxtəlif tribunalarda, rəsmi qonaqlarla görüşlərində dəfələrlə vurğulayıb.

“Biz artıq ticarətə başlamışıq və Ermənistana mühüm neft məhsullarının tədarükünə start vermişik. Bu isə bir daha güclü siyasi iradəmizin nümayişidir. Düşünürəm ki, bu, hər iki tərəfin sağlam münasibətlər qurmaq və sülhə sadiq qalmaq niyyətinin ən yaxşı göstəricisidir”. Bu sözləri isə İlham Əliyev XIII Qlobal Bakı Forumunun açılışında bildirib.

Bəli, Azərbaycan və Ermənistan arasında ticarət əlaqələrinin qurulması faktdır. Bu fakt həm də o məntiqi isbatlayır ki, iki qonşu ölkə arasında əldə edilən sülh uzunmüddətli və möhkəm olacaq. Ölkə başçımızın dediyi kimi, Bakı və İrəvan sülhə nail olublar, və o, kağız üzərində yazılmasa da, reallığa çevrilib.

Real sülhün göstəricilərindən biri də sərhəddə sakitliyin hökm sürməsidir. Bu həqiqəti Ermənistan cəmiyyətində də anlayan və qəbul edənlərin sayının artması sülh sazişinin imzalanmasının dağlar arxasında olmamasından xəbər verir. Parlament seçkilərinə hazırlaşan Ermənistanın həm siyasi isteblişmentində, həm də ictimai fikrində köklü dəyişikliklərin baş verdiyinin də fərqindəyik. Baş nazir Nikol Paşinyanla yanaşı, Ermənistan parlamentinin sədri Alen Simonyan, XİN başçısı Ararat Mirzoyan, parlamentin vitse-spikeri Ruben Rubinyan kimi məmurların son vaxtlar verdikləri açıqlamalar Azərbaycanla sülh müqaviləsinin imzalanmasına, kommunikasiyaların açılmasına, regional əməkdaşlığın inkişafına dəstək kimi qəbul edilir. Onlar hətta sülhəqədərki mərhələnin ölkələrinə real iqtisadi dividendlər qazandırdığını, dəmir yollarının açılması, qonşularla ticarət əlaqələrinin genişlənməsi ilə bölgədə tamamilə yeni ab-havanın formalaşdığını görür və təqdir edirlər.

Mövzuya təkrar qayıtmağımızın səbəbi də qonşuda müşahidə olunan pozitiv xarakterli yeniliklərdir. “Dəmir yolu və sərhədlərin açılacağını, bütün qonşularla ticarət olacağını təsəvvür edə bilirdinizmi? Bunlar bizim üçün də tamamilə yeni amillərdir. İnanıram ki, sülh artıq Ermənistanın iqtisadi, ictimai və sosial həyatına çox müsbət təsir göstərir. Bizim prioritetimiz sülh qovşağı olmaqdır”. Paşinyanın bu bəyanatı təkcə seçkiqabağı təbliğat üsulu olmayıb, Bakının yaratdığı reallığı görə bilməyən soydaşlarına ismarışıdır.

***

Bu məqamda ikitərəfli münasibətlərin sənədli keçmişinə qısa nəzər salmağımıza ehtiyac var. 2025-ci il avqustun 8-də Vaşinqtonda Ermənistan və Azərbaycan arasında əldə olunan razılaşmalar həm



ticarət, həm də nəqliyyat və logistika sahələrində həyata keçirilib. Bunun ardınca Azərbaycan ərazisindən Ermənistana taxıl, neft və benzin daşıyan sisternlərin təkər səsləri ilə dünənki işğalçıya sülh çağırışları da göndərilib. Onlar üçün strateji əhəmiyyətə malik bu məhsulların öz ərazisindən tranzitinə təmənnasız şərait yaradan Azərbaycanın və dövlət başçımızın ünvanına minnətdarlıq nidaları ən yüksək səviyyədə səsləndirildi. Erməni mediasında bu barədə xeyli sayda təqdirəlayiq yazı və paylaşımları izlədik. Hətta bu qəbildən olan suallara rast gəldik: “Bu, Bakı və İrəvanın ikitərəfli idxal və ixracı aktivləşdirməyə hazırlaşdığını göstərirmi?” və “Bu, yaxın gələcəkdə baş verərsə, iki ölkənin bazarlarında mövcud malların çeşidi nə qədər olacaq?”

Suala cavab verən İrəvan Mətbuat Klubunun fəxri prezidenti, erməni politoloq Boris Navasardyan hesab edir ki, Rusiya taxılının dəmir yolu ilə Azərbaycan vasitəsilə Ermənistana çatdırılması bir neçə səbəbə görə əlamətdar hadisədir. “Birincisi, bu, Ermənistanı Gürcüstan yolları ilə yüklərin son dərəcə etibarsız tranzitindən azad etməklə yeni presedent yaradır. İkincisi, bu hadisə klişelərin iflasa uğradığı, ənənəvi ticarət və nəqliyyat yollarının bağlandığı bir şəraitdə region ölkələrinin faydalı əməkdaşlığa ehtiyacın etirafını nümayiş etdirir. Üçüncüsü, Ermənistan və Azərbaycan arasında normallaşma prosesinin gedişatı vaxtaşırı müsbət xəbərlərin yayılmasını tələb edir. Çünki bunun olmadığı boşluğu skeptisizm və ictimai inamsızlıq təzahürləri doldurur”. Navasardyan başladılan prosesi kommersiya hesablamalarına deyil, dövlət başçılarının xoşməramlı siyasi iradələrinin təzahürü kimi dəyərləndirib: “Sırf iqtisadi komponent o zaman tam fəaliyyətə başlayacaq ki, hər iki ölkənin özəl sahibkarları bir-birinin bazarlarını araşdırmaq imkanı əldə etsinlər, birbaşa bank köçürmələri üçün kanallar açılsın və təbii ki, regionda ən uzun sərhədin olmasına baxmayaraq, üçüncü ölkədən tranzit ehtiyacı aradan qalxsın”.

Erməni politoloq iki ölkənin biznesmenləri və istehsalçıları arasında birbaşa əlaqələrinin yoluna qoyulmasını da vacib saydığını deyib: “Uzun illər əvvəl sülh təşəbbüsləri kontekstində münaqişənin aradan qaldırılması şərti ilə region ölkələri üçün iqtisadi faydalar araşdırılmışdı və bu gün onlar daha çox aktuallaşır. İlkin olaraq, məhsulun cəlbediciliyi yenilik və istehlakçı marağına səbəb olsa da, davamlı tələb və real qiymət yaratmaq ticarət yarmarkaları və transsərhəd ticarət kimi fəal tədbirlər tələb edəcək. Cəmi bir neçə ay əvvəl bu fikirlər elmi fantastika kimi görünə bilərdi, lakin ekspertlər, vətəndaş cəmiyyəti nümayəndələri və medianın son təşəbbüsləri mümkün sərhədlər aşdı”.

***

Bu arada digər bir erməni siyasi ekspert, “Erməni Şurası” tədqiqat mərkəzinin rəhbəri, “Sülh körpüsü” təşəbbüsünün üzvü Areq Koçinyan bu qənaətdədir ki, Rusiya taxılı Ermənistana təxminən eyni həcmdə verilirdi, artıq tədarük coğrafiyası dəyişir: “Ermənistan və Azərbaycanı maraqlandıra biləcək mallara gəlincə, başa düşdüyüm qədər, indiki mərhələdə iki ölkə rəhbərliyi belə qənaətə gəlib ki, son alıcıya – adi istehlakçıya, fiziki şəxslərə çatan mallar, məsələn, mağazalarda satıla bilən “Ermənistanda istehsalı” və ya “Made in Azerbaijan” etiketli məhsullar müsbət qarşılanmayacaq. Ona görə də Bakı və İrəvan bu cür malların tədarükü ilə bağlı, hələ ki, substantiv müzakirəyə nail olmayıblar. Hazırda müzakirə daha çox toplu və maye məhsullar, eləcə də müxtəlif xammalın tədarükü ilə bağlıdır. Bu baxımdan, ilk növbədə, Ermənistandan Azərbaycana ixrac kontekstində söhbət alüminium, folqa və digər növ məhsulların tədarükündən gedir”.

Bakı bütün bunları xoş niyyətlə və sülh üçün edir. Buna bizdən daha çox hayların ehtiyacı var. Ermənistan hakimiyyəti üçün sülh həm siyasi sağqalma mexanizmi, həm də iqtisadi tərəqqinin yeganə açarıdır. Bu həqiqəti sıravi ermənilər tərəfindən qəbul edildiyini son vaxtlar keçirilən sosioloji sorğular, izlədiyimiz telereportajlar da sübut edir. Artıq sadə vətəndaş da dərk edir ki, revanşist düşüncə, qonşulara qarşı saxta iddialar ölkənin bu gününə və gələcəyinə yaxşı heç nə vəd etmir. Yəqin buna görə hökumətin açıq sülh siyasəti elektorat arasında kifayət qədər populyarlıq və dəstək qazanmaqdadır. Fikrmizcə, baş naziri cəsarətləndirən əsas amil məhz budur. Paşinyanın fevralının sonlarında mediaya verdiyi açıqlamada “Azərbaycanın Naxçıvanla birləşməsi” və “Tramp yolu” kimi ifadələrdən istifadə etməsi də bundan qaynaqlanırdı.

Bütün bunlar isə rəsmi İrəvanın uzun illər davam edən yersiz və səmərəsiz müqavimət taktikasını bir kənara qoyub, real əməkdaşlıq fazasına keçid almasının göstəricisidir. Doğrudur, həmin açıqlamalar parlament seçkiləri ərəfəsində daxili auditoriyaya, eyni zamanda, beynəlxalq vasitəçilərə yönəlik mesaj kimi qəbul oluna bilər. Yəni özü üçün qarşıdakı taleyüklü seçkilərdə kənar müdaxilələri nəzərə almalı olan Paşinyan indidən yaxına-uzağa mesaj göndərir ki, komandasının strateji hədəfi Azərbaycanla sülh və iqtisadi inteqrasiyadır.

Sonda xüsusi olaraq vurğulamaq istərdik ki, budəfəki parlament seçkilərini udması Baş nazirin revanşistlər üzərində qəti və tam qələbəsi kimi ölkənin tarixinə düşəcək.

***İmran BƏDİRXANLI***
***XQ***

# TRIPP nə qədər gecikə bilər?

## *Bu ləngimə kim(lər)in ziyanına olacaq?*

**Artıq 7 aydır sülh şəraitində yaşayan Azərbaycan və Ermənistanın dərhal yüksək səviyyəli əlaqələr qurması üçün yeni yol xəritələrinin cızılması zəruridir. Bu istiqamətdə mühüm təşəbbüslərdən biri Birləşmiş Ştatların vasitəçiliyi ilə irəli sürülən "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (TRIPP) layihəsidir. Genişmiqyaslı kommunikasiya layihəsi Azərbaycanla Ermənistan arasında 30 il davam edən münaqişənin yekun iqtisadi həlli olmaqla yanaşı, həm də Mərkəzi Asiyanı Xəzər dənizi və Cənubi Qafqaz vasitəsilə Avropa və Türkiyə ilə birləşdirən Orta Dəhlizin ən kritik və strateji həlqəsi kimi dizayn edilib.**




Ötən həftə Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə səfərdə olan Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Antonio Koşta ilə mətbuata birgə bəyanatında TRIPP-in icrası istiqamətində qurumun rəsmi Bakıyla əməkdaşlığa sadiqliyi təsdiqlənmiş oldu. Bunun ardınca, Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Avropa İttifaqının Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi, səfir Eduard Stiprays ilə görüşündə də "Tramp marşrutu" əsas müzakirə mövzularından biri oldu. Bu diplomatik təmaslar rəsmi Bakının dövlət səviyyəsində TRIPP layihəsinin reallaşdırılmasında kifayət qədər qərarlı və istəkli olduğunu nümayiş etdirir.

***

Yaxın Şərqdə alovlanan genişmiqyaslı hərbi münaqişə qlobal maliyyə resurslarının yenidən bölüşdürülməsi və texniki-hüquqi maneələrin kəsişməsində yaranan mürəkkəb geosiyasi mənzərənin birbaşa nəticəsidir. Yay aylarında inşasına başlanılması nəzərdə tutulan Tramp marşrutu hazırda bir sıra xarici və daxili amillərin təsiri ilə yubanır. Gecikmənin əsas səbəbi kimi ötən ay ABŞ və İsrailin İrana qarşı başlatdığı hərbi əməliyyatları göstərmək olar. Ermənistanın baş naziri Nikol Paşinyan ötən həftə verdiyi bəyanatda mövcud vəziyyətlə bağlı narahatlığını ifadə edərək bildirmişdi ki, hazırda TRIPP ABŞ administrasiyası üçün prioritet məsələ deyil və bu, tranzit dəhlizinin açılmasını ləngidən əsas amildir. Vaşinqtonun diqqətini tamamilə İran cəbhəsinə yönəltməsi layihənin prioritetlər siyahısında arxa plana düşməsinə səbəb olub. Fevral ayının əvvəlində ABŞ vitse-prezidenti Ceyms Devid Vensin həm Ermənistan, həm də Azərbaycana səfəri TRIPP ətrafında ciddi hərəkətlilik üçün ümid yaratmışdı. Bu səfərdə müəyyən razılaşmalar əldə olunsa da, real icra mexanizmləri ləngiyir. Regionda müşahidə olunan gərginlik fonunda layihənin sürətinin zəifləməsi təbii qarşılanmalıdır. Mövcud regional qarşıdurma, xüsusən İsrail/ABŞ–İran münaqişəsi layihənin gələcək perspektivləri üçün ciddi suallar doğurur.

İran tərəfi bu layihəni, təbii ki, birbaşa təhdid kimi qiymətləndirir. Doğrudur, ölkə prezidenti Məsud Pezeşkian son çıxışlarında TRIPP barədə yalnız müsbət fikirlər səsləndirib. Amma ötən il İrəvana səfəri zamanı bu layihədən söz açılarkən o bildirmişdi ki, “Qafqazda qayda-qanun qafqazlıların özü tərəfindən müəyyən edilməlidir”.

Ötən il dekabrın 17-də İranın sabiq ali liderinin baş müşaviri Əli Əkbər Vilayəti Ermənistan səfiri ilə görüşündə TRIPP-i tənqid edərək, Tehranın bu təşəbbüsə "qəti şəkildə qarşı çıxdığını" bildirmişdi. Vilayətinin fikrincə, marşrut NATO-nun İranın şimal sərhədi yaxınlığında mövcudluğunu asanlaşdıra bilər və bu, təkcə İran üçün deyil, həm də Rusiyanın cənubu üçün təhlükəsizlik riskləri yaradır.

Layihənin icrasında gecikmələr regionun uzunmüddətli sabitliyi üçün ciddi risklər formalaşdıra bilər. 30 illik münaqişədən sonra cəmi 7 aydır sülh şəraitində yaşayan 2 ölkə üçün TRIPP mühüm inteqrasiya mexanizmidir. Dəhlizin inşasının yubanması sülh prosesinin kövrəkliyini artıra bilər ki, bu da yaranmış geosiyasi vakuumdan bəzi dövlətlərin öz maraqları naminə sui-istifadə etməsinə şərait yaradar.

Rusiya tərəfi dəfələrlə layihədə iştirak istəyini ifadə etsə də, hələlik bu istiqamətdə müsbət nəticə əldə olunmayıb. Hərçənd, keçən il dekabrın 16-da Rusiya XİN-in MDB ölkələri üzrə Dördüncü Departamentinin direktoru Mixail Kaluqin Moskvann Ermənistanla bu mövzuda məsləhətləşmələrə hazır olduğunu açıq şəkildə bildirsə də, İrəvan yanvarın 14-də verdiyi bəyanatla layihə çərçivəsinin artıq müəyyən olunduğunu vurğulayaraq Rusiyanın iştirakına dolayısı ilə ehtiyac qalmadığına işarə etdi. Rəsmi Bakı da, öz növbəsində, avqustda razılaşdırılmış plandan kənar tərəflərin prosesə qoşulmasına tərəfdar deyil. Nəticə etibarilə, mövcud vəziyyət Kreml üçün layihədə iştirak imkanlarını xeyli məhdudlaşdırır.

TRIPP layihəsi ətrafındakı gəlişmələr göstərir ki, biz “dəhlizlər müharibəsi"nin ən aktiv fazasındayıq. Azərbaycan üçün bu vəziyyət yüksək neft qiymətləri ilə iqtisadi dözümlülük, ABŞ və Avropa İttifaqı ilə tərəfdaşlıq sayəsində geostrateji mərkəz statusu və Cənubdan təhdidlərə qarşı Türkiyə ilə müttəfiqliyin hərbi modernləşmə vasitəsilə gücləndirilməsi deməkdir. Layihənin icra müddətindən asılı olmayaraq, regionun Rusiya mərkəzli sistemdən qoparaq qlobal bazarlara inteqrasiyası artıq "geriyə dönüşü olmayan nöqtə"dir. Gecikmə Azərbaycan üçün strateji resurs toplamaq, Ermənistan üçün isə daxili ziddiyyətlərini həll etmək üçün müvəqqəti nəfəslik rolunu oynayır.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Zəngəzur dəhlizinin (TRIPP) açılma tarixi rəsmi sazişdə dəqiq göstərilməsə də, prosesin reallaşması qaçılmazdır. Unutmayaq ki, burada əsas oyunçular Bakı və İrəvandır, çünki dəhliz bilavasitə Ermənistan ərazisindən keçəcək. ABŞ-ın bu məsələdə qarant kimi çıxış etməsinə gəldikdə isə, hazırda Vaşinqtonun diqqəti daha çox İran ətrafındakı proseslərə yönəlib. Lakin bu, müvəqqəti xarakter daşıyır və Ağ Evin yenidən bu mövzuya qayıdacağı şübhəsizdir. ABŞ-ın regionda apardığı hərbi əməliyyatlar, təbii ki, dəhlizin açılması prosesində müəyyən texniki və siyasi çətinliklər törədə bilər. Amma hesab edirəm ki, Vaşinqtonun regiondakı hərbi fəallığı dəhliz məsələsində həlledici maneə deyil.

Dəhlizin açılması böyük ehtimalla Ermənistandakı parlament seçkilərindən sonraya təsadüf edəcək. Çünki hazırda Ermənistan rəhbərliyinin əsas diqqəti seçkilərə və hakimiyyəti qorumağa yönəlib. Biz ABŞ-la münasibətlərimizi daha yüksək səviyyəyə qaldırmalı və onun bu prosesdəki iştirakını təmin etməliyik. Şübhəsiz ki, bu məsələlər asan başa gəlməyəcək, lakin Azərbaycanın prinsipial mövqeyi dəyişməz qalır və biz bu qətiyyəti nümayiş etdirməyə davam edəcəyik.

İranın hazırkı rəhbərliyi regionda Qərb dövlətlərinin iştirakına və müxtəlif layihələrdə təmsil olunmasına qarşı dəfələrlə kəskin etirazlarını bildirib. Fəqət son münaqişədən sonra rəhbərliyin bu məsələyə baxışı daha mülayim müstəviyə keçəcək. Xüsusilə, əgər İranda ABŞ-a meyilli və daha loyal bir hakimiyyət formalaşarsa, dəhliz məsələsinin həlli tamamilə real görünür. Belə bir ssenaridə layihəyə ciddi etiraz edən regional qüvvə qalmayacaq.

Təbii ki, bu prosesin baş tutması üçün müəyyən geosiyasi şərtlərin yerinə yetirilməsi mütləqdir. Birmənalı şəkildə qeyd etmək olar ki, İranda hakimiyyət dəyişikliyinin baş verməsi və Qərbyönümlü, ABŞ ilə əməkdaşlığa açıq bir iqtidarın gəlməsi dəhlizin açılmasına çox müsbət təsir göstərəcək. Bu amil regiondakı gərginliyi azaldaraq, layihənin icrasını sürətləndirən əsas amillərdən birinə çevrilə bilər.

# Rusiya miqrasiya nəzarətini rəqəmsallaşdırır

**(əvvəli 1-ci səhifədə)**

Yeni qaydalar həm iş icazələri, həm də patent sistemi vasitəsilə miqrantların və onların ailələrinin statusunu ciddi şəkildə tənzimləyəcək. Beləliklə, V.Volodin tərəfindən açıqlanan yeni qanunvericilik təşəbbüsləri göstərir ki, rəsmi Moskva miqrasiya proseslərini, sadəcə, işçi qüvvəsi axını kimi deyil, mütləq dövlət nəzarəti altında saxlanılan və hər addımı iqtisadi süzgəc-



dən keçirilən rəqəmsal mexanizmə çevirmək niyyətindədir. Bu “uyğunlaşdırma” prosesinin arxasında həm də miqrant ailələrinin sosial strukturunu dəyişəcək ciddi iqtisadi şərtlər dayanır.

Yeni qanunvericilik bazasının mühüm sütunlarından biri odur ki, miqrantlar özləri və Rusiyada onlarla birlikdə yaşayan ailə üzvləri üçün regionun spesifik iqtisadi əmsalları nəzərə alınmaqla müəyyən edilmiş minimum yaşayış səviyyəsindən az olmayan rəsmi gəlir təmin etməyə məcbur ediləcəklər. Bu tələb praktiki olaraq o deməkdir ki, aşağı maaşlı və ya qeyri-rəsmi sektorlarda çalışan xarici vətəndaşlar ailələrini Rusiyada saxlamaq hüququnu iqtisadi cəhətdən itirə bilərlər. Bu iqtisadi filtr təkcə valideynin deyil, bütövlükdə ailənin ölkədə qalma perspektivini maliyyə imkanlarına bağlayır.

Bundan əlavə, xarici vətəndaşlar müəyyən edilmiş sabit avans ödənişlərini, yəni patent rüsumlarını vaxtında etmək öhdəliyi daşıyırlar. Bu tələblərin azacıq pozulması, ödənişin bir gün belə gecikdirilməsi patentin və ya iş icazəsinin dərhal ləğv edilməsinə, bu isə zəncirvari şəkildə ölkədə qanuni qalma müddətinin qısaldılmasına və deportasiya riskinə yol açacaq. Bununla da Rusiya dövləti miqrantı hər ay öz iqtisadi faydalılığını sübut etməyə məcbur edən bir sistem qurur.

Rəqəmsal nəzarətin miqyası da əvvəlki illərlə müqayisədə inanılmaz dərəcədə genişlənəcək. Yeni sistemə görə, vergi orqanları xarici vətəndaşların üç, altı, doqquz və on iki aylıq dövrlərdə əldə etdikləri gəlirləri avtomatik rejimdə Daxili İşlər Nazirliyinə (MVD) təqdim edəcək. Bu məlumat mübadiləsi həm işəgötürənlərin sığorta haqları üzrə hesabatlarından, həm də əcnəbilərin özlərinin təqdim etdiyi rəsmi bəyannamələrdən formalaşacaq. Bu şəffaflıq mexanizmi dövlət büdcəsinə öz “meyvələrini” verməkdədir. Rəsmi məlumatlara görə, 2025-ci ildə xaricilər Rusiyada 2,3 milyon əmək patenti alıblar ki, bu da 2024-cü ilə nisbətən 9 faiz çoxdur. Hər patent üzrə gəlir vergisi ödənilib və ümumilikdə, büdcəyə 172 milyard rubl daxil olub. Bu da əvvəlki ilə nisbətən 39 faiz çoxdur. Bu artım əmək miqrasiyasının tədricən kölgədən çıxdığını göstərir və dövlətin vergi bazasını genişləndirməyə başladığını ortaya qoyur.

Lakin bu iqtisadi uğur miqrantın üzərinə düşən maliyyə yükünün və bürokratik məsuliyyətin artması hesabına baş verir. Sərtləşdirmə tədbirləri yalnız yeni gələnləri deyil, müvəqqəti (RVP) və daimi yaşayış icazəsi (VNJ) olan “köhnə” miqrantları da əhatə edir. Əgər şəxs il ərzində rəsmi olaraq 10 aydan az işləyibsə, onun bütün sənədləri qüvvədən düşmüş hesab olunacaq ki, bu da xüsusilə mövsümi işlərdə çalışan azərbaycanlılar üçün ciddi maneədir.

Sosial tərəfdən ən radikal və ağrılı addım miqrant uşaqları ilə bağlıdır. Hazırlanan qanun layihəsinə görə, əgər xarici vətəndaşların övladlarının ölkədə qalmaq üçün qanuni əsasları yoxdursa, onlar 18 yaşına çatdıqdan sonra cəmi 30 gün ərzində Rusiyanı tərk etməli və ya özləri müstəqil şəkildə patent alaraq iş statuslarını qanuniləşdirməlidirlər. Bu qayda miqrantların ailə üzvlərinin də mütləq nəzarət altında saxlanmasını təmin edir və gələcəkdə yaşlı nəslin hüquqi vəziyyətini daha da sərtləşdirir.

Bu tədbirlər həm iqtisadi yükü balanslaşdırmaq, həm də sosial gərginliyi azaltmaq üçün mühüm addım hesab olunsa da, ailə birliyini birbaşa maliyyə intizamına tabe edir. Azərbaycanlı miqrantların



əhəmiyyətli hissəsinin tikinti, xidmət və kənd təsərrüfatı sahələrində çalışdığını və bir çoxunun övladları ilə birlikdə məskunlaşdığını nəzərə alsaq, bu qaydalar minlərlə ailənin planlarını alt-üst edə bilər. Valideynlər iş icazələrini vaxtında və qanuni qaydada təsdiqləməsələr, övladları üçün də heç bir hüquqi sığınacaq yeri qalmayacaq.

Nəticə etibarilə, köklü islahatlar Azərbaycan iqtisadiyyatı və cəmiyyəti üçün də ciddi siqnaldır. Miqrantların üzərinə qoyulan yüksək rəsmi gəlir həddi və artan patent ödənişləri onların xalis qazancını azaldacaq. Bu isə, öz növbəsində, Azərbaycana yönələn pul köçürmələrinin həcminin kiçilməsi ilə nəticələnəcək. Bu, ailə üzvlərinin Azərbaycana qayıtması, ailə başçısının isə Rusiyada tək işləməsi modelinin yenidən dominant hala gəlməsinə səbəb olacaq.

Bununla Rusiya Federasiyası artıq “ucuz və nəzarətsiz işçi qüvvəsi” konseptindən imtina edərək, yalnız ixtisaslı, rəsmi gəlirli və hər addımına görə vergi ödəyən xarici vətəndaşları qəbul etməyə hazır olduğunu bildirir. Bu yeni hüquqi reallıq hər bir azərbaycanlı miqrantdan daha yüksək hüquqi savadlılıq, dəqiq maliyyə planlaması və strateji uzaqgörənlik tələb edir. Əks halda, uzun qurulan həyatın bir ayın içində inzibati yollarla dağılması ehtimal deyil, qanunvericiliklə tənzimlənən reallıqdır.

Bu geniş, həcmli təhlil həm Rusiyadakı, həm də Azərbaycandakı tərəflər üçün miqrasiya proseslərinin artıq şəffaflıq və sərt nəzarət mərhələsinə qədəm qoyduğunu bir daha təsdiqləyir.

Beləliklə, Rusiya Dövlət Dumasında anonsu verilən islahatlar son onilliklərin ən radikal addımıdır. Rəsmi Moskva miqrasiya siyasətində “açıq qapı” və ya “liberal nəzarət” modelindən tamamilə imtina edərək, “iqtisadi filtr” sisteminə keçir. Bu sistemin əsas fəlsəfəsi ondan ibarətdir ki, Rusiya yalnız dövlət büdcəsinə birbaşa vergi gəliri gətirən, lakin dövlətin sosial infrastrukturuna (məktəb, bağça, xəstəxana) yük yaratmayan miqrantları saxlamaq niyyətindədir.

Xüsusilə ailə üzvləri üçün regional yaşayış minimumu həddində rəsmi gəlir tələbi, aşağı ixtisaslı və aşağı maaşlı miqrantların ailəvi şəkildə Rusiyada məskunlaşmasını iqtisadi cəhətdən qeyri-mümkün edir. Bu, Azərbaycanlı miqrantlar arasında “ailələrin vətənə geri dönməsi” dalğasına səbəb ola bilər. Valideynin bir günlük patent gecikməsinin və ya 10 aylıq iş stajı tələbinin pozulmasının birbaşa övladlarının deportasiyası ilə nəticələnməsi, ailə bütövlüyünü tamamilə rəqəmsal və maliyyə intizamından asılı hala salır.

Digər mühüm məqam rəqəmsal nəzarətin avtomatlaşdırılmasıdır. Vergi xidməti ilə Daxili İşlər Nazirliyinin bazalarının inteqrasiyası “insan amilini” və rüşvət faktorunu aradan qaldırır. Sistem gəlir uyğunsuzluğu aşkar etdikdə sənədləri avtomatik ləğv edir. İqtisadi baxımdan bu, Rusiyadan Azərbaycana yönələn pul köçürmələrinin həm strukturuna, həm də həcminə təsir göstərəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Dövlət idarəçiliyində mühüm dəyişiklik

## *Qazaxıstanda konstitusiya islahatı TDT-nin strateji əhəmiyyətini yüksəldir*

**Qazaxıstan Respublikasının siyasi və hüquqi arxitekturasında əsaslı dönüş prosesi tam şəkildə həyata keçirildi. Martın 15-də baş tutan ümumxalq referendumu vasitəsilə dövlətin əsas qanunu–Konstitusiya tamamilə yeniləndi. Struktur dəyişiklikləri sənədin 84 faizini əhatə edərək, super-prezident idarəetmə modelindən balanslaşdırılmış prezident respublikasına keçidi təmin edir. İslahatlar kəsintisiz və sürətli qlobal dəyişikliklər fonunda dövlətin institusional immunitetini gücləndirməyə xidmət edir.**

Dövlət başçısı Kasım-Jomart Tokayev səsvermə prosesindən dərhal sonra yerli və xarici media nümayəndələrinə verdiyi müsahibədə məsələnin həm daxili, həm də qlobal miqyaslı əhəmiyyətini açıqlayıb. Ölkə lideri sənədin vətəndaşların azadlıqlarını və hüquqlarını qoruyan, həqiqətən tarixi qanunlar toplusu olmasını xüsusi qeyd edib. Səslənən bəyanatlara əsasən, qəbul edilən hüquqi baza ölkənin suverenliyini, ərazi bütövlüyünü, habelə müstəqilliyini tam rəsmiləşdirir. Ölkənin uzun illər bundan öncəki qanunla yaşamasına baxmayaraq, zamanın amansız axarı daha çevik qərarların qəbulunu qaçılmaz edir. Prezident vətəndaşlara səslənərək bildirdi: "Biz mütərəqqi dövlətin əsas qanununu formalaşdırırıq. Əgər inkişafdan geri qalsaq, digər xalqların gözündə nüfuzumuzu itirərik". Bu yanaşma ölkə rəhbərliyinin siyasi cəsarətini nümayiş etdirir.

Hüquqi aspektlər baxımından, ən inqilabi dəyişikliklərdən biri parlament strukturunun yenidən formalaşdırılmasıdır. "Senat" institutu ləğv edilərək, "Qurultay" adlı vahid palatalı qanunverici orqan təsis edilir. 145 deputatdan ibarət parlament tamamilə proporsional sistem əsasında xalq tərəfindən seçiləcək. İcra hakimiyyətinin qanunverici orqana təsir imkanları sıfıra endirilir. Prezidentin deputat təyin etmək kvotası qanunvericilikdən çıxarılır. Nəticədə, parlament tam sərbəst şəkildə qanunlar qəbul etmək, büdcəyə nəzarət mexanizmlərini tətbiq etmək imkanı qazanır. Qanunverici orqanın səlahiyyətlərinin genişləndirilməsi xalqın iradəsinin dövlət siyasətində bilavasitə əks olunmasını təmin edir. Hakimiyyətin mərkəzsizləşdirilməsi doktrinası uğurla reallaşdırılır.

İcra hakimiyyətinin strukturunda aparılan islahatların mərkəzində vitse-prezident institutunun yaradılması dayanır. Analitik dairələrdə müxtəlif ssenarilər səsləndirilsə də, dövlət başçısı məsələyə tam aydınlıq gətirdi. Yeni post hakimiyyət dövlət institutlarının böhranlara qarşı dözümlülüyünün artırılması məqsədilə təsis edilir. İdarəetmə aparatının yükünü bölüşdürmək, qlobal miqyaslı tədbirlərdə çevikliyi qorumaq xatirinə yaradılan vitse-prezidentlik institutu stabilliyin əsas qarantlarından sayılacaq. Mövcud vəzifə səlahiyyətləri yalnız dövlət idarəçiliyinin səmərəliliyini artırmağa xidmət edəcək.

Kadr siyasətində rasional yanaşmanın tətbiqi icraedici mexanizmin sürətini qaldıracaq. Konstitusiya Məhkəməsinin statusunun yenidən müəyyənləşdirilməsi məhkəmə hakimiyyətinin tam müstəqilliyini təsdiqləyir. İnsan haqları üzrə müvəkkilin səlahiyyətlərinin ana qanunla təsbit edilməsi vətəndaşların fərdi azadlıqlarının ali səviyyədə qorunmasını şərtləndirir.

***

Qazaxıstanın yürütdüyü xarici siyasət kursu da qəbul edilən sənədin ruhuna uyğun çoxvektorlu və praqmatik xarakter daşıyır. Tokayev jurnalistlərin Yaxın Şərq mövzusundakı suallarını cavablandırarkən rəsmi Astananın sülhsevər diplomatiyasını nümayiş etdirib. O, bölgədəki tarixi xalqlara, o cümlədən İran xalqına və onun zəngin mədəniyyətinə dərin hörmətini bildirib. Beləliklə, beynəlxalq sülhün qorunması, qarşıdurmaların danışıqlar masasında həll edilməsi Qazaxıstan diplomatiyasının əsas xətti kimi təkrarən təsdiqləndi.

Proseslərin bütövlükdə Türk Dövlətləri Təşkilatının strateji hədəfləri ilə əlaqələndirilməsi məsələnin ən vacib tərəfidir. Astananın hüquqi müstəvidə güclənməsi Türk dünyasının geosiyasi rəqabət qabiliyyətini ciddi artırır. Məlumdur ki, təşkilat çərçivəsində dərin iqtisadi və siyasi inteqrasiya proqramları həyata keçirilir. Türk Dünyası Baxışı sənədində qoyulan hədəflərə çatmaq məqsədilə üzv ölkələrin qanunvericilik bazalarının sinxronlaşdırılması tələb olunur. Xüsusilə Orta Dəhliz layihəsinin iqtisadi rentabelliyini təmin etmək naminə beynəlxalq ticarət hüququna uyğun, şəffaf idarəetmə mühitinin yaradılması mütləq şərtdir. Yeni qanunvericilik xarici kapitalın, eləcə də qardaş türk respublikalarından gələn investisiyaların qorunmasına tam hüquqi təminat verir. Xəzər dənizi üzərindən keçən ticarət yollarının təhlükəsizliyi, gömrük prosedurlarının optimallaşdırılması məhz qanunun aliliyi prinsiplərinə əsaslanır. Güclü iqtisadiyyat güclü



qanunvericilik bazası üzərində inşa edilir. Diplomatik cəbhədə isə Türk Dövlətləri Təşkilatının güclənməsi Mərkəzi Asiyada, eləcə də Cənubi Qafqazda möhkəm sülhün qarantına çevrilir. Qazaxıstan Qafqaz regionu ilə logistik kəsişmələrdə əsas tərəfdaşdır. Xəzər hövzəsinin karbohidrogen resurslarının və alternativ enerji potensialının dünya bazarlarına çıxarılmasında qardaş ölkələrlə sinxron hərəkət etmək vacibdir. Təşkilata daxil olan dövlətlər artıq iqtisadi müttəfiqlikdən siyasi müttəfiqliyə keçid edirlər. Qazaxıstan isə yeni layihə ilə həmin ittifaqın avanqard qüvvəsinə, qanunvericilik nümunəsinə çevrilir.

Türk xalqlarının tarixi birliyi XXI əsrdə hüquqi, iqtisadi, mədəni sferalarda yenidən qurulur. Mövcud transformasiya böyük Avrasiya qitəsinin siyasi xəritəsinin dəyişməz reallığıdır. Demokratik təsisatları sağlam işləyən, xalqının iradəsinə söykənən dövlət istənilən beynəlxalq təzyiqi dəf edə bilir. Dövlət rəhbərliyinin yürütdüyü dəqiq və soyuqqanlı daxili islahatlar ölkənin qlobal kataklizmlərdən minimum zərərlə çıxmasına hesablanıb. Regionda gedən geosiyasi toqquşmalar fonunda qanunun aliliyinə əsaslanan təhlükəsizlik mərkəzi yaratmaq fövqəladə ustalıq tələb edir. Səsvermənin nəticələri sübut edir ki, vətəndaşlar hökumətin düzgün strategiya seçdiyini dəqiq anlayırlar. Ali sənədin hər sətri azadlığın, müstəqilliyin qorunmasına yönəlib. Qeyd olunan müsbət inkişaf trayektoriyası mütləq mənada qlobal güclərin diqqətini regiona yönəldir. Həmin güclər Qazaxıstanı tam bərabərhüquqlu, qanunların hökm sürdüyü güclü tərəfdaş qismində qəbul edirlər.

TDT platformasının əsas sütunlarından sayılan Astananın hüquqi zəfəri qardaş xalqlar üçün intibah məşəli rolunu icra edəcək. Məhz göstərilən strategiya uğurun alternativsiz açarıdır. Genişmiqyaslı geosiyasi dəyişikliklər erasında idarəetmə aparatının fasiləsiz və səmərəli fəaliyyəti istənilən dövlətin ayaqda qalması üçün həyati əhəmiyyət kəsb edir. Yeni qanunvericiliyin əsas xətti xarici təzyiqləri dəf etməyə qadir güclü daxili struktur yaratmaq, hər vətəndaşın maraqlarını xüsusi qorumaqdır. Qürurla irəli addımlayan, xalqının dəstəyinə arxalanan dövlət modeli hər kəsə nümunədir. Mükəmməl hüquqi arxitektura sülhün və firavanlığın yeganə qarantıdır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# İflasdan qaçış yolu: avantüradan uzaq durmaq

## *Nikol Paşinyan seçki mübarizəsinin konseptual məqamlarını açıqladı*

**Tam qətiyyətlə demək olar ki, Ermənistanın Baş naziri Nikol Paşinyanın ötən həftə sonundakı canlı "Facebook" çıxışı ölkənin ictimai-siyasi həyatına damğasını vurdu. Hökumət rəhbəri nitqi ilə bu ilin yayında keçiriləcək parlament seçkilərində mübarizə trayektoriyasını müəyyənləşdirdi. Yəni mübarizənin hansı qüvvələr arasında gedəcəyinin mesajını verdi. Aydındır ki, mesaj xalqa ünvanlanmışdı.**



Deməli, Paşinyan "Facebook"dakı çıxışı ilə şərti olaraq iki qütb formalaşdırdı. Birincisi, özünün rəhbərlik etdiyi "Mülki müqavilə" partiyasının timsalında sülh tərəfdarları, ikincisi, tərkibi "eks"lərdən, xırda-para müxaliflərdən və kilsədən ibarət barışa zidd mövqedə dayanan kəsim. Nikol, faktiki olaraq, xalqın bu iki kəsim arasında seçim etməli olduğunu bəyan etdi.

Əvvəla, Paşinyan kifayət qədər tədbirli davranır. Nəzərə alaq ki, o və tərəfdarlarının qarşıdakı seçiyə fokuslanaraq irəli sürdükləri tezislər tutarlıdır və erməni ictimai rəyində adekvat reaksiyalar doğurur. Yəni nəticəyə ümid bəsləmək mümkündür. Hərçənd, arxayınlaşmaq olmaz və bunu ən yaxşı dərk edən Nikolun özüdür.

İkincisi, Paşinyanın xalq qarşısında sülh və müharibə dilemmasını müəyyənləşdirməsi konseptual məqamdır. Çünki Ermənistanda onun rəhbərlik etdiyi cinaha əks mövqe tutan revanşist və şovinistlər var. O revanşist və şovinistlər ki, illərlə avantüra girdabında boğulmuş erməni cəmiyyətini manipulyasiya etmək, onda hansısa fövqəladə intiqam hissləri formalaşdırmağa cəhd göstərirlər. Bu sayaq cəhdləri nüvəsini isə "Artsax" sərsəmləməsi təşkil etməkdədir.

"Artsax"dan söz düşmüşkən, N.Paşinyanın "Facebook" çıxışındakı fikirləri, obrazlı desək, nöqtə atəşidir. O, mübarizənin iki qütb arasında olduğunu bildirməklə, sülh və müharibə dilemması müəyyənləşdirməklə həm rəhbərlik etdiyi kəsimin barış gündəliyini ortaya qoyur, həm də barışa zidd düşərgənin iki mühüm tutacaq yeri üzərində dayanır. Birincisi, barəsində söz açdığımız "Arsax" sərsəmləməsidir. Bu mənada, üzərində dayanılmalı ikinci məqam sözügedən sərsəmləmənin çıxış nöqtəsi olan, özündə işğalçılıq və təcavüz ritorikasını daşıyan istiqlal bəyannaməsidir.

Beləliklə, Paşinyan bildirib ki, istiqlal bəyannaməsi, əslində, müstəqillik deyil, münaqişə haqqındakı sənəddir. Yeri gəlmişkən, Nikol ötən həftə bu deyimi iki dəfə gündəmə gətirdi. İkinci dəfə "Facebook" yayımında, birinci dəfə isə keçirdiyi brinfinq zamanı. Əslində, Nikol siyasi baxımdan düzgün qərar verdi. Yəni eyni məsələnin üzərinə dalbadal getməklə, ictimai rəyi onun üzərinə cəmləşdirdirdi. Paşinyan, həmçinin istiqlal bəyannaməsinin yolverilməzlik məntiqini "eks"lərin və partiyasına qarşı çıxan digərlərinin tutacaq yeri kimi xarkerizə etdi. Paşinyan təxminən bunu bildirdi: bizə qarşı çıxanlar Ermənistan üçün fəlakət arzulayanlardır.

Əlqərəz, N.Paşinyan açıq şəkildə vurğuladı ki, "Mülki müqavilə" partiyası yeni konstitusiyada istiqlal bəyannaməsinə hansısa istinadın yolverilməzliyini bəyan edən yeganə siyasi qüvvədir. "Çünki bu, münaqişə bəyannaməsidir və onunla biz vətəndaşlarımızın rifahını və azadlığını təmin etmək üçün yox, əksinə, Dağlıq Qarabağ və Qərbi Ermənistan üçün dövlət yaradırıq", – deyən baş nazir məsələnin cəmiyyət tərəfindən çox aydın dərkinin vacibliyini önə çəkdi: "Biz bu qərarı aydın şəkildə qəbul etməliyik. Xüsusilə nəzərə alaq ki, hazırda siyasi meydan, faktiki olaraq, aşağıdakı məntiq çərçivəsində formalaşır: bir tərəfdə Qarabağ hərəkatını davam etdirməməli olduğumuzu deyən sülh partiyası, digər tərəfdə isə birbaşa və ya dolayı şəkildə Qarabağ hərəkatını davam etdirməli olduğumuzu iddia edən müharibə partiyası".

Ümumən, Paşinyanın erməni cəmiyyətindəki vacib problemin üzərinə getdiyini söyləmək mümkündür və bu, müsbət haldır. Baş nazir sadə vətəndaşlara səslənərək, onların yayda son dərəcə taleyüklü qərara imza atmalı olduqlarının mesajını verir, bir növ, məsuliyyətli davranmaq çağırışı edir. Hazırda revanşist və şovinistlər isə hökumət rəhbərinin xalqı müharibə ilə qorxutmağa başladığına dair rəy formalaşdırmağa çalışırlar.

Qeyd edək ki, Ermənistanda revanşist və şovinist ab-hava özünü göstərsə də, həmin ab-havanın, bilavasitə yeni müharibə ritorikası cəmiyyət tərəfindən dəstəklənmir. Erməni cəmiyyətində revanşizm və şovinizm daha çox bu təmayülə hansısa kənar qüvvənin siyasi və hərbi yatırım etməsi üzərindədir. Eynilə I Qarabağ müharibəsindəki kimi. Paşinyan isə fikirləri ilə sadə erməniləri məsiliyyətli qərar verməyə səsləməklə tarixin təkrarlanma ehtimalının mümkünsüzlüyünü vurğulayır: "Heç kim bu seçimdən qaça bilməyəcək: əgər biz Qarabağ hərəkatını davam etdirsək, bizi müharibə gözləyir, etdirməsək, sülh. Sülh hər gün daha da möhkəmlənəcək, Ermənistan Respublikası hər gün daha da güclənəcək və mən bu hərəkatın başındayam. Kim razıdırsa, ardımca gəlsin".

Ən əsası, N.Paşinyan bunu bildirib: "Biz "Artsax respublikası" və ya "Artsax məsələsi" haqqında danışanda başa düşməliyik ki, bu sözün müəyyən mənası və nəticələri var. Bu ifadələrin harada səsləndirilməsinin fərqi yoxdur. İstər kilsədə, istər elmi mühitdə, istərsə də ictimai məntiq çərçivəsində. Bu, gec-tez qaçılmaz şəkildə münaqişəyə gətirib çıxarır. Mən bəyan edirəm ki, bütün ermənilərin katolikosu II Qaregin (Ktiriç Nersisyan) açıq şəkildə müharibə partiyasının rəhbərliyini öz üzərinə götürüb. Digərləri – Robert Koçaryan, Levon Ter-Petrosyan, Serj Sarkisyan (Ermənistanın eks prezidentləri – red.) və başqaları bu məntiqə uyğun hərəkət edirlər. Biz aydın seçim etməliyik: Qarabağ hərəkatını davam etdirək, yoxsa yox. Əgər davam etdirsək, bu, yeni müharibə demək olacaq, başqa cür mümkün deyil. Xalq seçkilər vasitəsilə bəyan etməlidir ki, Qarabağ hərəkatını davam etdirəcək, yoxsa yox. "Mülki müqavilə" partiyası Qarabağ hərəkatını davam etdirməməli olduğumuzu açıq bildirən yeganə siyasi qüvvədir, buna bənzər başqa bir qüvvə yoxdur".

Sonda bir məqamı vurğulayaraq deyək ki, N.Paşinyanın ötən həftə "Facebook" çıxışı həm də Ermənistan üçün sülh ritorikasının uca səslə bəyan edilməsi idi. Mövcud ritorikanın xalqa mesaj mahiyyətini vurğuladıq. İkinci mahiyyət isə Nikolun beynəlxalq ictimaiyyətə, o cümlədən onun hakimiyyətinə dəstək verənlərədir. Yəni ikinci kəsim Ermənistanda yayda keçiriləcək parlament seçkilərinə hazır olmalıdır. Çünki Paşinyan iqtidarının seçki marafonundakı mümkün uğursuzluğu ilə sıradan çıxacaq sülh erməni dövləti adına hər şeyin iflasıdır. Başqa sözlə desək, bu dövlətin var olub-olmamasına xaricdən də qərar verilməli, inad göstərilməlidir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Avropa Macarıstanda seçki rəqabətini diqqətlə izləyir

## *Paralel mitinqlər sabitlik və dəyişiklik tərəfdarlarını üz-üzə qoyub*

**Macarıstanda seçkiöncəsi siyasi durum mitinqlərlə müşayiət olunur. Paytaxt Budapeştdə eyni gündə keçirilən paralel aksiyalar ölkədə siyasi rəqabətin kəskinləşdiyini göstərir. Martın 15-də Baş nazir Viktor Orban tərəfdarları qarşısında çıxış edib.**



Qarşıdan gələn seçkini "tarixi seçim" adlandıran V.Orbanın sözlərinə görə, ölkə təhlükəsizlik və sabitlik kursunu davam etdirmək ilə yeni siyasi istiqamətə yönəlmək arasında qərar verməlidir. Paraleldə, millətçi liderin uzun illər davam edən hakimiyyətinə son qoymaq istəyən müxalif qüvvələr də genişmiqyaslı mitinqlər keçirib.

Ümumən son 3 ildə iqtisadi artımın zəifləməsi, yaşayış xərclərinin yüksəlməsi və Avropa İttifaqı ilə münasibətlər ətrafında davam edən mübahisələr seçki mühitini əvvəlki kampaniyalardan fərqli edib. Hakim "Fidesz" partiyası ilə mərkəz-sağ düşərgəni təmsil edən Piter Magyarın rəhbərlik etdiyi "Tisza" hərəkatı təşkil olunan aksiyalar vasitəsilə öz siyasi güclərini nümayiş etdirməyə çalışırlar. Sorğuların bir qismi müxalifətin üstünlüyünü göstərsə də, hakimiyyət tərəfdarları nəticənin hələ tam müəyyənləşmədiyini bildirir. Əslində, bu gün Macarıstanda müşahidə olunan seçki rəqabəti Avropa İttifaqı ilə münasibətlərin gələcəyi, Ukrayna müharibəsinin yaratdığı geosiyasi gərginlik və milli suverenlik ilə inteqrasiya arasında tarazlığın necə qurulacağı ilə bağlıdır. Bu səbəbdən 12 aprel tarixində keçiriləcək seçkilər hökumətin taleyi ilə yanaşı, ölkənin növbəti illərdə hansı siyasi və iqtisadi istiqamətdə inkişaf edəcəyini müəyyən edə biləcək hadisə kimi qiymətləndirilir.

Yeri gəlmişkən, Macarıstanda keçiriləcək seçkilər Avropa miqyasında da diqqətlə izlənilir. Bunun əsas səbəblərindən biri ölkənin Avropa İttifaqı (Aİ) ilə münasibətlərində xüsusi xətt tutmasıdır. Budapeşt rəsmi olaraq İttifaqın üzvü olsa da, bir sıra strateji məsələlərdə fərqli mövqe nümayiş etdirməsi onu qitə daxilində ən çox müzakirə olunan paytaxtlardan birinə çevirib. Məlumdur ki, son dövrlər Aİ daxilində milli suverenlik ilə inteqrasiya siyasəti arasında balansın necə qurulması barədə mübahisələr kəskinləşib. Bəzi ölkələr daha sıx əməkdaşlıq tərəfdarı olduğu halda, digərləri qərarvermə imkanlarının qorunmasının vacibliyini vurğulayır. Macarıstan ikinci yanaşmanı daha açıq müdafiə edən dövlətlərdən biri kimi tanınır.

**ARAYIŞ:** Viktor Orban Avropa İttifaqının miqrasiya siyasəti, enerji təhlükəsizliyi, sanksiyalar və Ukrayna müharibəsi ilə bağlı qərarlarında ehtiyatlı mövqeyi ilə seçilir. Rəsmi dairələr bunu ölkənin milli maraqlarını qorumaq zərurəti ilə izah edir. Hakimiyyət hesab edir ki, vahid qərarlar qəbul olunarkən üzv dövlətlərin fərqli iqtisadi və təhlükəsizlik şərtləri nəzərə alınmalıdır. Brüsseldə formalaşan yanaşmaya görə, xüsusilə müharibə və enerji böhranı kimi vəziyyətlərdə ittifaq daxilində daha koordinasiyalı siyasət tələb olunur. Mövcud fikir ayrılığı, eləcə də Macarıstanın mövqeyi son illər tərəflər arasında siyasi dialoqun mürəkkəb xarakter almasına səbəb olub.

Seçki kampaniyası zamanı bu mövzu yenidən gündəmə gəlib. Hakimiyyət Avropa ilə əməkdaşlığın davam etdirilməsinin vacibliyini qəbul etsə də, qərarların milli maraqlar nəzərə alınmadan qəbul olunmasının düzgün olmadığını bildirir. Müxalifət isə hesab edir ki, Budapeşt ilə Brüssel arasında uzun müddət davam edən gərginlik iqtisadi imkanların tam istifadə olunmasına mane olur və investisiya mühitinə mənfi təsir göstərir. Mübahisələr, sadəcə, siyasi ritorika ilə məhdudlaşmır. Avropa fondlarından ayrılan vəsaitlər, enerji layihələri və təhlükəsizlik proqramları kimi məsələlər də tərəflər arasında münasibətlərə xeyli təsir göstərir. Macarıstan iqtisadiyyatının Avropa bazarı ilə sıx bağlı olması əməkdaşlığın davamlı qalmasını zəruri edir. Eyni zamanda, hökumət daxili siyasətdə müstəqil qərar vermək imkanının qorunmasını strateji məsələ kimi dəyərləndirir. Seçkilərdə iştirak edən əsas siyasi qüvvələrin mövqeləri də bu balans axtarışını əks etdirir. Hakim "Fidesz" partiyası mövcud kursun ölkəyə sabitlik gətirdiyini vurğulayır və kəskin dəyişikliklərin riskli ola biləcəyini bildirir. Müxalif düşərgənin önə çıxardığı Peter Magyar isə Avropa strukturları ilə daha konstruktiv dialoqun mümkün olduğunu deyir, lakin o da milli maraqların nəzərə alınmasının vacibliyini inkar etmir. Bu isə seçkilərin ideoloji qarşıdurmadan daha çox siyasi prioritetlərin fərqli şərhi üzərində qurulduğunu söyləməyə əsas verir.

Ukraynada davam edən müharibə Aİ daxilində mövqelərin yaxınlaşmasını tələb edən amillərdən biri kimi qiymətləndirilir. Bununla belə, region dövlətlərinin hər birinin təhlükəsizlik və iqtisadi maraqları fərqli olduğundan vahid yanaşma formalaşdırmaq həmişə asan olmur. Macarıstanın ehtiyatlı siyasəti də bu fərqlərin nəticəsi kimi izah edilir. Geosiyasi gərginliyin artması Avropada ümumilikdə daha konservativ seçici davranışına səbəb olan amillərdən biri kimi önə çıxır. Təhlükəsizlik riskləri yüksəldikcə, seçicilər adətən daha stabil və tanış siyasi kursa üstünlük verməyə meyilli olur. Bununla yanaşı, iqtisadi çətinliklər artdıqda dəyişiklik tələbi güclənə bilir. Mitinqlər zamanı səslənən şüarlar da göstərdi ki, cəmiyyət daxilində əsas mübahisə gələcək risklərin necə qiymətləndirilməsi ilə bağlıdır. Bir qrup seçici mövcud kursun davam etdirilməsini daha təhlükəsiz hesab etdiyi halda, digər qrup yeni siyasi yanaşmanın ölkəyə daha geniş imkanlar açacağını düşünür.

Beynəlxalq müşahidəçilər hesab edirlər ki, seçkilərin nəticəsindən asılı olmayaraq Macarıstanın xarici siyasətində kəskin dönüş gözlənilmir. Ölkə həm Aİ-nin üzvü olaraq qalmağa, həm də öz iqtisadi və enerji maraqlarını qorumağa çalışacaq. Bu isə Budapeştin gələcəkdə də balanslaşdırılmış siyasət yürütməyə məcbur olacağını göstərir.

***Ekspert rəyi***



**Züriyyə QARAYEVA,**
**politoloq**

Viktor Orban rəhbərlik etdiyi hakimiyyətlə müxalifətin lideri Peter Magyar ətrafında formalaşan siyasi blok arasında gərginliyin artması Macarıstanda 2026-cı il seçkilərinin adi siyasi kampaniya olmayacağını göstərir. Son illər ölkədə siyasi sistem kifayət qədər sabit görünürdü və hakim partiya uzun müddət parlament çoxluğunu qoruyub saxlayırdı. Lakin müxalifətin yeni sima ətrafında toplanması və Budapeştdə keçirilən kütləvi mitinqlər göstərir ki, seçki prosesinə maraq və siyasi mobilizasiya ciddi şəkildə artıb. Bu isə seçkilərin həm də cəmiyyət daxilində fərqli siyasi baxışların daha açıq şəkildə qarşılaşması kimi qiymətləndirilə bilər.

Digər tərəfdən, belə gərgin kampaniyalar Avropa ölkələrində seçki öncəsi dövrdə tez-tez müşahidə olunur və bu, müəyyən mənada, demokratik proseslərin dinamikliyini də əks etdirir. Sorğuların seçkinin çox gərgin keçəcəyini göstərməsi siyasi mübarizənin daha aktiv olacağına işarədir, lakin nəticəni əvvəlcədən müəyyən edən əsas faktor yenə də seçicilərin davranışı olacaq. Budapeştdə keçirilən mitinqlərə gəldikdə, siyasi qüvvələrin tərəfdarlarını səfərbər etməyə çalışdığı görünür və seçkiyə qədərki dövrdə debatların, siyasi ritorikanın və ictimai müzakirələrin daha da intensivləşməsi gözləniləndir. Belə şəraitdə əsas məsələ siyasi rəqabətin institusional çərçivədə qalması və seçki prosesinin sabit şəkildə keçirilməsidir.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Azərbaycandan Türkiyəyə “mavi axın” tarixi od qardaşlığıdır

## *Ötən müddətdə TANAP-la qardaş ölkəyə 40 milyard kubmetrə yaxın qaz nəql olunub*




**Azərbaycan və Türkiyənin birgə reallaşdırdığı ən uğurlu enerji layihələrindən biri olan Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) layihəsi çərçivəsində tikinti-quraşdırma işlərinin başlanmasından 11 il ötür. Xatırladaq ki, 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət başçılarının iştirakı ilə təntənəli təməlqoyma mərasimi keçirilib.**

Mərasimdə çıxış edən Prezident İlham Əliyev TANAP layihəsinə start verilməsini tarixi bir gün kimi dəyərləndirərək deyib: “TANAP enerji layihəsidir. Bu layihə enerji təhlükəsizliyi layihəsidir. Amma, ilk növbədə, bu layihə Türkiyə–Azərbaycan birliyi, qardaşlığı layihəsidir. TANAP layihəsinin tarixçəsi çox qısadır, ancaq çox şərəflidir... Qısa müddət ərzində artıq TANAP layihəsi gerçəkləşir, bu gün təməl daşı qoyulur. Mən TANAP layihəsinin Novruz bayramı ərəfəsində, İlaxır çərşənbə günündə təməl daşının qoyulmasında da böyük rəmzi məna görürəm. Biz milli ənənələrimizə bağlıyıq, sadiqik, öz gələcəyimizi milli dəyərlər üzərində qururuq. Biz bütün dünyaya da açığıq. Bu gün burada toplaşan, müxtəlif ölkələrdən gəlmiş qonaqlar bizim dəyərli dostlarımızdır. Bu işi biz bərabər görürük və görəcəyik”.

TANAP layihəsi 2011-ci ildə həyata vəsiqə alıb. Belə ki, həmin il oktyabr ayının 25-də Türkiyənin İzmir şəhərində “Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair” saziş imzalanıb. Dekabrın 26-da “Türkiyə ərazisində magistral qaz kəmərinin tikintisi üzrə konsorsiumun yaradılması haqqında” Azərbaycan və Türkiyə hökumətləri arasında anlaşma memorandumuna imza atılıb.

Növbəti ildən isə qaz kəmərinin tikintisi üzrə daha ciddi addımlar atılıb. Belə ki, 2012-ci il iyunun 26-da “Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) sisteminə dair” saziş imzalanıb. Prezident İlham Əliyevin “Azərbaycan və Türkiyə hökumətləri arasında təbii qazın Türkiyəyə satışı və Azərbaycandan gələn təbii qazın Türkiyə ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair” sazişin təsdiq edilməsi haqqında” Qanunu imzalaması ilə Azərbaycanı Türkiyə və Avropa ölkələrinin qaz bazarlarına birləşdirən TANAP-a dair hüquqi bazanın formalaşdırılması başa çatdırılıb.

2012-ci il dekabrın 24-də boru kəmərinin istismarı ilə məşğul olan TANAP A.Ş. şirkəti təsis edilib. Qurumun səhmdarları isə SGC (Azərbaycan) – 51 faiz, BOTAS (Türkiyə) – 30 faiz, bp (Böyük Britaniya) 12 faiz və SOCAR Turkey Enerji A.Ş. (Türkiyə) 7 faiz şirkətləridir.

Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən bu nəhəng enerji layihəsi üzrə tikinti işlərinə, təqribən, 3 il vaxt sərf olunub. Azərbaycanı potensial qaz ixracatçısına çevirən TANAP Türkiyənin şərqindən qərbinə qədər 1793 kilometr məsafə qət edir. Bunun da 1339 kilometri Gürcüstan–Türkiyə sərhədindən Əskişəhərədək, 454 kilometri isə Türkiyə–Yunanıstan sərhədinədək olan hissəni əhatə edir.

Türkiyənin 20 vilayətindən keçən boru kəmərinin diametri quruda 56 və 48, dənizdə isə 36 düymdür. Maksimum hündürlüyü dəniz səviyyəsindən 2 min 700 metr olan TANAP-dan Türkiyənin qazpaylama sisteminə iki qol ayrılıb. Boru kəmərinin obyektlərinə 7 əsas kompressor stansiyası və Əskişəhərə ayrılan qol üçün nəzərdə tutulmuş 1 kompressor stansiyası, 12 təmizləyici tərtibatın buraxılma kamerası, eyni sayda təmizləyici tərtibatın qəbulu kamerası, 49 bağlayıcı armatur stansiyası, eləcə də qaz sərfini ölçən 4 stansiya daxildir.

Dörd mərhələdə həyata keçirilən layihənin ilk mərhələsi 2018-ci ildə başa çatdırılıb. Həmin il yanvar ayının sonunda Türkiyə ərazisində kəmərin təbii qazla doldurulmasına start verilib. İyunun 12-də Türkiyənin Eskişehir şəhərində TANAP-ın Türkiyə hissəsinin açılışı keçirilib. Qardaş ölkəyə ilk kommersiya qazının tədarükü 2019-cu il iyunun 30-da başlayıb. Noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala şəhərində TANAP-ın Avropa ilə birləşdirilməsinin tamamlanmasına həsr olunmuş təntənəli mərasim keçirilib.

Xəzərin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” yatağından çıxarılan təbii qazın ölkənin hüdudlarından kənara nəql edən TANAP regionun və Avropanın enerji xəritəsini yenidən formalaşdıran, beynəlxalq əməkdaşlığın uğurlu nümunəsi sayılan Cənub Qaz Dəhlizi layihəsinin əsas seqmentlərindən birini təşkil edir. Bu, həm də uzunluğuna və boruların diametrinə görə Yaxın Şərqdə inşa edilmiş ən böyük magistral qaz kəməridir. TANAP Gürcüstan–Türkiyə sərhədindən başlayaraq Cənubi Qafqaz boru kəməri sisteminə qoşularaq qardaş ölkənin ərazisindən keçməklə Yunanıstanla sərhədə qədər uzanır. Daha sonra isə təbii qazın Avropaya çatdırılması üçün TAP boru kəmərinə birləşdirilib.

Ümumi dəyəri 7 milyard dollara yaxın olan bu boru kəmərinin ilkin ötürmə gücü ildə 16 milyard kubmetr qaz təşkil edir. Gələcəkdə isə bu həcmin 31 milyard kubmetrə qədər artırılması mümkündür. Ötən müddətdə boru kəməri vasitəsilə 98 milyard kubmetrdən artıq “mavi yanacaq” nəql edilib ki, bunun da, təqribən, 42 milyard kubmetri Türkiyəyə, 56 milyard kubmetri isə Avropaya ixrac olunub.

Yeri gəlmişkən, Trans-Anadolu boru kəməri və bütövlükdə, Cənub Qaz Dəhlizi Azərbaycanın enerji siyasətinin uğur hekayəsidir. Belə ki, ölkəmiz əvvəllər qaz ehtiyatlarını dörd istiqamətdə ixrac etmək imkanına malik olsa da, yeni əsrdə daha bir nəhəng enerji dəhlizinin yaradılmasına üstünlük verib.

Ulu öndər Heydər Əliyevin yeni neft strategiyasını uğurla həyata keçirən Prezident İlham Əliyevin qətiyyəti və məqsədyönlü fəaliyyəti nəticəsində XXI əsrin ən nəhəng enerji layihələrindən olan Cənub Qaz Dəhlizi ideyadan reallığa çevrilib. Azərbaycan qazının Avropaya nəqli üçün ən etibarlı marşrut sayılan Cənub Qaz Dəhlizinin mühüm, sonuncudan əvvəlki seqmenti sayılan Trans-Anadolu qaz kəməri layihəsi Azərbaycan və Türkiyənin birgə enerji əməkdaşlığının, dostluq və qardaşlıq münasibətlərinin təntənəsidir.

Təsadüfi deyil ki, ölkələrimiz arasında enerji sahəsindəki əməkdaşlığın ənənəvi xarakter daşıdığını dəfələrlə bəyan edən dövlətimizin başçısı İlham Əliyev XXI əsrin nəhəng qaz ixracı layihəsinin əhəmiyyəti barədə danışarkən deyib: “TANAP layihəsi dünyada böyük səs salmışdır və dünyada enerji siyasətinin yenidən formalaşması istiqamətində atılan mühüm addımdır. Beynəlxalq aləmdə TANAP layihəsinə olan diqqət onu göstərir ki, Türkiyə və Azərbaycan həmişə olduğu kimi, lazım olan vaxtda birgə təşəbbüs göstərərək, bütün məsuliyyəti öz üzərinə götürərək bu böyük layihəyə start verdi. Ümid edirəm ki, danışdığımız kimi, yaxın beş ildə biz TANAP layihəsinin icrasına nail olacağıq və beləliklə, Azərbaycan Türkiyə üçün önəmli qaz təminatçısı olacaqdır və eyni zamanda, Azərbaycan qazı Türkiyə vasitəsilə Avropaya nəql ediləcək”.

Azərbaycan–Türkiyə iqtisadi əməkdaşlığının tarixində yeni səhifə açan TANAP Azərbaycanın bir sıra Avropa ölkələri ilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə, dünyada qaz ixracı marşrutlarının şaxələndirilməsinə, qaz bazarlarına daha çox “maye yanacağ”ın çıxarılmasına və dünyanın enerji təhlükəsizliyinə töhfələri isə ildən-ilə artır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “Abşeron” yatağının tammiqyaslı işlənməsinə hazırlıq

**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Abşeron qaz-kondensat yatağı üzrə növbəti böyük mərhələnin başlanmasına hazırlıq gedir. Layihə çərçivəsində tammiqyaslı işlənməyə keçid planlaşdırılır və ilk təbii qazın bu mərhələdən hasilatına 2029-cu il sentyabrın 1-də start verilməsi nəzərdə tutulur.**



Proqnozlara görə, yatağın istismar müddəti təxminən üç onilliyi əhatə edəcək və bu dövr ərzində ölkənin enerji balansına mühüm töhfə verəcək. Layihənin operatoru olan “TotalEnergies” “Abşeron” yatağının tam işlənməsi mərhələsi üzrə Ətraf Mühit və Sosial Təsirin Qiymətləndirilməsi barədə sənəd hazırlayıb. Qiymətləndirmə Azərbaycan qanunvericiliyinin tələbləri, beynəlxalq konvensiyalar və neft-qaz sənayesində qəbul olunmuş qabaqcıl standartlar əsasında tərtib edilib, yataq üzrə mövcud Hasilatın Pay Bölgüsü Sazişinin müddəalarına uyğun aparılıb.

Yeni mərhələ daha əvvəl həyata keçirilmiş erkən hasilat sxeminin davamı kimi qiymətləndirilir. Layihənin texniki planına əsasən, ilkin mərhələdə üç sualtı quyu qazılacaq, perspektivdə isə əlavə bir quyunun istismara verilməsi nəzərdə tutulur. Bununla yanaşı, dənizin dibində müasir sualtı infrastruktur qurulacaq, həm dənizdə, həm də quruda boru kəmərləri çəkiləcək. Layihənin mühüm komponentlərindən biri də Səngəçal Terminalı yaxınlığında inşa ediləcək Mərkəzi Emal Obyekti olacaq.

Bu kompleks çıxarılan xam qazın və kondensatın emalını həyata keçirəcək. Emaldan sonra təbii qazın Cənubi Qafqaz Boru Kəməri vasitəsilə beynəlxalq enerji marşrutuna və Azərbaycanın daxili qaz sisteminə ötürülməsi planlaşdırılır. Stabilizasiya mərhələsindən keçməmiş kondensat isə emal üçün Səngəçal terminalına nəql olunacaq.

Ətraf mühit və sosial təsirlərlə bağlı hazırlanan hesabatda layihənin bütün mərhələləri – qazma işləri, tikinti prosesləri, sualtı quraşdırmalar, işə salma və istismar dövrü geniş şəkildə təhlil edilib. Araşdırmalar 2024–2025-ci illərdə dəniz və quru ərazilərində aparılmış ilkin ekoloji və sosial tədqiqatların nəticələrinə əsaslanır.

Qiymətləndirmənin nəticələri göstərir ki, layihənin reallaşdırılmasına ciddi maneə yarada biləcək böyük ekoloji və sosial risklər müəyyən olunmayıb. Orta səviyyəli risklər əsasən fövqəladə və nadir hallarla – məsələn, məşəldə qazın qeyri-müntəzəm yandırılması və ya təsadüfi karbohidrogen sızmaları ilə bağlı ehtimallarla əlaqələndirilir. Lakin bu kimi halların qarşısının texniki layihələndirmə, operativ nəzarət mexanizmləri və fövqəladə situasiyalara hazırlıq planları vasitəsilə alınacağı qeyd olunur.

Sənəddə vurğulanır ki, tətbiq olunacaq idarəetmə və azaldıcı tədbirlər nəticəsində mümkün təsirlərin böyük hissəsi minimal səviyyədə qalacaq. Bu təsirlər əsasən lokal xarakter daşıyacaq və qısamüddətli olacaq. Söhbət dəniz və quru ekosistemlərində müvəqqəti narahatlıq, hava emissiyaları, səs-küy və müəyyən tullantıların yaranması kimi amillərdən gedir.

Eyni zamanda, layihənin ölkə iqtisadiyyatı üçün müsbət nəticələr vəd etdiyi də diqqətə çatdırılır. Gözləntilərə görə, yeni mərhələ yerli məşğulluğun genişlənməsinə, milli şirkətlərin satınalma proseslərinə daha fəal cəlb olunmasına, peşəkar kadr potensialının inkişafına və Azərbaycanın enerji təhlükəsizliyinin möhkəmlənməsinə töhfə verəcək.

Layihənin hazırlanması mərhələsində ictimai iştirakçılıq mexanizmləri də tətbiq olunub. Bu çərçivədə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə məsləhətləşmələr aparılıb, maraqlı tərəflərin rəyləri toplanıb və müvafiq sənədlər hazırlanıb.

Qeyd edək ki, Abşeron qaz-kondensat yatağı sahildən təxminən 100 kilometr cənub-şərq istiqamətində yerləşir və Xəzərin ən perspektivli enerji mənbələrindən biri hesab olunur. Yatağın ilk işlənmə mərhələsində hasilat 2023-cü ilin iyulunda başlanıb. Bu mərhələdə gündəlik hasilat 4 milyon kubmetr qaz və 13 min barel kondensat təşkil edir və əldə olunan qaz Azərbaycanın daxili bazarına yönəldilir.

Partnyor şirkətlər yatağın tammiqyaslı işlənməsi istiqamətində texniki layihələndirmə prosesinə 2025-ci ilin əvvəlində start veriblər. Yekun sərmayə qərarının isə 2026-cı il ərzində qəbul olunacağı gözlənilir. Planlara əsasən, tammiqyaslı işlənmə mərhələsində maksimum hasilat dövründə əlavə olaraq gündəlik 110 min barel neft ekvivalentində enerji resursunun əldə olunması mümkün olacaq.

İkinci mərhələdə gündəlik qaz hasilatının 12,7 milyon kubmetrə – yəni ildə təxminən 4,5 milyard kubmetrə çatdırılması planlaşdırılır. Bununla yanaşı, ilk dövrlərdə gündə 35 min barel kondensatın çıxarılması nəzərdə tutulur. Bu göstəricilər “Abşeron” yatağının Azərbaycanın enerji strategiyasında getdikcə daha mühüm rol oynayacağını göstərir.

***XQ***

# Britaniya şirkəti ölkəmizdə əlvan metal hasilatını artırır

**Azərbaycanda qızıl yataqlarının işlənməsi üzrə ixtisaslaşan Böyük Britaniyanın “Anglo Asian Mining” dağ-mədən şirkəti ölkə ərazisindəki mədənlərinin işə salındığı vaxtdan bəri yüksək istehsal həcminə nail olub. Bu barədə Britaniya şirkəti məlumat yayıb.**



Bildirilib ki, 2009-cu ildə “Gədəbəy” yatağında hasil edilən filizin topa aşındırma üsulundan istifadə edərək qızıl və gümüşün çıxarılmasına başlayan “Anglo Asian Mining” ötən müddətdə fəaliyyətini xeyli genişləndirməyə nail olub. Şirkət ötən il ölkəmizdə yeni yeraltı “Gilar” mis-qızıl mədənini, eləcə də “Dəmirli” mis yatağını işə salıb.

Qurumun məlumatına əsasən, 2026-cı ilin yanvarın sonuna ümumi istehsal həcmi qızıl ekvivalentində bir milyon unsiya həddini aşıb. Bu göstəriciyə isə, təxminən, 851 min unsiya qızıl, 1,9 milyon unsiya gümüş və 30 min tondan çox mis daxildir.

“Anglo Asian Mining”, həmçinin “Gilar” və “Dəmirli” mədənlərinin gücünün artırılması hesabına 2026-cı ildə mis istehsalı həcminin üç dəfə artacağını gözləyir. Qeyd edək ki, təkcə 2025-ci il ərzində şirkət ölkəmizdə 25,061 min unsiya qızıl, 153,332 min unsiya gümüş və 7,915 min ton mis hasil edib.

Britaniya şirkəti 2026-cı ildə ölkəmizdə 28 mindən 33 min unsiyayadək qızıl hasil etməyi planlaşdırır. Cari ildə gümüş hasilatının 170 mindən 210 min unsiyayadək, misin isə 20 mindən 25 min tonadək həcmdə olacağı proqnozlaşdırılır. Bu da o deməkdir ki, şirkət 2026-cı ildə ötən illə müqayisədə qızıl hasilatını 11,7 faizdən 31,7 faizə qədər, gümüş hasilatını 10,9 faizdən 36,95 faizə qədər, mis istehsalını isə 2,5 dəfədən 3,2 dəfəyə qədər artıra bilər.

***XQ***

# Büdcə daxilolmaları yüksəlib

**Ölkəmizdə dövlət əmlakının özəlləşdirilməsi və icarəyə verilməsi sahəsində işlər davam edir. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən cari ilin yanvar-fevral ayları ərzində özəlləşdirmə və icarədən dövlət büdcəsinə 75,9 milyon manat vəsaitin ödənilməsi təmin edilib.**




Dövlət Xidmətinin məlumatına əsasən, bu ilin ilk 2 ayı ərzində 10 hərrac keçirilib. Hərraclarda 1 səhmdar cəmiyyətinin səhm paketi və 258 nəqliyyat vasitəsi özəlləşdirilib. Hesabat dövründə özəlləşdirmədən dövlət büdcəsinə daxilolmalar 66,1 milyon manat təşkil edib.

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən yanvar-fevral ayları ərzində 96-sı qeyri-yaşayış, 794-ü torpaq sahələri üzrə olmaqla 890 yeni icarə müqaviləsi bağlanılıb. Hesabat dövründə daşınmaz dövlət əmlakının (qeyri-yaşayış və torpaq sahələrinin) icarəsindən dövlət büdcəsinə 9,8 milyon manat vəsaitin ödənilməsi təmin olunub. Beləliklə, yanvar-fevral ayları ərzində dövlət əmlakının özəlləşdirilməsindən və icarəsindən büdcəyə ümumilikdə 75,9 milyon manat vəsait daxil olub.

***XQ***

# Köhnə avtomobillər utilizasiya olunur



**Ölkə ərazisində istismar olunan köhnə nəqliyyat vasitələri həm yol hərəkətinin təhlükəsizliyi, həm də ətraf mühitə təsiri baxımından ciddi risk yaradır. Bu səbəbdən də “Təmiz Şəhər” ASC istismara yararsız nəqliyyat vasitələrinin utilizasiyası proqramını davam etdirir.**

İndiyədək proqram çərçivəsində, ümumilikdə, 23 min 589 nəqliyyat vasitəsi utilizasiya olunub. Bununla yanaşı, vətəndaşlar tərəfindən 1273 yeni nəqliyyat vasitəsi proqram vasitəsilə əldə edilib.

Qeyd edək ki, proqramın əsas məqsədi istismar müddəti başa çatmış nəqliyyat vasitələrinin utilizasiyasını təmin etməkdir. Hazırda ölkə üzrə üç utilizasiya mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdən biri Gəncədə, biri Abşeronda, digəri isə Bakıda yerləşir, Gələcəkdə isə utilizasiya məntəqələrinin sayının artırılması planlaşdırılır.

***XQ***

# Rəqəmsal “işıq ödənişləri”nin “qaranlıq” ekranı

## İstehlakçı hüquqları və xidmət sferasına etimad

**Son illər ölkəmizin enerji sektorunun modernləşdirilməsi, smart sayğacların tətbiq edilməsi və ödəniş sistemlərinin rəqəmsallaşdırılması istiqamətində mühüm addımlar atılıb. Bununla belə, bəzi hallarda xidmətin texnoloji inkişafı ilə vətəndaşların gözləntiləri arasında uyğunsuzluq müşahidə edilib. Xüsusilə elektrik enerjisi üzrə ödənişlərin sayğac balansında tam əks olunmaması ilə bağlı şikayətlər cəmiyyətdə narahatlıq yaradır.**

Xatırladaq ki, bu gün cəmiyyətdə daha çox müzakirə edilən mövzu terminal və ya elektron vasitə ilə həyata keçirilən ödənişlərin sayğac balansında tam şəkildə əks olunmaması ilə bağlıdır. Belə ki, bir çox abonent bildirir ki, terminal vasitəsilə, məsələn, 10 manat ödəniş etdikdən sonra sayğac balansında yalnız 7 manat və ya buna yaxın məbləğ görünür. Bu isə sual yaradır: ödənilən vəsaitin qalan hissəsi hara yönəlir və abonent bunu niyə dərhal görə bilmir?

Enerji təchizatı və satışını həyata keçirən qurumun açıqlamalarında bu vəziyyətin bir neçə səbəbi diqqətə çatdırılır. Birinci səbəb kimi əvvəlki dövrlərdən qalan borcun insan müdaxiləsi olmadan, yəni öncədən proqramlaşdırılma əsasında tutulması göstərilir. Yəni abonent terminal vasitəsilə ödəniş etdikdə sistem əvvəlki borcu dərhal həmin məbləğdən çıxır və yalnız qalan hissə sayğac balansına əlavə olunur. İkinci səbəb kimi müxtəlif xidmət və texniki xərclərin avtomatik tutulması ehtimalı bildirilir. Bəzi hallarda isə sayğac məlumatlarının sistemə gecikmə ilə ötürülməsi, proqram təminatında baş verən texniki problemlər və ya sayğacın fəaliyyətində yaranan nasazlıqların balans uyğunsuzluğuna səbəb kimi qeyd edilir.

Məhz bu məqamda istehlakçı hüquqlarının qorunması məsələsi ön plana çıxır. **Hüquqşünas ekspert Qasım Əfəndiyevin** qeyd etdiyi kimi, “Elektrik enerjisi haqqında” qanuna və istehlakçı hüquqlarının müdafiəsini nəzərdə tutan normativ aktlara əsasən, vətəndaş aldığı xidmətin həcmi, qiyməti və ödəniş strukturu barədə aydın və dolğun məlumat almaq hüququna malikdir. Əgər balansda uyğunsuzluq müşahidə olunursa, abonentin enerji təchizatçısına rəsmi qaydada müraciət ünvanlamaq, sayğacın yoxlanılmasını və zərurət yarandıqda müstəqil ekspertiza aparılmasını tələb etmək hüququ var.

Bununla yanaşı, sistemli problemlər təsdiqləndiyi təqdirdə, məsələ təkcə texniki izahlarla məhdudlaşmır. Belə hallarda inzibati məsuliyyət tədbirlərinin reallaşdırılması və maliyyə sanksiyalarının tətbiq edilməsi də mümkündür. Bu isə bazarda xidmət göstərən qurumların istehlakçı hüquqlarına daha məsuliyyətlə yanaşmasını gerçəkləşdirən mühüm mexanizmlərdən biridir.

Enerji sektorunda fəaliyyət göstərən qurumlar üçün bu gün əsas məsələlərdən biri ictimai etimadın qorunmasıdır. Elektrik enerjisi gündəlik həyatın ayrılmaz hissəsi olduğundan, bu sahədə yaranan hər bir sual və ya şübhə geniş ictimai rezonans doğurur. Bu baxımdan, “Azərişıq” ASC üçün ən vacib məsələ təkcə texniki izahlar vermək deyil, həm də sistemin şəffaflığını praktiki mexanizmlərlə gerçəkləşdirməkdir. Ekspertlərin fikrincə, bu istiqamətdə bir sıra kollektiv və sistemli yanaşmaya üstünlük verilməsi, institusional addımların atılması zəruridir. İlk növbədə isə terminal və mobil tətbiqlərdə edilən ödənişlərin hərtərəfli bölgüsü real vaxt rejimində göstərilməlidir. Abonent ödədiyi məbləğin hansı hissəsinin cari istehlaka, hansı hissəsinin isə əvvəlki borcun bağlanmasına yönəldiyini dərhal görə bilməlidir.

Digər mühüm addım sayğacda köhnə borcların tutulması ilə bağlı məlumatların ayrıca sətirdə göstərilməsidir. Bu halda abonent sistemdə həyata keçirilən bütün maliyyə əməliyyatlarını şəffaf şəkildə izləyə bilər. Bundan əlavə, sayğacların şəffaf işləməsi ilə bağlı müstəqil nəzarət mexanizminin yaradılması da müzakirə edilən təkliflər sırasında yer alır. Belə bir mexanizmlə həm texniki problemlərin obyektiv şəkildə qiymətləndirilməsinə, həm də vətəndaşların şikayətlərinin daha operativ araşdırılmasına nail olunur. Kütləvi şikayətlər yarandıqda isə ictimai hesabatların təqdim edilməsi ilə sistemə olan etimadın bərpası reallaşır.

Əslində, burada əsas məsələ təkcə bir neçə manatın taleyi ilə bağlı deyil. Narahatlıq doğuran problem daha çox sistemə olan inamın qorunması ilə əlaqədardır. İctimai münasibətlərdə şəffaflıq və hesabatlılıq təmin edilmədikdə ən kiçik maliyyə uyğunsuzluğu belə böyük etimad böhranına gətirib çıxara bilər. Bu baxımdan ekspertlər qeyd edirlər ki, texniki terminlərə sığınmaq və ya ümumi ifadələrlə kifayətlənmək artıq səmərəli yanaşma sayılmır. Müasir cəmiyyət daha konkret, əsaslandırılan və aydın cavablar tələb edir. Əgər sistem avtomatik çıxıntılar həyata keçirirsə, bu mexanizmin hüquqi və texniki əsasları abonentə açıq şəkildə izah olunmalıdır.

Nəticə etibarilə, elektrik enerjisi xidmətində şəffaflığın təmin edilməsi texniki məsələ olmaqla bərabər, eyni zamanda, ədalətli idarəetmə və istehlakçı hüquqlarının qorunmasıdır. Vətəndaşın ödədiyi vəsaitin hara yönəldiyini dərhal və aydın şəkildə görə bilməsi isə müasir xidmət modelinin əsas tələblərindən biridir. Başqa sözlə, abonent ödədiyi hər manatın hara getdiyini bilmək hüququna malikdir. İndi isə əsas vəzifə bu hüququn real mexanizmlərlə təmin olunmasıdır.




### Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Enerji sektorunda narahatlıq doğuran problemlərin əsas səbəblərindən biri xidmət prosesinin tam şəffaf olmaması və vətəndaşların ödəniş mexanizmləri barədə kifayət qədər məlumatlandırılmamasıdır. Müasir rəqəmsal texnologiyalar isə bu problemi aradan qaldırmaq üçün geniş imkanlar yaradır. Məsələn, inkişaf etmiş enerji bazarlarında hər bir abonent mobil tətbiqlər vasitəsilə öz enerji istehlakını və maliyyə əməliyyatlarını real vaxt rejimində izləyə bilir. Bu sistemlərdə abonent təkcə balansı deyil, həm də ödənişlərin strukturunu görmək imkanına malik olur. Belə yanaşma isə xidmət sahəsində şəffaflığı artırmaqla yanaşı, vətəndaşların enerji istehlakına daha məsuliyyətli yanaşmalarına stimul yaradır.

Digər mühüm bir məsələ istehlakçı hüquqlarının müdafiəsi sahəsində hərtərəfli nəzarətin gücləndirilməsidir. Enerji sektorunda fəaliyyət göstərən qurumların fəaliyyəti müvafiq dövlət orqanları tərəfindən nəzarətdə saxlanılmalı, vətəndaş müraciətləri operativ şəkildə araşdırılmalı və zəruri hallarda hüquqi tədbirlər görülməlidir. Bu baxımdan enerji sektorunda istehlakçı hüquqlarının qorunması yalnız hüquqi mexanizmlərlə məhdudlaşmır. Eyni zamanda, bu məsələdə xidmət mədəniyyəti, şəffaflıq və ictimai etimad kimi amillər də mühüm rol oynayır.

Əgər vətəndaş istifadə etdiyi xidmətin necə işlədiyini, ödədiyi vəsaitin necə hesablandığını və yaranan problemlərin hansı qaydada həll olunacağını aydın şəkildə bilirsə, bu, həm xidmət göstərən qurumla istehlakçı arasında münasibətləri sağlamlaşdırır, həm də bütövlükdə enerji sektoruna olan etimadı gücləndirir. Bu baxımdan enerji xidmətlərində şəffaflıq və istehlakçı hüquqlarının təmin olunması müasir idarəetmənin əsas prinsiplərindən biri kimi qəbul edilməlidir. Çünki enerji sektoru kimi strateji bir sahədə vətəndaşın hüquqlarının qorunması sosial məsələ olmaqla yanaşı, həm də dövlət idarəetməsinin keyfiyyətini müəyyənləşdirən mühüm göstəricidir.

### Enerji abonentinin hüquqları

**İqtisadçı-ekspert Samid Hüseynov** bildirir ki, enerji sektoru müasir iqtisadiyyatın və sosial həyatın əsas dayaqlarından biridir. Elektrik enerjisi iqtisadi fəaliyyətin deyil, həm də gündəlik həyatın ayrılmaz hissəsidir. Bu səbəbdən enerji xidmətlərinin göstərilməsi zamanı istehlakçı hüquqlarının qorunması dövlət siyasətinin mühüm istiqamətlərindən biridir.

Azərbaycanda enerji sektorunda istehlakçı hüquqlarının müdafiəsi bir neçə hüquqi sənədlə tənzimlənir. Bu sahədə əsas hüquqi baza “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” və “Elektrik enerjisi haqqında” qanunlar, eləcə də enerji təchizatı üzrə müxtəlif normativ aktlar və qaydalardan ibarətdir. Bu sənədlərə əsasən, enerji istehlakçılarının bir sıra mühüm hüquqları mövcuddur.

İlk növbədə, vətəndaşın düzgün və keyfiyyətli xidmət almaq hüququ təmin edilməlidir. Elektrik enerjisinin fasiləsiz və təhlükəsiz şəkildə təchiz olunması isə enerji təchizatçılarının birbaşa öhdəliyidir. Bu xidmət təkcə texniki baxımdan deyil, həm də müqavilə şərtləri çərçivəsində həyata keçirilməlidir.

İkinci mühüm prinsip məlumatlandırma və şəffaflıq hüququdur. İstehlakçının istifadə etdiyi xidmətin həcmi, qiyməti və ödəniş strukturu barədə aydın və dolğun məlumat almaq hüququ var. Bu, o deməkdir ki, abonent ödədiyi vəsaitin hansı hissəsinin elektrik enerjisi istehlakına, hansı hissəsinin isə digər tutulmalara yönəldiyini açıq şəkildə görə bilməlidir.

Üçüncü mühüm məsələ şikayət və müdafiə mexanizmlərindən istifadə etmək hüququdur. Belə ki, əgər vətəndaş enerji xidmətinin göstərilməsi zamanı hər hansı bir uyğunsuzluq və ya haqsızlıqla qarşılaşarsa, o, enerji təchizatçısına rəsmi müraciət ünvanlamaq imkanına malikdir. Bu mexanizmlər istehlakçıların hüquqlarının müdafiəsini təmin edən əsas vasitələrdən biridir.

Lakin praktikada bəzən bu hüquqların tam şəkildə reallaşmasında müəyyən çətinliklər müşahidə edilir. Enerji sektorunda xidmət göstərən qurumlarla abonentlər arasında yaranan mübahisələrin əksəriyyəti məhz məlumatlandırma və şəffaflıq məsələləri ilə bağlı olur. Xüsusilə ödənişlərin hesablanması, sayğac göstəricilərinin düzgünlüyü və balans məlumatlarının izahı kimi məsələlər ən çox müzakirə olunan problemlər sırasında yer alır.

Hüquqi baxımdan isə məsələ kifayət qədər aydındır. Mövcud qanunvericiliyə əsasən, abonent xidmətin həcmi, qiyməti və ödəniş strukturu barədə tam və dolğun məlumat almaq hüququna sahibdir. Hüquqşünas–ekspertlərin qeyd etdiyi kimi, abonent sistemli problem sübuta yetirildikdə inzibati məsuliyyət tədbirlərinin tətbiqini tələb etmək kimi hüquqlara malikdir. Bu hüquqların mövcudluğu istehlakçıların müdafiəsi üçün mühüm mexanizm olsa da, praktiki baxımdan əsas məsələ problemlərin yaranmasının qarşısını almaqdır.

Yeri gəlmişkən, bu məqamda belə bir sualla da qarşılaşılır: Bəs, beynəlxalq təcrübədə şəffaf enerji xidmətləri necə qurulur? Qeyd edək ki, dünyanın bir çox ölkəsində enerji xidmətləri sahəsində şəffaflıq əsas idarəetmə prinsiplərindən biri hesab olunur. Xüsusilə Avropa ölkələrində və inkişaf etmiş enerji bazarlarında abonentlərin ödəniş mexanizmləri maksimum dərəcədə açıq və izlənilə bilən formada qurulur. Məsələn, bir sıra Avropa ölkələrində smart sayğac sistemləri vasitəsilə abonent mobil tətbiq üzərindən edilən ödənişin dəqiq məbləği, əvvəlki borcun tutulmuş hissəsi, xidmət və ya texniki xərclər, eləcə də balansın dəqiq dəyişmə tarixi, habelə, vaxt kimi məlumatları real vaxt rejimində görə bilir.

Bəzi ölkələrdə isə sistem o qədər şəffafdır ki, abonent mobil tətbiq vasitəsilə, hətta hər saat üzrə elektrik istehlakını və bunun maliyyə dəyərini izləyə bilir. Eyni zamanda, bu modelin işə salınması ilə texniki idarəetməni təkmilləşdirmək və vətəndaşın xidmətə olan etimadını gücləndirmək qarşıya əsas vəzifə kimi qoyulur. Ekspertlərin sözlərinə görə, müasir dövrdə enerji sektorunda etimadın qorunmasının əsas yolu rəqəmsal şəffaflıq hesab edilir. Bu prinsiplə vətəndaşa ödədiyi vəsaitin necə bölündüyünü real vaxt rejimində görə bilmək imkanı yaradılır.

Bu baxımdan ekspertlər tərəfindən terminallarda ödənişin hərtərəfli bölgüsünün verilməsi, mobil tətbiqlərdə maliyyə əməliyyatları tarixçəsinin təqdim edilməsi, köhnə borcların ayrıca sətirdə göstərilməsi, sistem tərəfindən avtomatik tutulmaların səbəbinin aydın şəkildə izah olunması kimi texnoloji yeniliklərin tətbiqi zəruri sayılır. Bu yeniliklərin reallaşdırıldığı təqdirdə isə vətəndaşın suallarının böyük hissəsinin aradan qalxacağı bildirilir.

*Vaqif BAYRAMOV*
*XQ*

# “Tramp marşrutu” Qərbin Orta Dəhlizdə mövqeyini gücləndirir

**Ekspertlər Yaxın Şərqdə ABŞ, İsrail və İran arasında baş verən münaqişənin təsirlərinin təkcə regionla məhdudlaşmayacağını əvvəlcədən proqnozlaşdırırdılar. Mövcud gərginlik fonunda isə həmin dövlətlərin iştirak etdiyi bəzi regional layihələrin icrasında müvəqqəti gecikmələrin yaranması ehtimalı artır.**

Ermənistanın baş naziri Nikol Paşinyan bununla bağlı deyib ki, “Tramp marşrutu” (TRIPP) layihəsinin həyata keçirilməsi İranda baş verən hadisələr səbəbindən gecikə bilər. O, keçirdiyi son brifinqdə bildirib ki, hazırda TRIPP ABŞ administrasiyasının prioritetləri sırasında deyil.

Qeyd edək ki, “Tramp marşrutu”nun idarə olunması üçün yaradılacaq TRIPP Development şirkətində səhmlərin ilkin bölüşdürülməsi ABŞ-ın xeyrinə nəzərdə tutulub. 49 illik ilkin müddətdə səhmlərin 74 faizi ABŞ-a, 26 faizi Ermənistana məxsus olacaq. Layihə müddəti bitdikdən sonra müqavilənin 50 il müddətinə uzadılması ehtimalı mövcuddur. Bu halda Ermənistanın payı 49 faizə çatacaq, lakin idarəetmədə nəzarət paketi (51 faizi) yenə də ABŞ tərəfdə qalacaq. Beləliklə, strateji qərarvermə və layihənin əsas idarəetməsi amerikalı tərəfdaşların əlində saxlanılır, Ermənistan isə artan payı ilə layihədən gələn gəlir və iqtisadi iştirakını genişləndirir.

TRIPP dəhlizinin həyata keçirilməsində ən maraqlı tərəflərdən biri Azərbaycandır. Bu dəhliz Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə davamlı nəqliyyat infrastrukturu, enerji və optik kabel xətləri, elektrik şəbəkəsi və potensial olaraq boru kəmərləri vasitəsilə birləşdirməyə imkan verəcək. Eyni zamanda, TRIPP Orta Dəhlizin yeni istiqaməti kimi çıxış edəcək ki, bu da Orta Dəhlizin artan tranzit potensialını əhəmiyyətli dərəcədə gücləndirəcək.

Hazırda Ağ Ev üçün öncəlik İranla aparılan müharibə olsa da, ABŞ üçün TRIPP dəhlizi strateji baxımdan böyük önəm daşıyır. Müharibə və regiondakı gərginlik TRIPP-in həyata keçirilməsini müəyyən qədər arxa plana ata bilər, lakin bu, layihənin tamamilə ləğv olunması demək deyil. Əksinə, ABŞ və digər Qərb ölkələri layihənin icrasına böyük maraq göstərir və onu dəstəkləyir, çünki bu dəhliz onların Rusiya və İranla sərhəd olan marşrutlardan yan keçməsinə, riskləri minimuma endirməsinə imkan verəcək. Qısa desək, bu layihə Qərbin Orta Dəhlizdəki mövqeyini gücləndirir.




Beynəlxalq agentliklər hazırladıqları məqalələrdə qlobal iqtisadi sabitliyin getdikcə daha çox Orta Dəhliz və TRIPP kimi alternativ marşrutların sürətli inkişafından asılı olacağını qeyd edir. Geosiyasi kəşfiyyat və risklərin qiymətləndirilməsi üzrə ixtisaslaşmış konsaltinq və media agentliyi “Special Eurasia” tərəfindən dərc olunan “Avrasiya üzrə Dəniz Geosiyasi Riskləri 2026” adlı məqalədə bu marşrutların önəminə diqqət çəkilib.

Yazıda qeyd olunur ki, Avrasiya məkanında dəniz geosiyasi riskləri 2026-cı ildə də yüksək səviyyədə qalacaq və regionda ticarət marşrutları uğrunda rəqabət daha da kəskinləşəcək: “Eyni zamanda, Orta Dəhliz və TRIPP marşrutunun formalaşması regionda yeni geosiyasi balans yaradır. 2026-cı ilə qədər Xəzər dənizi regionunda mühüm geosiyasi dönüş baş verib və sovet dövründən qalan ənənəvi iqtisadi asılılıqların zəifləməsi nəticəsində qitələrarası ticarət marşrutları uğrunda çoxqütblü rəqabət formalaşıb”.

Analitiklər bildirirlər ki, bu prosesdə Azərbaycan logistika mərkəzi kimi mövqeyini daha da möhkəmləndirib. “Azərbaycan inteqrasiya olunmuş istehsal və tranzit infrastrukturu hesabına regionda mühüm logistika qovşağına çevrilib və Cənubi Qafqaz Avropa ilə Mərkəzi Asiyanı birləşdirən əsas nəqliyyat arteriyasına çevrilir”, – məlumatda vurğulanıb.

Məqalədə xüsusilə qeyd olunur ki, Qərb ölkələri sanksiyalar səbəbindən Rusiya üzərindən keçən marşrutlara alternativ axtardığından Orta Dəhlizə maraq əhəmiyyətli dərəcədə artıb. “Sanksiyalara məruz qalan Rusiya marşrutlarından asılılığı azaltmaq istəyən Qərb kapitalının böyük hissəsi Orta Dəhliz layihəsinə yönəlir”. Eyni zamanda bildirilir ki, regionun geosiyasi dinamikasında mühüm elementlərdən biri də ABŞ-ın təşəbbüsü ilə formalaşdırılan Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutudur (TRIPP).

Yeri gəlmişkən, TRIPP layihəsi yalnız Cənubi Qafqazın deyil, həm də Mərkəzi Asiyanın iqtisadi inkişafında həlledici rol oynayır. ABŞ üçün də Mərkəzi Asiya strateji baxımdan yüksək əhəmiyyət daşıyır. Bu region həm enerji və təbii resurslar baxımından zəngindir, həm də geosiyasi cəhətdən Çin, Rusiya və İranla sərhəd olduğu üçün də Qərbin maraqları üçün kritikdir. ABŞ burada öz iqtisadi və geosiyasi təsirini gücləndirməyə çalışır.Bunun üçün marşrutlarını diversifikasiyası olduqca vacibdir.

2026-cı ilin fevralında Vaşinqtonda keçirilən “Sülh Şurası” (Board of Peace) sammitində Qazaxıstan və Özbəkistan layihəyə tam dəstəyini açıqlayıb. Özbəkistan üçün TRIPP xüsusilə böyük strateji əhəmiyyət daşıyır, çünki ölkənin heç bir dənizə çıxışı yoxdur. Ona görə də bu dəhliz vasitəsilə dünya bazarına birbaşa çıxış əldə edə biləcək. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev marşrutdan istifadə etməklə ölkənin ixrac potensialını 40 milyard dollara çatdırmağı hədəfləyir. Bu, ölkənin iqtisadi inkişafı və regional ticarət imkanlarının genişlənməsi baxımından böyük əhəmiyyət kəsb edir.

*Musa BAĞIRLI*
*XQ*

*Təqvim yada salır*

# Erməni terrorunun tarixi cinayəti

## *Tələt Paşanın qətlə yetirilməsindən 105 il keçir*

**İttihad və Tərəqqi Cəmiyyətinin liderləri kimi Osmanlı imperiyasının son dövründə hakimiyyəti faktiki olaraq əlində cəmləşdirən "3 paşa" – Ənvər Paşa, Camal Paşa və Tələt Paşa XX əsrin əvvəllərində dövlətin idarə olunmasında aparıcı mövqe tutmuşlar. Tələt Paşanın adı tarixə 1908–1918-ci illərdə dövlət siyasətinə ciddi təsir göstərən əsas siyasi fiqurlardan biri kimi düşmüşdür.**



Mehmed Tələt Paşa 1 sentyabr 1874-cü ildə Osmanlı imperiyasının Ədirnə şəhərində dünyaya gəlmişdir. İlk təhsilini Vize şəhərində alan Tələt gənc yaşlarından təhsilə və ictimai fəaliyyətə maraq göstərmişdir. Daha sonra Ədirnə Hərbi Orta Məktəbinə daxil olsa da, burada baş verən bir hadisə onun həyat yolunu dəyişdirmişdir. Zabit müəllimlərindən biri ilə münaqişəyə görə məktəbdən uzaqlaşdırılmış, yalnız bir müddət sonra xüsusi müdaxilə nəticəsində diplom ala bilmişdir. Lakin qeydiyyat müddəti keçdiyindən ali təhsilini davam etdirmək imkan əldə edə bilməmişdir. Ailəsinin maddi vəziyyəti də onun təhsilini davam etdirməsinə mane olmuşdur.

Gənc yaşlarından əmək fəaliyyətinə başlayan Tələt 1891-ci ildə teleqraf idarəsində qeydiyyatçı vəzifəsində işləyir, eyni zamanda, Ədirnədə fəaliyyət göstərən məktəbdə türk dili müəllimi kimi fəaliyyət göstərirdi. Bu dövrdə o, qardaşı İsmayıl Yürükoğlunun təsiri ilə siyasi fəaliyyətə qoşulmuş və Gənc türklər hərəkatının fəal iştirakçılarından olmuşdur. Onun müxalif fəaliyyəti Osmanlı hakimiyyətinin diqqətindən yayınmamış, 1897-ci ildə dövlət əleyhinə fəaliyyət göstərdiyi iddiası ilə 3 il həbs cəzasına məhkum olunmuşdur. 1898-ci ildə azadlığa çıxdıqdan sonra Selanikə sürgün edilmiş və burada gizli siyasi təşkilatın fəaliyyətində iştirak etmişdır.

1907-ci ildə İttihad və Tərəqqi Komitəsinə qoşulan Tələt bəy qısa müddətdə təşkilatın ən nüfuzlu liderlərindən birinə çevrilir. Onun siyasi fəaliyyəti xüsusilə 1908-ci ildə baş verən İkinci Məşrutə inqilabından sonra daha da genişlənir. 1908-ci ildə Ədirnə bölgəsindən millət vəkili seçilərək Osmanlı parlamentinə daxil olur və Məclis sədrinin birinci müavini təyin edilir. 1909-cu ildə isə daxili işlər naziri vəzifəsinə gətirilir. Sonrakı illərdə poçt və teleqraf naziri, daha sonra yenidən daxili işlər naziri kimi fəaliyyət göstərir.

1913-cü il yanvarın 23-də baş verən Bab-ı Ali (dövlət çevrilişi) üsyanı Osmanlı siyasətində mühüm dönüş nöqtəsi olur, Tələt bəy Ənvər Paşa ilə birlikdə Kamil Paşa hökumətinin devrilməsində mühüm rol oynayır. Bundan sonra qurulan hökumətdə yenidən daxili işlər naziri təyin edilir və İttihad və Tərəqqinin dövlət idarəçiliyində təsiri daha da güclənir.

Birinci Dünya müharibəsi dövründə Tələt Paşa Osmanlı dövlətinin siyasi kursunun müəyyənləşdirilməsində əsas fiqurlardan biri idi. O, imperiyanın Almaniya ilə ittifaqa yönəlməsində mühüm rol oynadı və dövlət idarəçiliyində aparıcı mövqeyini qorudu. 1917-ci ildə sədrəzəm – Osmanlı dövlətinin baş naziri təyin edildi və 1918-ci ilin oktyabrına qədər bu vəzifəni icra etdi.

Müharibə dövründə Osmanlı dövlətinin daxili siyasətinin idarə olunmasında onun mühüm rolu olmuş, dövlət aparatının fəaliyyətinin təşkili və müharibə şəraitində idarəetmənin qorunması istiqamətində qərarlar qəbul etmişdir. Eyni zamanda, 1915-ci ildə qəbul edilən ermənilərin köçürülməsi qərarları ilə bağlı məsələlər də onun adı ilə əlaqələndirilir və bu mövzu tarixşünaslıqda geniş müzakirə olunan məsələlərdən biri kimi qalır.




1918-ci ilin sentyabrında Azərbaycan Xalq Cümhuriyyətinin mövqeyinin möhkəmləndirilməsi, Bakının azad edilərək ölkənin paytaxtı kimi fəaliyyət göstərməsi gənc Azərbaycan dövlətinin beynəlxalq aləmdə tanınması istiqamətində mühüm addımlardır. Onda Bakıda və digər bölgələrdə baş verən qanlı hadisələr, xüsusilə Mart qırğınları Azərbaycan xalqını ağır sınaqlarla üzləşdirmişdi.

Məhz belə bir vaxtda Osmanlı dövlətinin rəhbərliyi Azərbaycan xalqına yardım etmək qərarı verdi. Tələt Paşanın təşəbbüsü və siyasi iradəsi nəticəsində Osmanlı dövləti ilə Azərbaycan Cümhuriyyəti arasında 1918-ci il 4 iyun tarixində Batum müqaviləsi imzalandı. Bu müqavilə iki dövlət arasında hərbi və siyasi əməkdaşlığın əsasını qoydu.

Müqavilənin mühüm maddələrindən birinə əsasən Osmanlı dövlətinin hərbi naziri Ənvər Paşanın qardaşı Nuru Paşanın rəhbərliyi ilə türk hərbi qüvvələri Azərbaycana göndərildi. Qafqaz İslam Ordusunun fəaliyyəti nəticəsində Bakı azad edildi və Azərbaycan Cümhuriyyətinin paytaxtı kimi fəaliyyətini davam etdirdi. Bu hadisə Azərbaycan dövlətçiliyinin qorunması və möhkəmləndirilməsi baxımından mühüm tarixi mərhələ oldu.

Birinci Dünya müharibəsində Osmanlı imperiyasının məğlubiyyətindən sonra ölkədə siyasi vəziyyət kəskin dəyişdi. Müharibənin Osmanlı dövləti üçün məğlubiyyətlə başa çatmasından sonra Tələt Paşa ölkəni tərk edərək Almaniyaya gedir. Lakin onun siyasi həyatı mühacirətdə uzun sürmür.

Tələt Paşa 1921-ci il martın 15-də Berlində "Daşnaksütyun" partiyasının təşkil etdiyi "Nemezis" əməliyyatı çərçivəsində Soğomon Teyliryan adlı erməni terrorçusu tərəfindən qətlə yetirilir. Ələ keçirilən cinayətkar əqli xəstə olması bəhanə göstərilərək eyni il iyunun 3-də məhkəmə tərəfindən sərbəst buraxılır. Tələt Paşanın uzun müddət Berlin müsəlman məzarlığında qalan cənazəsi isə 22 il sonra İstanbula gətirilərək "Hürriyət" abidəsi yaxınlığında dəfn edilir.

Tələt Paşa ölümünə az qalmış qələmə aldığı xatirələrində belə qeyd edib: "Məni bir gün küçədə güllələyəcəklər. Alnımdan qan axaraq yerə səriləcəyəm. Yataqda ölmək nəsib olmayacaq. Ziyanı yoxdur, gəlib vursunlar. Vətən mənim ölümümlə bir şey itirməyəcək. Bir Tələt gedər, min Tələt yetişər!". Bu sözlər sadə bir siyasətçinin istəklərini deyil, öz ideallarına və inandığı dövlətə sadiq bir insanın daxili dünyasını əks etdirir.

***Namiq QƏDİMOĞLU***
***XQ***

*Gəlimli-gedimli dünya*

# Göyçənin tanınmış ağsaqqalı haqq dünyasına qovuşdu

**Qərbi Azərbaycan icmasına ağır itki üz vermişdir. Göyçənin tanınmış ziyalısı, el ağsaqqalı Abbas Əli oğlu Mazanov ömrünün 97-ci ilinin tamamında haqq dünyasına qovuşmuşdur.**

Qərbi Azərbaycanda və ölkəmizdə fəal ictimai xadim, istehsalat rəhbəri Krasnoselo Rayon İcraiyyə Komitəsinin sədri, şair, yazıçı, araşdırmaçı kimi tanınmış Abbas Mazanov Vəfadağlı 1929-cu il martın 19-da Yeni Bəyazid qəzasının Cil kəndində anadan olmuşdur. Burada yeddiillik məktəbi bitirdikdən sonra ağır müharibə illərində yerli kolxozda əmək fəaliyyətinə başlamışdır. Çəkdiyi zəhmətlər 1941-1945-ci illərdə "Şərəfli əməyə görə" medalı ilə mükafatlandırılmışdır.

Torpaqdan çalışqanlıq və müdriklik dərsi almış Abbas Mazanov 1946-1949-ci illərdə Qazax Pedaqoji Texnikumunu fərqlənmə diplomu ilə bitirmiş, qonşu Pəmbək kənd orta məktəbində müəllim işləmişdir. Hərbi xidmətdən sonra 1952-1955-ci illərdə doğma kəndində müəllimlik etmişdir. 1955–1958-ci illərdə Göyçədə azərbaycanlıların üstünlük təşkil etdiyi Krasnoselo Komsomol Komitəsinin katibi olmuşdur. O, gənc təşkilatçı kimi ali siyasi təhsil almağa göndərilmiş, 1958–1962-ci illərdə Bakı Ali Partiya məktəbində oxumuşdur.



Sonrakı illərdə Abbas Mazanov doğma 13 il doğma kəndində kolxoz sədri, 8 il Krasnoselo Rayon İcraiyyə Komitəsinin sədri, soydaşlarımız vəhşiliklə Göyçədən qovulanadək Cil kəndindəki sovxozda direktor işləmişdir. 1988-ci ildə ellikcə Göygöl rayonunun Şəhriyar kəndində məskunlaşdıqdan sonra təcrübəli və nüfuzlu rəhbər işçi kimi Abbas Mazanov el-obasının adamlarını başına toplayıb sonrakı 10 ildə burada kənd sovet sədri və sovxoz direktoru, Çaykənddə kolxoz sədri işləmiş, rayon Kənd Təsərrüfatı İdarəsində rəis müavini olmuşdur.

Gənclik illərindən yaradıcı Azərbaycan ziyalıları ilə yaxından dostluq etmiş, onlara Göyçədə bələdçilik etmiş Abbas müəllim daim milli-mədəni irsimizlə bağlı araşdırmalar aparmış, ədəbiyyat və incəsənətimizi təbliğ etmiş, özü də davamlı yaradıcılıqla məşğul olmuşdur. Onun "Arzular" adlı ilk şeiri 1965-ci ildə "Sovet Ermənistanı" qəzetində dərc olunmuş, sonrakı illərdə ardıcıl olaraq mətbuatda müxtəlif janrlı və aktual mövzulu yazılarla çıxış etmişdir. Abbas Mazanov ötən əsrin 60-cı illərindən Vəfadağlı imzası ilə tanınmışdır.

Soydaşımızın "Göyçə kimi intizarda elim var", "Gözləri həsrətli, naləli Göyçə", "Ulu Göyçəm" kitablarında, "Göyçə qətliamı", "Ustad", "Aşıq Alı sorağında", "Göyçəli Abbas Vəfadağlının doğum gününə" kimi araşadırmalarında Göyçə həsrəti, onun mənəvi dəyərləri geniş əksini tapmış, ulu yurda qayıdışa inam ifadə olunmuşdur.

Yurdsevər soydaşımız ailəsində 8 övlad böyütmüş, onlara milli tərbiyə vermiş, ali təhsil alıb xalqımıza layiqincə xidmət etmələrində yardımçı olmuşdur. Oğlu İlham Mazanov atasının yaradıcılıq təmayülünü inkişaf etdirərək ali jurnalist təhsili almış, media sahəsində fəlsəfə doktoru kimi məzunu olduğu Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dosenti olmuşdu.

Gözəl insan, tanınmış el ağsaqqalı, dövlətçilik və milli birlik ideyalarına möhkəm bağlı olmuş Abbas Mazanovun işıqlı xatirəsi onu tanıyan çoxsaylı insanların qəlbində daim yaşayacaqdır.

***Tahir AYDINOĞLU,***
***Əməkdar jurnalist***

*Novruz marafonu*

# Torpaq çərşənbəsi: qutsallığın xalq fəlsəfəsi






**Azərbaycan xalqının mövsüm mərasimləri sırasında çərşənbələr etnosun inam və etiqadlarını, dünyagörüşünü, zəngin mədəniyyət təsəvvürlərini əks etdirmək baxımından müstəsna əhəmiyyət daşıyır. Torpaq çərşənbəsi ilə bağlı təsəvvürlər torpaq, onun müqəddəsliyi və həyat üçün müstəsna funksiya daşıması xüsusiyyəti ilə spesifikləşir.**

Novruz bütün parametrləri və etnokulturoloji sistemi əhatələmək məramı ilə geniş mahiyyətli düşüncə hadisəsidir. Çərşənbələrdə özünün ifadəsini tapan ən incə elementlərdən əsaslı və üst səviyyədə görünən epizodlara qədər hamısı etnosun dünyagörüşünü, mədəniyyət zənginliyini, münasibətlərini, həyati bilgilərini əhatələyir. Etnoqraflar, folklorşünaslar, filosoflar və s. elm sahələri zaman-zaman çərşənbələr timsalında söylənilənlərə, əfsanə, rəvayət, məsəl, etnoqrafik əhvalat (bilgi) səviyyəsində deyilənlərə həssaslıq göstərmiş və onun mahiyyətində olanları açmağa çalışmışlar.



Səmavi kitablarda ("Quran", "İncil", "Tövrat", "Zəbur"), eləcə də dünyanın görkəmli filosoflarının əsərlərində (Platon, Demokrit, Sokrat, Aristotel, Hegel və b.), xalq inamlarında dünyanın yaranışı ilə əlaqədar bir-birinə yaxın və fərqli mülahizələr özünə yer almışdır. "Avesta"da, Zərdüştün söylədiklərində olanlar ayrıca bir hissədir. Bunların hamısı başlanğıc miqyasında təsəvvürləri aydınlaşdırmaq düşüncəsinə köklənmək məramı ilə nəzər-diqqəti cəlb edir. Əl-Biruninin "Ötən günlərin abidələri"ndə, Nizamülmülkün "Siyasətnamə"sində və sonrakı dövrün yazılı abidələrində olan epizodlar dünyanın yaranışında dörd ünsürün mahiyyətini açmağa yönəlik məsələlər kimi mühüm aktuallıq kəsb edir.

Torpaq çərşənbəsi adı ilə vurğulanan mərasimin bütünlükdə mahiyyəti adın ehtiva etdiyi təsəvvürü sərgiləyir. Xalqın zəngin folklor yaddaşı, mif, əfsanə, rəvayət, atalar sözü, məsəl, mərasim folkloru və s. bütün tərəfləri ilə torpağa bağlılığı prinsipləşdirir. Türk, eləcə də Şərq xalqlarının keçirdiyi mərasimlər sırasında təqdir etdiyi ən birinci yerdə dayanan Novruz və novruzqabağı mərasimlərdir.

"Torpaq çərşənbəsi", "Yer çərşənbəsi" adı ilə dillərdə əzbər olan bu mərasim etnosun torpağa, yerə bağlılığını və təsəvvürlərini əhatələməklə həm də müqəddəsləşdirilməsini əsasa çevirir. Havaya hava, suya hava, torpağa hava enməsi timsalında olanlar İlahi nizamın qutsallığını bir etnopotensiya olaraq ötürmək funksiyasında görünür. Torpağın oyanışını ulu əcdadlarımız ən şən, ən şux mərasimlər, nəğmələr, ayinlər ilə qarşılamışlar.

Bunlar, bütünlükdə, yazın, baharın gəlişinə olan inamlar aspektində hazırlığı, növbəti ilin barlı-bərəkətli, xeyirli keçməsi üçün olan qarşılanması, həm də arzunun ifadəsidir. Novruz mərasimlərində yumurta boyadılması xüsusi yer tuturdu. Elat söyləmələrinə görə buradakı yaşıl yazı halda ağ qışı, qırmızı yayı, sarı payızı işarələyir.

Torpaq çərşənbəsinin etnoqrafik, ictimai, fəlsəfi, bədii-estetik dərki inam və etiqadlardan mərasimlərə qədər əhatəli bir mənzərəni canlandırır. Atalar sözü, məsəl, tapmaca, əsatir, əfsanə və s. timsalında olan söyləmələr xalq düşüncəsində torpağa olan bağlantını və mərasim baxımından torpaq çərşənbəsində ümumiləşmənin çox dərin qatlarını nümayiş etdirir.

Xalq inamlarına görə torpağın "öldür məni, dirildim səni" deməsi təsadüfi deyildir. Saysız-hesabsız söyləmələr məhz torpağa pənah gətirmənin ilkin başlanğıcdan günümüzə qədərki mənzərəsini əks etdirir. "Torpaq qızılquşdur, əldən buraxdın uçar gedər", "torpaqla əlləşən xoşbəxtliklə rastlaşar", "torpaq əkinçinin zəhmətilə zinətlənir", "torpağa var versən o da sənə bar verər", "torpaq ovuclayan qızıl ovuclar", "torpağın sirrini əli torpaqda olan bilər" və s. deyimlər insanların təsəvvürünün və gəldiyi nəticələrin bir örnəyi olaraq yaddaşlarda işləklik qazanmışdır.

Torpaq çərşənbəsi torpaqla bağlı bütün təsəvvürləri ümumiləşdirmək xüsusiyyəti ilə daha təfərrüatlı məzmun kəsb edir, su, od, yel çərşənbələrdə olan qutsallıqları bir növ özündə əks etdirmək məramı ilə daha maraqlı məzmun daşıyır. Xalq arasında torpaqla, torpaq çərşənbəsi ilə əlaqədar çoxlu əhvalatlar yer alır.

Torpaq çərşənbəsi xalqımızın torpaq haqqında təsəvvürlərini, istək və arzularını, həyata baxışını, inam və etiqadlar müstəvisində zənginliyini diqqətə çatdırır. Həyatın nizamını və cövhərini təşkil edən ünsürlər sırasında torpağın oynadığı rol müxtəlif aspektlərdə ədəbiyyatın şifahi və yazılı qolunu izləmişdir. Əmək nəğmələri, şum mərasimləri, region folklorunda özünü göstərən söyləmələr torpağa məhəbbətin ifadəsi olaraq "ana torpaq" anlamında bir müqəddəsliyi, ülviliyi və başlanğıcı özündə işarələyir.

Novruzun çeşidli komponentləri sırasında hər bir epizodun spesifiklik sərgiləyən və etnosun kulturoloji təsəvvürlərini əhatələyən mənzərəsi var. Çərşənbələr yazın gəlişinə hazırlığın bir hissəsi kimi ciddi önəm kəsb edir. Torpaq çərşənbəsi zamanı keçirilən rituallar, şum mərasimləri və oxunan şərqilər türk xalqlarının yaddaşında qəlibləşmişdir.

Qədim zamanlardan günümüzə qədər çərşənbələrin sərgilədiyi təsəvvür yazı xoş, gülərüz və uğurla qarşılamaq düşüncəsi onun xeyirli olacağının göstəricisi kimi anlaşılmışdır. Torpaq çərşənbəsindəki görülən bütün işlər, oxunan nəğmələr və s. hamısı təbiətlə intuitiv bağlantılarda onu özününküləşdirməyə və uğurlu həyat nizamına yardımçı olmağa köklənmişdir. Bütün bunlar Novruz bayramına gələn yolun zənginliyinin göstəricisi hesab edilir.

***Səhər HİDAYƏT QIZI ORUCOVA,***
***filologiya elmləri doktoru, professor***

*Gəlimli-gedimli dünya*

# Türk dünyasının ortaq Ortaylısı

**Türk dünyasının elmi üfüqlərini aydınladan parlaq şəxsiyyət, görkəmli tarixçi alim İlbər Ortaylı martın 13-də, 78 yaşında dünyasını dəyişdi. Onun əbədiyyətə qovuşması elm və mədəniyyət aləmində böyük bir boşluq yaratsa da, getdiyi yol, özündən sonra miras qoyduğu tükənməz irs qədirbilən insanların yaddaşında həmişə hörmət və ehtiramla xatırlanacaq. Bu böyük şəxsiyyəti tanımaq, onun zəngin təfəkkür dünyasından bəhrələnmək həmişə gərəkli olacaq.**



Deyirlər, alimin ölümü aləmin ölümüdür. Bəzi şəxsiyyətlər var ki, millətin yaddaşında ölümsüzləşir. 1947-ci ildə Avstriyanın kiçik bir qəsəbəsində, Breqenzdə dünyaya göz açan İlbər Ortaylının bioqrafiyası müharibənin ağır nəticələri çevrəsində başlayan, lakin maarifçilik işığında yaşanan bir ömrün parlaq təcəssümü idi.

O, Krım tatarı əsilli ailənin övladı idi. Ailəsi sovet zülmündən qaçıb Avropaya, oradan da Türkiyəyə pənah gətirmişdi. Belə ki, anası Şəfiqə xanım kommunist rejiminin Krımı yenidən ələ keçirməsindən sonra, ailə üzvləri ilə birlikdə 1944-cü ilin mayında Rumıniya və Polşa vasitəsilə Avstriyaya köçmüş, müharibənin sonrakı dövrünü qaçqın düşərgələrində ağır şəraitdə keçirmişdi. Həmin illərdə də Breqenz yaxınlığındakı Ortay kəndindən olan Kamal Ortaylı ilə ailə qurmuşdu.

Bu səbəbdən İlbər Ortaylı mühacirətin ağır yükünü hələ uşaq ikən çiyinlərində daşıyanlardan idi, lakin bu əzab-əziyyət onun daxilində zamanın sınaqlarında möhkəmlənən müdriklik formalaşdırmışdı. Evlərində rus, alman və türk dillərində sərbəst danışırdılar. Anası Şəfiqə xanım oğlunun dil öyrənməyə olan həvəsini vaxtında duymuş və onu klassik əsərlərlə, müxtəlif dillərin sehri və dünya musiqisinin bənzərsiz ahəngilə tanış etmişdi.

Görkəmli alim sonralar müsahibələrinin birində demişdi: *"Gəncliyimdə heç türk musiqisi sevməz və anlamazdım. Həmişə Avropa musiqisi dinləyərdim. 1967-ci ildə Azərbaycandan gələn bir heyət mənə musiqi albomu hədiyyə etmişdi. Həmin vaxt Azərbaycan musiqisini tanıdım və çox sevdim, beləcə də, o yoldan türk musiqisi ilə tanış oldum".*

Hələ məktəb illərindən alman şair-dramaturqu Yohann Volfqanq Geteni orijinal variantından oxuyur, dahi rus yazıçısı və filosofu Lev Tolstoyun fəlsəfəsini dərindən dərk edirdi. İstanbulda Qalatasaray Liseyində başladığı orta təhsilini Ankara Atatürk Liseyində tamamlamışdı. Ardınca isə Ankara Universitetinin Siyasi Bilgilər fakültəsinə qəbul olaraq ömrünün ən mühüm elmi səyahətinə başlamış, alman, rus, ingilis, fransız, italyan, fars dillərində danışmağı öyrənmişdi.

Vyana Universitetində Slavyan və Şərqi Avropa dilləri üzrə təhsil almış, daha sonra isə Çikaqo Universitetində məşhur tarixçi Xəlil İnalcıkın tələbəsi olmuşdu, yəni akademik yolunun təməlini dünyanın ən böyük tarixçilərindən biri ilə çiyin-çiynə çalışaraq qoymuşdu. Ancaq həyatın bəzən ən parlaq zəkalara qarşı göstərdiyi o amansız sərtlik gənc alimin də qapısını döyməkdə gecikməmişdi. Biliklə yoğrulmuş bu böyük iddia, elmin uca zirvələrindən gəlib bürokratik maneələrin soyuq divarına çırpılmış, Ortaylının İstanbul Universitetində elmi işi rədd edilmişdi.

Nəticədə, İlbər Ortaylı istefa vermiş və illərlə universitetlərdən incikli qalmışdı. Bu dövrdə o, Vyana, Berlin, Paris, Moskva, Roma, Münxen, Strasburq, Sofiya, Kiyev, Kembric, Oksford və Tunis universitetlərində qonaq müəllim kimi fəaliyyət göstərmiş, konfranslar aparmış, minlərlə gəncin tarixi biliklərini zənginləşdirmiş və onların tədqiqat maraqlarını formalaşdırmışdı.

Gənc İlbər televiziya kanallarında tarixi mövzularda bir neçə sənədli və maarifləndirici proqramların aparıcısı olmuşdu. "Milliyət" qəzetində, "Atlas tarix" və "Doğu-Batı" jurnallarında müntəzəm məqalələr yazmışdı. Öz kitabxanasında 30 min kitabı olan alim bunların 5 minini Qalatasaray Universitetinə bağışlamışdı.

İlbər Ortaylının elmi və publisistik fəaliyyəti, tarix elminin populyarlaşdırılması və beynəlxalq sahədə türk tarixşünaslığında rolu nəzərə alınaraq 2001-ci ildə "Aydın Doğan" mükafatına layiq görülmüşdür. 2006-cı ildə İtaliyanın Latsio bölgəsi tərəfindən "Aralıq dənizi" festivalında sosial və vətəndaş tarixi sahəsində mükafat almış, 2007-ci ildə isə Rusiya Prezidenti Vladimir Putin tərəfindən rus dili və mədəni irsinin təşviqi səbəbilə "Puşkin medalı" ilə təltif edilmişdi.

1989-cu ildə Türkiyəyə qayıdan alim professor elmi dərəcəsi almış və 1989–2002-ci illər ərzində Ankara Universitetinin siyasi elmlər fakültəsində inzibati tarix kafedrasının müdiri vəzifəsində çalışmışdı. Onun XVI–XIX əsrlər Osmanlı və rus tarixi ilə bağlı tədqiqatları yerli və xarici elmi jurnallarda dərc olunmuş, akademik ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.

İllər sonra Qalatasaray və Bilkənd universitetlərində dərs deməyə başladı, Topqapı Sarayı Muzeyinin rəhbəri oldu. "Osmanlıdan Cümhuriyyətə keçidi anlamayan bir cəmiyyət özünü anlaya bilməz" deyərkən İlbər Ortaylı unudulmuş tarixi faktları, itmiş mənəvi və mədəni əlaqələri işıqlandırmaq istəyirdi. Hər sözü bir xəbərdarlıq, hər araşdırması bir çağırış idi. O düşünürdü ki, keçmişi anlamadan gələcəyi qurmaq mümkün deyil. Çıxışlarından birində də bu fikrinə aydınlıq gətirmişdi. Demişdi ki, tarixi bilməliyik, amma keçmişin kinini saxlamaq üçün yox, gələcəyi daha yaxşı qurmaq üçün.

İlbər Ortaylı intellekt ümmanı idi. Keçmişi xalqın milli kimliyi olaraq izah edirdi. Danışdığı, paylaşdığı bilgilər tarixə başqa gözlə baxmağı öyrədirdi. Tarix onun üçün gələcəyi anlamağın açarı idi. O, prinsipial mövqeyi ilə neçə-neçə nəslin düşüncə tərzinə təsir göstərən nadir alimlərdən, gerçək bir Azərbaycan sevdalılarından idi. Bu sevginin təməlində isə həm elmi həqiqətlər, həm də ailəsindən miras qalan ulu türkçülük ruhu dayanırdı.

Bu bağlılığın ən birinci səbəbi onun Krım tatarı köklərindən olması idi. İlbər Ortaylı Azərbaycanı Türk dünyasının intellektual mərkəzi, modernləşmənin ilk ocağı adlandırırdı. O, hər zaman vurğulayırdı ki, Türk dünyasında teatrın, operanın və müasir mətbuatın təməli məhz Azərbaycanda qoyulub. Onun nəzərində Azərbaycan Qərblə Şərq ənənələrini özündə ən zərif şəkildə birləşdirən, Mirzə Fətəli Axundzadə, Üzeyir Hacıbəyli kimi dühalar yetişdirən dövlət idi.

Digər tərəfdən, bu sevgi həm də ortaq taleyin gətirdiyi təəssübkeşlikdir. İlbər Ortaylı 1918-ci ilin qəhrəmanlığını, Qafqaz İslam Ordusunun Bakını xilas etməsini bir tarixçi soyuqqanlılığı ilə deyil, bir türk övladının qüruru ilə izah edirdi. O, Azərbaycanın yaşadığı ağrıları, itkiləri və o çətin mübarizə illərindən daim qürurla bəhs edərdi. Müsahibələrinin birində vurğulamışdı ki, bir xalqın öz kimliyini qorumasının yeganə yolu dilini qorumasıdır. Ölkəmizi də buna ən gözəl nümunə kimi göstərmişdi.

Deyərdi ki, Azərbaycanda yaşayan xalqa "azəri" demək böyük cəhalətdir. "Azəri" sözü əsla bu xalqa aid və onun keyfiyyətlərini ifadə edən etnik termin deyil. Bu sözün meydana gəlişi, əslində, 1905-ci ildə İranda baş verən inqilab zamanına təsadüf edir. Azəri tayfaları Xəzər dənizinin İrana düşən hissəsində, dənizkənarı ərazidə yaşayan, təxminən, 200-300 min nəfərdən ibarət bir etnik qrupa daxildir. Danışıqlarının azərbaycanlıların dili ilə əlaqəsi yoxdur. Onlar qədim Sasanilərin işlətdiyi pəhləvi dilində danışır.

"Həyat çox qısadır. Əhəmiyyətli olan isə müddətini təyin edə bilməyəcəyimiz bir ömrü səmərəli keçirməkdir", – deyən alim anlatmaq istəyirdi ki, insanın əməlləri və düşüncələri sərhədləri aşmaq gücünə malikdir. Ömür kəmiyyət deyil, mahiyyət məsələsidir. Bizə nə qədər vaxt verildiyini seçmək ixtiyarımızda olmasa da, o vaxtı hansı ideallar uğrunda xərcləyəcəyimiz tamamilə öz əlimizdədir.

Tanınmış tarixçi və akademik İlbər Ortaylı dünən İstanbulda son mənzilə yola salındı, Fateh Məscidinin həyətində yerləşən qəbiristanlıqda dəfn olundu. Qeyd edək ki, Fateh Sultan Mehmetin türbəsi ilə yanaşı, Osmanlı tarixinin bir çox əhəmiyyətli adamlarının - Fatehin həyat yoldaşı və II Bəyazidin anası I Gülbahar Xatunun, Qazi Osman Paşanın və məsnəvi Abidin Paşanın türbələri də bu məscid məzarlığındadır.

***F.ƏLİYEVA***
***XQ***

*Seyran Səxavət – 80*

# Səxavətli sözün solmaz təravəti



**Onun Füzuli rayonunun Yağlıvənd kəndində başlanan həyat yolunda çoxlu dayanacaqlar olsa da, Xəzərin sahilində – Bakıda atdığı "lövbər" yarım əsrdən artıqdır ki, Seyran Səxavətin adını səxavətlə ucaldır. Hələ yeniyetmə ikən rayon qəzetində "İki arzu", Azərbaycan Dövlət Universitetinin (indiki BDU) şərqşünaslıq fakültəsində oxuyarkən isə "Mən səni sevirəm" şeiri ilə diqqətçəkən müəllifin ilk 2 kitabı da onun özünəməxsus poetik nümunələrindən ibarət olub.**

Sonra nəsr və dramaturgiyada qələmini sınayan Seyran Səxavət çap etdirdiyi 15 kitabı ilə oxucu ürəklərini fəth edə bilib. "Daş evlər", "Nekroloq", "Palıd toxumu", "Yəhudi əlifbası", "Qaçhaqaç" kimi romanları, çoxsaylı povest və hekayələri tanınmış imzaya daha çox şöhrət gətirib. Demək olar ki, bütün əsərləri zamanın, mövcud gerçəkliyin, cəmiyyətdə baş verən ictimai-siyasi hadisələrin, mənəvi münasibətlərin bədii əksi baxımından son dərəcə uğurludur.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında Seyran Səxavətin 80 illiyi münasibətilə oxucularla görüşündə bütün bunlar barədə ətraflı danışıldı. Əməkdar elm xadimi, ədəbiyyatşünas Qəzənfər Paşayev yazıçının yaradıcılığını hərtərəfli incələdi, onun söz sənətinə ömürlük sədaqət göstərdiyini söylədi. Xalq şairi Sabir Rüstəmxanlı qələm dostu ilə bağlı duyğu dolu gənclik xatirələrini dilə gətirdi, onun poetikasını, nəsr və dramaturgiyasını layiqincə dəyərləndirdi. 30 illik Qarabağ həsrətini, yurd ağrısını ürəyinin qanı ilə yazan, bu günsə əzəli torpaqlarımızın azadlıq sevincini yaşayan Seyran Səxavətə bundan sonra da nikbin ruhda qalmağı, dadlı-duzlu yumorları ilə ətrafını sevindirməyi arzuladı.

Mərkəzi Elmi Kitabxananın direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Mehman Həsənli, tanınmış filoloq-alim Nərgiz Cabbarlı, tarix üzrə fəlsəfə doktoru Oruc Quliyev və başqaları yubilyarın əsərləri ilə bağlı özəltəəssüratlarını bölüşdülər, onun ədəbi dil gözəlliyi və koloriti, xalq ruhunun ifadəçisi kimi üstün keyfiyyətlərindən bəhs etdilər və yazıçıya yeni uğurlar dilədilər.

Sonda Seyran Səxavət görüşün bütün iştirakçılarına minnətdarlığını bildirdi. O, mənsub olduğu ədəbi nəsillə qürur duyduğunu və daim bu nəslin ənənələrini yaşatmağa çalışdığını söylədi. Gənclərin çoxsaylı suallarını cavablandıraraq onlara dəyərli tövsiyələr verdi. Yubilyar yazıçı bundan sonra da böyük sözün keşiyində layiqincə durmaq əzmində olduğunu bildirdi.

***Ə.DOSTƏLİ***
***XQ***

# Ağdamda qayıdış marafonu davam edir



## *Dirçəliş növbəsi Eyvazxanbəyli və Baş Qərvənd xarabalıqlarına çatıb*

**Erməni vandalların dağıdıb xarabalığa çevirdiyi Ağdam şəhəri kimi, rayonun işğaldan azad edilmiş kəndlərində də mərhələli şəkildə genişmiqyaslı tikinti layihələri həyata keçirilir. Prezident İlham Əliyevin təməllərini qoyduğu yaşayış məntəqələrində torpaqdan sürətlə boy atan evlər kəndləri yeni simasına qovuşdurmaqla yanaşı, ağdamlıların da geriyə, öz ata-baba yurdlarına qayıdacaqlarına inamlarını artırır.**



Tezliklə Böyük Qayıdışın növbəti ünvanlarına çevrilmiş Ağdam şəhəri, Xıdırlı, Kəngərli, Sarıcalı kəndlərinin sırasına Eyvazxanbəyli və Baş Qərvənd də qoşulacaq. Bu günlərdə rayona səfərimiz zamanı sözügedən kəndlərdə olduq, tikintinin real vəziyyəti ilə maraqlandıq. Neçə gündür davam edən yağıntıların yaratdığı çətinliklərə baxmayaraq, Eyvazxanbəylidə qızğın iş gedirdi. Yolboyu sağda və soldakı evlərdə mütəxəssislərin, ustaların və fəhlələrin həvəslə işlədiklərinin şahidi olduq. Nəhəng tikinti meydanında hərəkət edən müxtəlif texnikaların səsi illərlə sükuta qərq olmuş kənddə zəfər marşı kimi səslənirdi.

**Eyvazxanbəylinin yenidən qurulması layihəsini icra edən "SEA BREEZE CONSTRUCTION" şirkətinin nümayəndəsi Akif Səmədovla həmsöhbət olduq. Bildirdi ki, 99 faiz evlərin yeraltı tikintisi yekunlaşıb və hazırda üst hissələrdə iş gedir:**

– Hamı böyük coşqu və məsuliyyətlə çalışır, işçi problemimiz yoxdur. Məqsədimiz layihə üzrə tikintinin vaxtında başa çatdırılmasına nail olmaqdır. Texnika və material təminatı sarıdan heç bir çətinliyin olmaması üçün vaxtlı-vaxtında zəruri addımlar atıldığından iş də sürətlə gedir. Hazırda qrafiki qabaqlayırıq.

Tikinti ərazisinin fasiləsiz elektrik enerjisi ilə təmin olunduğunu deyən Akif Səmədov əlavə etdi ki, burada çalışanların əksəriyyəti ağdamlılar və yaxın rayonlardan olanlardır.

Evlərdən birinə baş çəkib ustalarla da görüşdük. Ağdamın Novruzlu kəndindən



keçmiş məcburi köçkün Camal Camalov, Yusifcanlı sakini Rəşad İsmayılov gördükləri işlə fəxr etdiklərini bildirdilər. Çünki Ağdamı görmək, bu yerlərə qayıtmaq bir vaxtlar hər bir ağdamlının ən böyük arzusu olduğu kimi, rayonun tikintisində iştirak etmək, bu böyük quruculuqda iz sahibi olmaq da son dərəcə qürurvericidir. Ustalar burada onlar üçün bütün zəruri şəraitin yaradıldığından razılıqla bəhs etdilər.

Böyük Qayıdış proqramı çərçivəsində yenidən qurulan Eyvazxanbəyli kəndində həyata keçirilməsi planlaşdırılan layihə mərhələli şəkildə icra olunur. Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarətmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən aldığımız məlumata görə, birinci mərhələ üzrə kənddə ümumilikdə 427 fərdi yaşayış evinin inşası nəzərdə tutulub və hazırda tikinti-quraşdırma işlərinin 17 faizi yekunlaşıb. Evlər 1, 2, 3, 4 və 5 otaqlı olmaqla, müxtəlif quruluşda və ölçülərdə tikilir.

Layihə üzrə kənddaxili yolların ümumi uzunluğu 13,9 km təşkil edir. Sosial obyektlərin tikintisi də layihənin əsas tərkib hissəsidir. Kənddə 720 şagird yerlik tam orta məktəbin inşası planlaşdırılır ki, bunun 360 yerlik hissəsi birinci mərhələdə tikiləcək. Bundan əlavə, 120 yerlik uşaq bağçasının, ailə sağlamlıq mərkəzinin və inzibati binanın inşası da nəzərdə tutulub. Ümumilikdə, Eyvazxanbəylidə həyata keçirilən layihələr gələcəkdə müasir infrastruktura malik, rahat və təhlükəsiz yaşayış məntəqəsinin formalaşdırılmasına xidmət edəcək.

Ağdamın yenidən qurulan Baş Qərvənd kəndində də tikintinin gedişi ilə maraqlandıq. IMA Energy şirkətinin layihə rəhbəri Münasib Rəhimov ümumillikdə 92 evdə sıfır səviyyəsindən yuxarı işlərin davam etdiyini, layihənin vaxtında icrası üçün lazımi addımların atıldığını bildirdi.

Qeyd edək ki, təməli 24 dekabr 2023-cü ildə dövlət başçısı tərəfindən qoyulmuş Baş Qərvənd kəndinin layihəsi ümumilikdə 476 hektardan çox ərazini əhatə edir və burada 1245 fərdi yaşayış evi tikiləcək. Birinci mərhələdə 202 hektar ərazidə ölçüləri 2 otaqlıdan 5 otaqlıya qədər olan 851 fərdi ev inşa edilir. Kənddə yalnız evlər deyil, sosial infrastruktur da yaradılacaq, inzibati bina, tibb məntəqəsi, 840 şagird yerlik ikimərtəbəli məktəb, 120 və 100 yerlik iki uşaq bağçası istifadəyə veriləcək.

Yol infrastrukturuna gəldikdə isə daxili yolların ümumi uzunluğu 56 kilometrdən çoxdur, bunun 43 kilometri birinci mərhələdə çəkiləcək. Əlavə olaraq, kənddə mühəndis-kommunikasiya şəbəkələri, səkilər və geniş yaşıllıq zonaları da yaradılacaq.

Cari il ərzində kəndə ilk köçün baş tutması gözlənilir. Yəni 2026-cı il daha neçə-neçə ağdamlının Vətən həsrətinin başa çatdığı, məcburi köçkünlük həyatının bitdiyi və həmişəlik doğma yurda qayıdışı ili olacaq.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Ağdam**

# Qlaukomatoloqların konfransı



**Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində Beynəlxalq "Qlaukoma həftəsi" çərçivəsində Azərbaycan Qlaukomatoloqlarının VII elmi-praktik konfransı keçirilib. Elmi toplantıda Azərbaycanla yanaşı, Türkiyə, Hindistan, İsveçrə, Böyük Britaniya, Sinqapur və Rusiyadan olan mütəxəssislər, 220 həkim, gənc oftalmoloq iştirak edib.**

Konfransın açılışında bildirilib ki, elmi-praktik məclisin keçirilməsində məqsəd qlaukoma xəstəliyinin müasir diaqnostika və müalicə üsullarının müzakirəsi, bu sahədə əldə olunan son elmi nailiyyətlərin paylaşılması, həmçinin müxtəlif ölkələrdən olan mütəxəssislər arasında elmi və praktiki təcrübə mübadiləsinin aparılmasıdır. Çıxışlarda qeyd olunub ki, dünyada 80 milyondan çox insan qlaukomadan əziyyət çəkir. Korluğa səbəb olan bir sıra göz xəstəlikləri içərisində qlaukoma 2-ci yerdə gəlir.

Konfrans tibb elmləri doktorları Nizami Bağırov, Hicran Namazova, professor Ümit Ekşioğlu, tibb üzrə fəlsəfə doktoru Aybəniz Əhmədovanın moderatorluğu ilə davam edib, qlaukoma sahəsində aktual mövzulara həsr olunmuş məruzələr dinlənilib. Bəzi oftalmoloqlar məclisə onlayn formatda qoşulublar.

"Qlaukomada yeniliklər", "Fərqli yaş qruplarında göz daxili təzyiqin yüksəlməsinin mümkün səbəblərinin müəyyən edilməsi", "Süni intellekt və qlaukoma", "Refraktiv cərrahi əməliyyatlardan sonrakı qlaukoma", "Vitrektomizə olunmuş pasiyentlərdə pars plana Baerveldt şuntunun implantasiyası: cərrahi nüanslar", "PRK, LASİK və Femto-LASİK əməliyyatlarından sonra steroid mənşəli oftalmohipertenziya", "Pars plana vitrektomiyadan sonra müxtəlif növ tamponadalar zamanı torlu qişanın qanqlioz hüceyrə layı qalınlığının dəyişikliklərinin dinamikası" və digər mövzularda məruzələr maraqla qaşılanıb.

Qlaukomanın erkən diaqnostikası, müasir müalicə metodları, yeni texnologiyaların tətbiqi və oftalmologiya sahəsində innovativ yanaşmalar geniş müzakirə olunub. Bildirilib ki, konfrans oftalmologiya sahəsində çalışan mütəxəssislər üçün yeni elmi biliklərin əldə edilməsi, müasir tibbi texnologiyalarla tanışlıq və beynəlxalq əməkdaşlığın inkişafı baxımından mühüm platforma rolunu oynayacaq.

*Zərifə HÜSEYNOVA*
*XQ*

# "Nort Vest Konstrakşn" MMC-nin 31 dekabr 2024-cü il üçün maliyyə vəziyyəti haqqında hesabatı

manatla

| | 2024 | 2024 | 2023 | 2023 |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Torpaq, tikili və avadanlıqlar | 72,448,344 | | 40,154,105 | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **72,448,344** | | **40,154,105** |
| Ehtiyatlar | 19,457,406 | | 13,535,614 | |
| Qısamüddətli debitor borcları | 79,364,331 | | 25,671,817 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 15,323,027 | | 6,290,833 | |
| Sair qısamüddətli maliyyə aktivləri | - | | 47,545,754 | |
| Sair qısamüddətli aktivlər | 54,628,155 | | 35,848,101 | |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **168,772,919** | | **128,892,119** |
| **CƏMİ AKTİVLƏR** | | **241,221,263** | | **169,046,224** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 140,002 | | 140,002 | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 43,930,534 | | 43,350,504 | |
| **CƏMİ KAPİTAL** | | **44,070,536** | | **43,490,506** |
| Uzunmüddətli kreditor borcları | 121,573,501 | | 23,089,688 | |
| Sair uzunmüddətli öhdəlikər | | | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **121,573,501** | | **23,089,688** |
| Qısamüddətli öhdəliklər | | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | - | | 7,762,025 | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | - | | 15,057,593 | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 5,691,393 | | 610,844 | |
| Qısamüddətli kreditor borcları | 33,559,514 | | 55,210,393 | |
| Sair qısa müddətli öhdəlikər | 36,326,319 | | 23,825,175 | |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **75,577,226** | | **102,466,030** |
| **CƏMİ ÖHDƏLİKƏR** | | **197,150,727** | | **125,555,718** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **241,221,263** | | **169,046,224** |

**Mənfəət və zərər haqqında hesabat**

| | **2024** | **2023** |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 406,596,876 | 415,988,341 |
| Müqavilə xərcləri və satışın maya dəyəri | (347,238,210) | (362,778,299) |
| **Ümumi gəlir** | **59,358,666** | **53,210,042** |
| **Şirkətin gəlirinin cəmi** | **59,358,666** | **53,210,042** |
| Ümumi və inzibati xərclər | (14,559,635) | (10,856,340) |
| **Cəmi xərclər** | (14,559,635) | (10,856,340) |
| **Əməliyyat fəaliyyətindən qazanc/( zərər)** | **44,799,031** | **42,353,702** |
| Maliyyə məsrəfləri (o cümlədən məzənnə dəyişikliyi) | (1,539,831) | (1,442,378) |
| **Mənfəət vergisi ödənilənə qədər mənfəət/zərər)** | **43,259,200** | **40,911,324** |
| Maliyyə mənfəəti və zərəri | **43,259,200** | **40,911,324** |
| Mənfəət vergisi məsrəfləri | (8,651,840) | (8,182,265) |
| Hesabat dövründə xalis mənfəət (zərər) | **34,607,360** | **32,729,059** |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | Kapital ehtiyatları | | | | |
|---|---|---|---|---|---|
| | Ödənilmiş aksioner kapitalı | Əlavə kapital | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
| Qalıq 01.01.2023 | **140,002** | | **(19,352,236)** | **34,862,571** | **15,650,337** |
| Hesabat dövründə (2023) | | | | 32,729,058 | 32,729,058 |
| Xarici əməliyyatlar üçün yenidən hesablanmış ehtiyatlar | (999) | | (4,253,920) | | (4,254,920) |
| Ödənilən dividendlər | | | | (-4,888,889) | (-4,888,889) |
| Qalıq 31.12.2023 | **140,002** | | **(19,352,236)** | **62,702,740** | **43,490,506** |
| Qalıq 01.01.2024 | **140,002** | | **(19,352,236)** | **62,702,740** | **43,490,506** |
| Hesabat dövründə (2024) | | | | 34,607,360 | 34,607,360 |
| Ödənilən dividendlər | | | | (-34,027,330) | (-34,027,330) |
| Qalıq 31.12.2024 | **140,002** | | **(19,352,236)** | **63,282,770** | **44,070,536** |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | *2024-cü ildə* | *2023-cü ildə* |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitləri** | | |
| **Əməliyyat fəaliyyətindən mənfəət (zərər)** | 34,607,360 | 32,729,058 |
| Amortizasiya ayırmaları | 16,222,349 | 15,485,479 |
| **Çıxılsın** (Üstəgəl) debitorların azalması (artması) | (-53,692,514) | 24,153,920 |
| **Üstəgəl** (Çıxılsın) gələcək dövrün xərcləri | (-15,057,593) | 1,389,320 |
| **Çıxılsın** (Üstəgəl) sair maddi aktivlərin azalması (artması) | (-32,092,363) | 11,433,431 |
| **Üstəgəl (Çıxılsın) kreditorların** artması (azalması) | (-21,650,879) | (-52,272,693) |
| **Üstəgəl** gələcək dövrün gəlirlərinin artması (azalması) | 60,858,063 | 29,726,881 |
| Çıxılsın (Üstəgəl) sair qısamüddətli aktivlər (Ehtiyatlar) | (-5,921,792) | 114,427,423 |
| Digər cari öhdəliklər | - | (-816,184) |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitləri** | **(-32,949,718)** | **160,771,156** |
| **Üstəgəl ödənilməmiş vergi (Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər)** | 5,080,549 | (-8,311,669) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(-27,869,169)** | **152,459,487** |
| Kapital dəyişiklikləri üzrə digər əməliyyatlar | (-34,027,330) | (-4,888,889) |
| **Çıxılsın tikilməkdə olan torpaq, tikili və avadanlıqların azalması** | | |
| Uzunmüddətli aktivin əldə olunması ilə bağlı pul vəsaitlərinin xaric olması (o cümlədən qeyri-maddi aktivlər) | (-32,294,239) | (-19,759,282) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(-66,321,569)** | **(-24,648,171)** |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti (İştirak payı metodu ilə uçota alınmış investisiyalar) | 0.00 | 0.00 |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | 12,501,144 | (-156,014,090) |
| Çıxılsın material şəklində alınmış borc məbləğləri | | |
| Borc şəklində alınmış məbləğlərin geri alınmasına görə pul vəsaitlərinin hərəkəti | 90,721,788 | 5,893,858 |
| **Maliyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | **103,222,932** | **(-150,120,232)** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin artması (azalması)** | **9,032,194** | **(-22,308,916)** |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin əvvəlinə | **6,290,833** | **28,599,749** |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin sonuna | **15,323,027** | **6,290,833** |

**"F.N. AUDİT SERVİCE LTD"**
**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**Rəy**

"Nort Vest Konstrakşn" MMC-nin rəhbərliyi və səhmdarlarına:

Biz, "Nort Vest Konstrakşn" MMC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında maliyyə hesabatından, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilmiş tarixə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli məsələlərinin qısa təsvirindən və digər izahedici materiallardan ibarət əlavə edilmiş maliyyə hesabatının auditini aparmışıq.

**Maliyyə hesabatlarının hazırlanmasına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik bu maliyyə hesabatının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmasına və ədalətli (düzgün) təqdimatına və daxili nəzarətin elə bir sisteminin təşkilinə görə məsuliyyət daşıyır ki, rəhbərliyin fikrincə, bu sistem dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərdən azad olan maliyyə hesabatlarının hazırlanması üçün zəruridir. İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər eyni zamanda şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Auditorun məsuliyyəti**

Bizim vəzifəmiz apardığımız audit əsasında bu maliyyə hesabatına dair rəy verməkdən ibarətdir. Biz auditi beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışıq. Həmin standartların tələbinə görə, biz etik normalara əməl etməli və auditi elə bir şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarının əhəmiyyətli təhriflərdən azad olduğuna dair ağlabatan əminlik əldə edək.

Hazırkı auditə maliyyə hesabatlarında təqdim edilmiş məbləğləri və açıqlamaları (məlumatları) təsdiqləyən audit sübutlarının əldə edilməsinə yönəlmiş prosedurların yerinə yetirilməsi daxildir. Prosedurların seçilməsi auditorun peşəkar mühakiməsinə, o cümlədən maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər riskinin qiymətləndirilməsinə əsaslanır. Həmin risk qiymətləndirmələrini apararkən auditor müəssisənin daxili nəzarətinin səmərəliliyinə dair rəy vermək məqsədilə deyil, konkret vəziyyətlərdə zəruri olan audit prosedurlarını işləyib hazırlamaq məqsədilə maliyyə hesabatlarının hazırlanması və ədalətli təqdimatı ilə bağlı daxili nəzarəti nəzərdən keçirir. Auditə, həmçinin, maliyyə hesabatının ümumi təqdimatının qiymətləndirilməsi kimi, istifadə edilmiş uçot siyasətinin məqsədəuyğunluğunun və rəhbərliyin apardığı uçot qiymətləndirmələrinin əsaslılığının qiymətləndirilməsi daxildir. Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsiretmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir. Hazırkı audit araşdırmasında göstərilən, şirkətdə hesabat ilinin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrini əks etdirən yekun mühasibat yazılışlarının rəqəmləri, şirkətin maliyyə-təsərrüfat fəaliyyətinə cavabdeh olan şəxslərinin auditora təqdim etdikləri maliyyə hesabatları (analitik və sintetik uçot üzrə) maliyyə məlumatları əsasında tərtib edilmişdir. Auditora təqdim olunmuş həmin sənədlərin düzgünlüyünə görə şirkətin maliyyə-təsərrüfat fəaliyyətinə cavabdeh olan şəxsləri bilavasitə tam məsuliyyət daşıyır.

Bizcə, əldə etdiyimiz audit sübutları şərti müsbət auditor rəyini əsaslandırmaq üçün yetərli və münasibdir.

**Şərti müsbət audit rəyi üçün əsaslar**

Biz şirkətin yoxlamasına 2025-ci ilin may ayından başladıq və bu səbəbdən ilin əvvəlində inventarizasiya apara bilmədik. Alternativ prosedurlarımızdan istifadə edərək, 31 dekabr 2024-cü il tarixinə resursların həcmi haqqında qənaətləndirici məlumat əldə etmək imkanımız yox idi. İlkin ehtiyatların maliyyə nəticələrində və xalis maliyyə axınlarında əks olunması səbəbindən il ərzində mənfəət və ya gəlir dəyişikliklərini müəyyənləşdirmək mümkün olmayıb.

**Şərti müsbət rəy**

Bizim fikrimizcə, şərti müsbət rəy üçün əsaslar paraqrafında təsfir edilmiş məsələnin təsiri istisna olmaqla, maliyyə hesabatları 2024-cü il dekabrın 31-nə "Nort Vest Konstrakşn" şirkətinin maliyyə vəziyyətini, habelə, onun maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq, əhəmiyyətli aspektlərdə əks etdirir (və ya 2024-cü il dekabrın 31-nə "Nort Vest Konstrakşn" şirkətinin maliyyə vəziyyəti, habelə, onun maliyyə nəticələri və pul vəsaitlərinin hərəkəti haqqında ədalətli təsəvvür yaradır).

**Bakı şəhəri, Azərbaycan Respublikası**
**Azərbaycan Respublikası Auditorlar**
**Palatasının üzvü olan, "F.N. Audit Servis" MMC-nin direktoru Fuad Əliyev**

*Milli dəyərlərimiz*

# Nənələrimizin çörək ətirli təndiri



**Min illər boyu nəsildən-nəslə keçən çörəkbişirməni Azərbaycanda el sənəti adlandırırlar. Odur ki, 2024-cü ildə Azərbaycanın təndirçilik sənəti və çörəkbişirmə üsulu BMT-nin Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan UNESCO-nun qeyri-maddi irs siyahısına salınıb.**

Gündəlik qida rasionumuzda xüsusi çəkiyə malik olan çörəyi ən müqəddəs nemət sayaraq, onu Quranla bərabər tuturuq. Həmişə dar məqamlarda "çörək haqqı", - deyə bu müqəddəs nemətə and içir, Tanrıdan çörəklə imtahana çəkilməməyimizi diləyir, ən hörmətli qonağımızı duz-çörəklə qarşılayırıq. Azərbaycan mədəniyyətində təndir çörəyi sadəcə qida deyil, həm də bərəkət, isti ocaq və ailə birliyinin rəmzidir.

Hərdən oturub sakitcə xəyallara dalıram. Bu xəyalları məni bir anlığa paytaxtdan 200 kilometrlik məsafədə yerləşən kəndimizə aparır. Ötən günlər, illər, acılı-şirinli uşaqlıq çağlarım yaddaşımı sanki yeniləyir. Ən çox təndir çörəyinin ətri yada düşür. Sübh tezdən kündə tutan, çörək yapan qonşularımızın səs-küylü şirin söhbətlərini xatırladıqca, üzümə kövrək təbəssüm qonur. O vaxtlar qonşuların da mehribanlığı bir başqa idi. Bir-birinin sevincini də, kədərini də birgə bölüşərdilər. Bu mehribanlıq həm də uşaqların tərbiyəsinə müsbət təsir göstərirdi. Uşaqlar böyüklərin davranışından nümunə götürür, paylaşmağı, hörmət etməyi öyrənirdilər. Kimin evində şad gün varsa, qonşular sevinci paylaşır, çətin günlərdə isə bir-birinə dayaq olurdular.

Üzünə yumurta yaxılmış xəmir kündələr təndirin ortasında korun-korun yanan ocağın istisindən aram-aram qızararaq buğda unundan bişən çörəyin xoş və məftunedici ətri xeyli aralıdan hiss olunurdu. Ətrafa yayılan bihuşedici qoxuda ana əllərinin istiliyi, nənə dualarının səssiz pıçıltısı var idi. Sanki təndirin isti nəfəsi evin içinə də bərəkət gətirirdi. O qoxu evin qapısını bağlamırdı–sanki ürəkləri açırdı. Orada torpağın nəfəsi, odun səsi, dua kimi pıçıldanan ümidlər vardı.

Hər tikə çörək bir xatirə olurdu, hər xatirə bir ömür parçası. Soyuq havada təndir başında pürrəngi çay, kənd pendiri və isti təndir çörəyinin dadını heç nə verməzdi. Burada bişən çörək, torpaqdan qalxan bu qoxu sanki günəşlə yoğrulurdu.

Alatoranlı səhər günəşi torpağın sinəsini isidəndə, təndir də oyanırdı. Torpaqdan doğulan alov göyə boylanır, közün içində çörək qızarardı. O an kəndin üzərinə bir qoxu yayılırdı–nə tüstüyə bənzərdi, nə də adi çörəyə. Bu, həyatın öz ətri idi.

Odun tədarükünə yay aylarından başlanardı. Dekabr ayının ortalarında pambıq sahələri elə ki, şumlandı, hamı traktorun qoşqusunda "pambıq çöpü" daşıyardı. Evimizin qarşısındakı su kanalının ətrafındakı qurumuş kolları qırıb təndir ətrafına toplayardıq.

Hər birimizin yaddaşında təndir çörəyi ilə bağlı bir isti xatirə var: kimsə nənəsinin, anasının bişirdiyi çörəyi xatırlayır, kimsə də kənddə təndir başında yığılan qadınların səsini, kimsə də isti çörəyin üzərinə çəkilən təzə qaymağın ətrini… Onun içində bişən hər tikə həm zəhmətin, həm sevginin, həm də bərəkətin təcəssümü idi. Təndir çörəyinin hər tikəsində torpağın dadı, anaların əlləri, xalqın ruhu var. Xəmirin sevgi ilə yoğrulması, təndirin divarına ustalıqla yapışdırılması və qısa müddət sonra qızarmış, xırt-xırt səslə çıxarılması kənd həyatının ən gözəl səhnələrindən biri idi. İsti çörəkdən qopan buxar, onun qızarmış qabığı və içinin yumşaqlığı insanı özünə çəkir.

Elə buna görə də deyirlər ki, təndir çörəyinin ətrindən doymaq olmur. Çünki bu ətrə yalnız aclıq yox, həm də xatirələr, doğmalıq və torpaq sevgisi qarışır. Təndir çörəyinin ətri isə, illər keçsə də, dəyişmir–hər dəfə eyni istiliyi, eyni doğmalığı insanın qəlbinə gətirir. Nənələrimizin yoğurduğu xəmir təkcə undan, sudan ibarət olmurdu. O xəmirə zəhmət və sevgi qatılırdı. Çörək bişirən nənələrimiz də milli adət-ənənələrimizi yaşadan, zəhmətin müqəddəsliyini qoruyan insanlar idi. Nənələr təndir başında səbirlə dayanar, qızarılan çörəkləri üstüstə düzər, diqqətlə baxardılar. Odur ki, onların əllərinin istiliyi təndir çörəyinin ətri kimi yaddaşlarda uzun müddət qalacaq.

Ölkəmizdə təndirin bir neçə növü mövcud olub. Amma yerüstü və yerlə bərabər (yeraltı) olan təndirlərdən istifadə daha geniş yayılıb. Bəzi dağlıq rayonlarında təndiri, hətta evlərin içində elə quraşdırırlar ki, qışda ondan təkcə çörəkbişirmə məqsədilə deyil, həm də evi qızdırmaq üçün istifadə edirlər.



Uzun illərdir ki, tanıdığım Elmira nənə böyük külfət sahibi olub. 5 qız, 5 oğlan dünyaya gətirib. Ailə çörəyə olan ehtiyaclarını həftədə iki dəfə təndirdə bişirməklə ödəyib. Nənə həm də təndir düzəldib satmaqla da çörəkpulu qazanıb. Hər gün qabarlı əllərini üzünə çəkəndə o illərdə çəkdiyi zəhmət yadına düşür.

Elmira nənə deyir: "Təndir xeyir-bərəkət rəmzi olub, qurmaq isə ən savab iş sayılıb. Təndirə çörək yapılan gün həmişə həyət-bacada sevinc, şadlıq olardı. Təzə çıxmış çörək qədər xoş, iştah açan, ətri və dadı olan başqa nemət təsəvvür etmək çətindir. Ona görə də el arasında deyirlər ki, "Təzə çörək çıxdı təndirdən, minnəti yox pendirdən".

Elmira nənə həm də təndir düzəltməklə də ailənin dolanışığına kömək edib. Qeyd edir ki, "təndiri düzəldən zaman öncə onun torpağı düzgün seçilməlidir. Torpağı su və heyvan tükü ilə yaxşıca yoğrulur, 7-8 gün saxlanılır. Heyvan tükü təndirin möhkəmliyində əsas rolu oynayır. Hər ay 10-dan artıq təndir düzəldərdim. Hətta qonşu rayonlardan da gəlib sifariş edirdilər. Düzəltdiyim təndirlər üç hissədən ibarət olurdu. Birinci layı düzəldikdən sonra vacib idi ki, onun qurumasını gözləyək. Ümumilikdə, təndirin hazır olması üçün 25 gün sərf olunurdu.

Əgər qaydasında etməsən, bir-iki dəfə çörək bişirdikdən sonra parça-parça olurdu. Üç-dörd ildən sonra çölünü tez-tez şirələyir, uçuq yerlərini palçıqla yamayırdıq ki, ömrü lap uzun olsun. Əkdiyimiz və üyütdüyümüz buğdanın da ətri bambaşqa idi. Çünki təndirdə bişirilən çörək dadlı olur. Qonum-qonşuya təzə çörək payı göndərərdik. Adətə görə təndirdən təzə çıxan ilk çörəyi bıçaqla yox, mütləq əllə kəsmək lazımdır. Təndirə çörək yapmaq isə bir qədər çətin və ustalıq tələb edən işdir. Elə günlər olurdu ki, kiminsə evinə gözlənilmədən qonaq gəlirdi. Çörəyi az olardısa, qonşulara üz tutardı. Bilirdik ki, bu gün filan qonşu təndirdə çörək bişirib".

Müqəddəs neməti uca tutmaq və qorumaq hamımızın ən ümdə borcudur. Hər zaman dəyirmanlarımız taxıllı, anbarlarımız dolu, çuvallarımız unlu, evlərimiz, süfrələrimiz çörəkli olsun. Kəhraba buğdadan bişən təndir çörəyinin ətri bütün aləmə yayılsın!

Təndir ətri keçmişin səsi, bu günün nəfəsi, sabahın ümididir. O qoxu olan yerdə ev var, ocaq və həyat var.

*Müşfiq MİRZƏ*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 49 (31018) 17 mart 2026-cı il, çərşənbə axşamı

Sirli-soraqlı kainat

# "James Webb" teleskopunda "həyat" siqnalı?

**ABŞ-ın "James Webb Space Telescope" kosmik teleskopu Yer kürəsindən, təxminən, 120 işıq ili uzaqlıqda yerləşən K2-18 b planetində mümkün həyat izlərinə dair indiyədək ən güclü siqnallardan birini aşkarlayıb.**




Alimlərin apardığı müşahidələr zamanı planetin atmosferində metan və karbon qazı ilə yanaşı, dimetil sulfid (DMS) adlı molekulun mümkün izləri müəyyən edilib. Yer kürəsində bu maddə, demək olar ki, yalnız canlı orqanizmlər – xüsusilə okean planktonları tərəfindən istehsal olunur.

K2-18 b öz ulduzunun "yaşanabilən zona"sında yerləşir. Tədqiqatçılar hesab edirlər ki, bu planet geniş okeanlarla örtülü və hidrogenlə zəngin atmosferə malik ola bilən "Hycean dünya" tipinə aid ola bilər. Belə mühitlərdə mikroskopik həyat formalarının mövcudluğu nəzəri cəhətdən mümkün sayılır.

Kəşf planetin ulduzunun qarşısından keçdiyi zaman aparılan müşahidələr zamanı edilib. Bu zaman ulduz işığı planetin atmosferindən keçərək teleskopun sensorlarına çatır və alimlər həmin işığın spektrindəki kimyəvi "imzaları" analiz etməklə atmosferin tərkibini müəyyənləşdirirlər.

Alimlər hələlik bunun qəti həyat sübutu olmadığını vurğulayırlar. Lakin bu qazların birlikdə aşkarlanması K2-18 b-ni Yer xaricində biologiyanın mümkün izlərini daşıyan ən perspektivli planetlərdən birinə çevirib.

Gələcəkdə "James Webb" teleskopunun yeni müşahidələri dimetil sulfid siqnalının real olub-olmadığını və onun doğrudan da bioloji proseslərlə bağlılığını dəqiqləşdirməyə çalışacaq.

Əgər bu ehtimal təsdiqlənsə, bəşəriyyət tarixində ilk dəfə Yer kürəsindən kənarda həyatın mövcudluğuna dair real sübut əldə edilmiş olacaq. Bu isə kainat və insanın təsəvvürlərini kökündən dəyişə bilər.

## İDMAN

### İdman federasiyaları nümayəndələri ilə görüş



**Gənclər və idman naziri Fərid Qayıbov idman federasiyalarının nümayəndələri ilə 25-ci görüşünü keçirib.**

Azərbaycan İdman Akademiyasında təşkil olunan tədbirdə nazir son dövrdə görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat verib.

Görüşün gündəliyinə uyğun olaraq, əvvəlcə martın 2-8-də təşkil edilmiş "İdman həftəsi"nin hesabatı təqdim edilib, 2026-cı ildə "İdman Paytaxtı" Qazax şəhərində keçiriləcək yarışlar haqqında məlumat verilib. Həmçinin "Los-Anceles-2028" Yay Olimpiya Oyunlarına hazırlıq prosesi müzakirə edilib.

"İdmançılarda performansın artırılması və zədələrin qarşısının alınmasında biomexanik analizin rolu" və "İdmançıların təsnifatlaşdırılması" barədə təqdimatlar dinlənilib, eləcə də "2025-ci il ərzində regionlarda görülən işlərə bağlı" hesabat təqdim edilib.

### Boks millilərinin beynəlxalq turniri



**Bu gün Macarıstanın Debretsen şəhərində start götürəcək kişi və qadın boksçular arasında beynəlxalq turnirdə Azərbaycan millisi də qüvvəsini sınayacaq.**

Rafiq İsmayılovla Rəhim Allahverdiyevin rəhbərliyi altında rinqə Amin Məmmədzadə (55 kq), Nəbi İsgəndərov, Nicat Alırzayev (hər ikisi 70 kq), Abbasqulu Şadlinski (75 kq), Həsən Osmanlı (80 kq), Ramal Həsənli, Rauf Rəhimov (hər ikisi 85 kq), Zeynəb Rəhimova (54 kq) və Emili Rzayeva (60 kq) çıxacaqlar.

Turnirdə ölkəmizi Anar Nadıyev hakim kimi təmsil edəcək.

### "Liverpul" – "Qalatasaray" oyununun hakimləri




**Çempionlar Liqasının 1/8 final mərhələsinin "Liverpul" – "Qalatasaray" matçının hakim təyinatları açıqlanıb. Məlumata görə, oyunu Polşadan olan hakimlər briqadası idarə edəcək.**

Qarşılaşmanı baş hakim Şimon Marçinyak idarə edəcək. Ona yan xətt hakimləri Tomas Listkiviç və Adam Kupsik kömək edəcəklər. Dördüncü hakim funksiyasını isə Pavel Raçkovski yerinə yetirəcək.

Xatırladaq ki, ilk oyunda "Qalatasaray" qələbə qazanıb – 1:0. Cavab görüşü martın 19-da Liverpulda keçiriləcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

## 2 soydaşımız Gürcüstan çempionu olub







**Gürcüstanda yaşayan azərbaycanlı yeniyetmə Ramil Mahmudov boks üzrə ölkə çempionu olub. 52 kq çəki dərəcəsində mübarizə aparan Ramil hellədici qarşılaşmada İliya Sanikidze üzərində qələbə qazanaraq çempionluq tituluna yiyələnib.**

Qeyd edək ki, Rustavi şəhərinin təmsilçisi, 46 kq çəki dərəcəsində çıxış edən Cəsur Qəhrəmanov da final görüşündə erməni rəqibi Nodar Oqancanyanı məğlub edərək ölkə çempionu olub.

Beləliklə, hər iki idmançı 15 yaşadək boksçular arasında keçirilən Gürcüstan çempionatında uğurla çıxış edərək qızıl medal əldə ediblər.

Yeniyetmə və gənc boksçuların əldə etdiyi bu nəticə Gürcüstanın azərbaycanlı icması daxilində idmana olan marağın və peşəkar inkişafın bariz göstəricisidir. Sözügedən qələbə bölgədəki soydaşlarımızın ümumi idman hərəkatına verdiyi sistemli töhfələrin tərkib hissəsi olmaqla yanaşı, gələcək nəsillər üçün stimulverici nümunə rolunu oynayır.

*XQ*

## "Neft salnaməsinin şanlı əfsanəsi" ingilis dilində




**Bu günlərdə "Azərbaycan Neft Təsərrüfatı" jurnalının əməkdaşı Akif Əhmədgil və Bakı Dövlət Universitetinin müəllimi Namiq Əhmədovun müəllifləri olduğu "Azərbaycanın neft salnaməsinin şanlı əfsanəsi – Xoşbəxt Yusifzadə" kitabçası ingilis dilində nəfis şəkildə çap olunmuşdur.**

Nəşr Azərbaycanın əfsanəvi geoloqu, görkəmli neftçi-alim, akademik Xoşbəxt Yusifzadənin çoxşaxəli əmək fəaliyyətinə həsr olunmuşdur. Kitabçada, həmçinin dünyaşöhrətli alimin sağlığında mətbuata verdiyi müsahibələr, eləcə də "Azərbaycan Neft Təsərrüfatı" jurnalının 1957-ci il dekabr nömrəsində dərc olunmuş ilk elmi məqaləsi oxucuların diqqətinə təqdim edilmişdir.

*M.HACIXANLI*
*XQ*

## "Bakı-Elektrik Quraşdırma-2"ASC səhmdarlarının nəzərinə!

17 may 2026-cı il saat 10.00-da "Bakı-Elektrik Quraşdırma-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Səhmdar cəmiyyətin 2025-ci il üçün fəaliyyətinin yekunlarına aid idarə heyətinin hesabatı və müəssisənin balansının təsdiqi.

**2.** Digər məsələlər.

**Əlaqə telefonu:** 994-50-327-20-02.

**Ünvan:** Bakı şəhəri, Nizami rayonu, Ə.Nəvai küçəsi 11.

*İdarə heyəti*

## "ŞƏMKİR SƏRNİŞİNNƏQLİYYAT" ASC səhmdarlarının nəzərinə!

25 may 2026-cı il saat 17.00-da **"ŞƏMKİR SƏRNİŞİNNƏQLİYYAT"** ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir. Yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Gündəlikdəki məsələlər:**

**1.** "Şəmkir sərnişinnəqliyyat "ASC səhmdarlarının 2025-ci il üzrə illik hesabatı.

**2.** ASC-nin idarə heyətinin seçilməsi.

**3.** Maliyyə-təftiş komissiyasının seçilməsi.

**4.** Müşahidə şurasının seçilməsi.

**5.** Mənfəətin bölüşdürülməsi.

**Ünvan:** *Şəmkir şəhəri, 20 Yanvar küçəsi 11.*

***"ŞƏMKİR SƏRNİŞİNNƏQLİYYAT" ASC-nin idarə heyəti***

## HAVA

### Paytaxtda çiskin, bölgələrdə yağış və külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.**

Havanın temperaturu gecə 5-8, gündüz 8-13 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 764 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-80, gündüz 65-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi ehtimalı var. Axşam əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 5-9, gündüz 12-17 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti olacaq.

*Qabil ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasova atası

**BƏXTİYAR ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi xarici dillərin tədrisi metodikası kafedrasının dosenti

**GƏRAY YUSİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov maliyyə nazirinin birinci müavini Anar Kərimova əzizi

**ETİBAR ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elm və Təhsil Nazirliyi Molekulyar Biologiya İnstitutunun direktoru, akademik İradə Hüseynova və kollektivi biologiya üzrə fəlsəfə doktoru, dosent Samirə Rüstəmovaya atası

**MƏHƏMMƏDRƏHİM MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2959
SİFARİŞ 375
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00